FAİQ ABBASOĞLU

ƏSRİN GÜZGÜSÜ:
Naxçıvan Teleradiosu

AZƏRBAYCAN MİLLİ MƏTBUATI - 150
(1875-2025)

NAXÇIVAN RADİOSU - 94
(1932 - 2026)

NAXÇIVAN TELEVİZİYASI - 63
(1963 - 2026)

Naxçıvan - 2026

Elmi redaktor: **Ələkbər Qasımov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Teatr Xadimləri İttifaqı və Jurnalistlər Birliyinin üzvü

Redaktor: **Əhməd Əhmədov**
Naxçıvan Televiziyasının baş redaktoru,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Məsləhətçilər: **Asim Yadigar (Əliyev)**
Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri,
Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi

Hüseyn Əsgərov
"Tərəqqi" medallı əməkdar jurnalist

Muxtar Məmmədov
"Tərəqqi" medallı əməkdar jurnalist

Naxçıvan Teleradiosunun ensiklopedik xəritəsi

Bu kitab
Babək "Sirab" ASC və
"Badamlı" Mineral Sular MMC-nin
sponsorluğu ilə nəşr olunmuşdur.

Faiq Abbasoğlu, Əsrin güzgüsü: Naxçıvan Teleradiosu. *Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2026, 196 səh.*

4700000000
053-2026

© "Əcəmi" 2026.

Naxçıvan Teleradiosu muxtar respublikanın dünyaya açılan pəncərəsidir. Televiziya milli məfkurə, dövlətçilik və müstəqillik yolunda mühüm bir missiyanı uğurla yerinə yetirən əsas media qurumudur.

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının Ümummilli Lideri

Milli radio və televiziyamız fəaliyyət göstərdiyi bütün dövrlərdə Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maarifl ənməsində, milli mədəniyyətimizin, ədəbiyyatımızın təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynamışdır.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

MÜNDƏRİCAT

Müəllifdən 6
Ön söz 8
Teleradio xəyalların reallığıdır 10
Naxçıvan Teleradiosu 1963-1974-cü illərdə 12
Naxçıvan Teleradiosu 1974-1989-cu illərdə 21
Naxçıvan Teleradiosu 1990-1993-cü illərdə 27
Naxçıvan Teleradiosu 1993-2001-ci illərdə 35
Naxçıvan Teleradiosu 2001-2004-cü illərdə 38
Naxçıvan Teleradiosu 2005-2013-cü illərdə 42
Naxçıvan Teleradiosu 2013-2025-ci illərdə 45
Naxçıvan Teleradio Komitəsinin sədr və müavinləri *(bioqrafiyalar)* *53*
İllərin teleyaddaşından - "Naxçıvan Televiziyası – 40" 66
Xələflər, sələflər və ailələr, talelər 74
Naxçıvan Teleradiosunun jurnalist-redaktor heyəti 107
Naxçıvan Teleradiosunun rejissor və rəssam heyəti 145
Naxçıvan Teleradiosunun kino və teleoperatorları 155
Naxçıvan Teleradiosunun diktorları 167
Naxçıvan Teleradiosunun mühəndis-texniki heyəti 175
1963-2001-ci illərdə Naxçıvan Teleradiosunda istifadə olunmuş
texniki avadanlıqlar və ləvazimatlar 188
Naxçıvan Televiziyasının efir saatları, xəbər başlıqları və loqoları 190
Tanınmış elm və mədəniyyət xadimlərinin, sənət adamlarının və ziyalıların
Naxçıvan Teleradiosu haqqında fikirləri 192
Son söz 194

MÜƏLLİFDƏN

və ya yada salaq ki, unudulmayaq...

1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzetinin nəşri ilə başlanan maarifçilik hərəkatının və mütərəqqi ideyalarının təbliğində XX əsrin bəhrələri olan "Şərq qapısı" qəzetinin və Naxçıvan Teleradiosunun özünəməxsus mövqeyi olmuşdur. Bu illər ərzində ilk qələm təcrübələrini "Şərq qapısı" qəzetində və yerli mətbuat orqanlarında sınayan jurnalistlərin bir çoxu sonralar Naxçıvan Teleradiosunda jurnalist fəaliyyətlərini davam etdirməklə aktual mövzulu publisist verilişləri, yaddaqalan maraqlı telessenariləri ilə diqqəti cəlb etmişlər. Bununla yanaşı teleradio jurnalistlərinin bir qismi muxtar respublikanın ictimai-siyasi və mədəni həyatından bəhs edən əhatəli məqalələri, maraqlı reportajları və oçerkləri ilə Azərbaycanın dövri mətbuat səhifələrində müntəzəm olaraq çıxış edib Azərbaycan mediasının bugünkü inkişafına dəyərli töhfələri veriblər.

Dəyərli oxucu! Sizə təqdim etdiyim "Əsrin güzgüsü: Naxçıvan Teleradiosu" mənim ikinci kitabımdır. 2022-ci ildə nəşr olunan "Ömrün tale yükü" adlı birinci kitabım Naxçıvan Radiosunun 90 illiyinə həsr olunmuşdu. Mən bu kitabda sənət aləminə ilk dəfə qədəm qoyduğum məktəb və tələbəlik illərindən, Azərbaycan teleməkanında keçirdiyim 43 illik yaradıcılıq yolunda Naxçıvan Televiziyasının mənim üçün əsil həyat və sənət məktəbi olmasından söz açmışam. Naxçıvan Teleradiosunda yaddaqalan bəzi yaradıcılıq prosesləri ilə bağlı xatirələri də qeyd etməyi unutmamışam.

"Əsrin güzgüsü: Naxçıvan Teleradiosu" adlı bu kitab isə 94 yaşlı Naxçıvan Radiosunun və 63 yaşlı Naxçıvan Televiziyasının keçdiyi tarixi inkişaf yoluna həsr olunub. Bu yolun yolçuları olan ilk komitə sədrlərinin, yaradıcı və texniki heyətin xatirələri televiziyanın filmotekasında mühafizə olunan videokasetlərin yaddaşında öz əksini tapıb. Bu yaddaşların stenoqram yazılarını, Naxçıvan Teleradiosunun arxiv-anket sənədlərini, şəxsi arxiv materiallarını və o illərin canlı şahidləri olan əməkdaşların maraqlı söhbətlərini olduğu kimi təqdim etməyə çalışmışam. Düşünürəm ki, kitabda öz əksini tapan o illərin tarixi fotoşəkilləri sizin marağınıza səbəb olacaq. Kitabın "Xələflər, sələflər" və "Ailələr, talelər" bölümü də diqqətinizi cəlb edəcək.



1932-ci ildən ömürlərini Naxçıvan Radiosuna bağlayan ilk təşkilatçı insanların, yaradıcı və texniki heyətin və bu gün Naxçıvan Teleradiosunun tarixi ənənələrini yaşadaraq işgüzarlığı və peşəkarlığı ilə seçilən gənc əməkdaşların telebioqrafiyalarını qısa da olsa, bu kitabda qeyd etməyi özümə mənəvi borc bilmişəm. Bu telebioqrafiyalar Naxçıvan Teleradiosundan

başlanan ilk illərin əmək fəaliyyətləri ilə xronoloji ardıcıllıqla təqdim olunub. Dünyasını dəyişənlərə Allahdan rəhmət, qalanlara isə uzun ömür və sənət uğurları arzulayıram.

Ömrünü televiziya-radio işinə həsr etmiş biri kimi bizdən sonrakı nəsillərə Naxçıvan Teleradiosunun özünəxas dəyərlərini qoruyub yaşatmağı arzu və tövsiyə edirəm. Söz var, deyərlər ki, unutsaq, unudularıq! Dünənə hörmətlə yanaşıb, bu günün insani dəyərlərini sabaha ötürmək hər birimizin mənəvi borcudur. Yada salaq ki, unudulmayaq!

Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası (1964-cü il).

ÖN SÖZ

Bəşər sivilizasiyasının ən qədim mədəniyyət mərkəzlərindən olan qədim Naxçıvan torpağı tarixin müxtəlif dövrlərində dünya mədəniyyəti xəzinəsinə görkəmli şəxsiyyətlər bəxş etmiş, tarixin axarını dəyişən şəxsiyyətlərin simasında Azərbaycan dövləti və dövlətçiliyi şanlı inkişaf yolu keçmişdir. Naxçıvan bütün tarixi dövrlərdə Azərbaycan dövlətçiliyinin, milli mədəniyyətinin, ədəbiyyatının, ictimai-siyasi düşüncəsinin mərkəzi fiqurlarından biri kimi Azərbaycanın tarixi torpağıdır. Naxçıvanın keçdiyi tarixi inkişaf yolunun hərtərəfli şəkildə öyrənilməsini elmimizin qarşısında mühüm vəzifə kimi qoyan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Naxçıvan muxtariyyatını tarixi nailiyyət kimi qiymətləndirərək qeyd edirdi: "Naxçıvanın muxtariyyatı mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur... Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyat hüququ veriblər". Ulu öndər Heydər Əliyevin milli dövlətçilik konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev Naxçıvanın hərtərəfli inkişafını daim diqqət mərkəzində saxlamış, mühüm dövlət proqramları çərçivəsində Naxçıvan Muxtar Respublikasının da dinamik inkişafına dövlət dəstəyi göstərməklə ulu diyarın sürətli tərəqqisinə nail olmuşdur. Tarixin çətin sınaqlarından üzüağ çıxan Naxçıvan XX əsrdə çoxsaylı məhrumiyyətlər görsə də, ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətindən ayrı düşsə də, muxtariyyat mübarizəsi etsə də, sovet rejimi dağıldıqdan sonra ağır blokada şəraitində mübarizə aparsa da, bu məğrur diyar mübarizə yolunda irəliləyərək Azərbaycan dövlətçiliyinin inkişafına töhfələrini vermişdir.

Tarix isə öz dərslərini diktə etməkdədir. Ulu diyarın yetirdiyi görkəmli şəxsiyyətlər Naxçıvanın inkişafına hər zaman dəyər qatmışlar. Tarixin axarını dəyişən belə görkəmli şəxsiyyətlərdən biri də Ulu öndər Heydər Əliyev olmuşdur. Hələ siyasi hakimiyyətinin birinci dövründə Ulu öndər Naxçıvana daim diqqət və qayğı göstərmiş, muxtar respublika sürətli inkişaf yolunu məhz onun dəstəyi ilə tutmuş, dövlət strukturlarının formalaşması, mərkəzi idarəçiliyin təkmilləşməsi prosesi öz bəhrələrini vermişdir. Bu sırada Naxçıvan Teleradiosunun inkişafı da bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Moskvanın şovinist siyasətinə qarşı istefa verən, güclü təzyiqlərə məruz qalıb doğma məkana – Naxçıvana qayıdan Heydər Əliyev xalqın ümid yeri, pənahı kimi doğma yurdunun müdafiəsi və mühafizəsi üçün düşünülmüş fəaliyyətə başladı. Naxçıvan MR Ali Məclisinin Sədri kimi fəaliyyəti dövründə Heydər Əliyev Naxçıvan Teleradiosuna da xüsusi diqqət göstərmiş, radio-televiziya mühitinin saflaşdırılması, informasiya blokadasının yarılması və təhlükəsizliyinin təmin olunması, sahəsində mühüm işlər görərək bu məkana yeni nəfəs vermişdir.

Naxçıvan Teleradiosunun yaranmasından keçən şanlı illərin müxtəlif mərhələlərində dövlət dəstəyi ilə bu qurum doğma diyarın ictimai-siyasi, ədəbi-mədəni həyatının güzgüsünə çevrilmiş, yaxın tariximizin salnaməsi kimi möhtəşəm illərimizə şahidlik etmişdir. Naxçıvan Teleradiosunun keçdiyi tarixi inkişaf yolunun ayrı-ayrı mərhələləri, problemləri, bu məkanda çalışmış şəxsiyyətlərin, teleməkanın keçdiyi inkişaf yolunda əməyi keçən insanların fəaliyyət yolunu ümumiləşdirilmiş şəkildə yaddaşlara yazmaq həm teleradio tarixinin hərtərəfli öyrənilməsi, həm də burada fəaliyyət göstərən simaların zəhmətinin qiymətləndirilməsi baxımından xüsusilə

əlamətdardır. Bu mənada hazırlanan "Əsrin güzgüsü: Naxçıvan Teleradiosu" kitabı Naxçıvanda teleradionun yaranması, inkişaf yolu, tərəqqisi və bu tarixin şahidlərinin müqəddəs əməyinə verilən töhfə kimi inanırıq ki, ictimaiyyətin diqqətini xüsusilə cəlb edəcəkdir. Teleradio əməkdaşlarının kadrlarla iş şöbəsində saxlanılan anket vərəqlərindən, teleradionun filmotekasında mühafizə olan videokasetlərdən, ayrı-ayrı dövrlərdə fəaliyyət göstərən şəxslərin arxiv fotoşəkillərindən, xatirələrindən, Faiq Abbasoğlunun (Musayevin) şəxsi arxivindəki müxtəlif səpkili materiallardan istifadə olunmaqla bu kitabda yaşanmış tarixi dövrün xronikası yaradılmışdır.

Əhməd Əhmədov,
Naxçıvan Televiziyasının baş redaktoru,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

TELERADİO XƏYALLARIN REALLIĞIDIR

Bəşər övladı dünyaya göz açandan xəyallarla yaşayıb. Xəyallar aləmində gördüyü yuxuların çin olmasını arzulayıb. Yaratdığı əfsanə və nağıllarda uçan xalçalar, sehirli çıraqlar, sehirli güzgülərlə istəklərinə çatmaq istəyib. Gördüyü yuxularla xəyallarında möcüzələr yaradıb, həyatın gözlənilməz möcüzələrini arzulayıbdır. Sularda öz əksini, torpaq üstündə addımladıqca kölgəsini görən insan özünü ağ kağızda da görəndə heyrətlə bu möcüzənin varlığına inanıb. Məhz bu əkslər və kölgələr əsasında fotoqrafiya yaranıb. Buna görə də fotoqrafiya kino və televiziya sənəti şəcərəsinin ilki hesab olunur. İnsan öz hərəkətlərini ağ kətan üzərində canlı görəndə də möcüzənin varlığına həsəd aparıb. Beləliklə, kino yaranıb. Kino - canlı, hərəkətdə olan təsvir üzərində qurulmuş həyat modelidir. Kinonun geniş dil vahidi olan təsvirlə insanın yuxuları, yaddaşının güzgüsü arasında sıx bağlılıq var. Əbəs yerə deməyiblər ki, ən dahi kinorejissorlar yuxularını ekrana gətirənlərdir. Kino sənətində insanın bütün iç dünyası, xəyalları öz əksini tapır. Bəşər övladı səsinin əks sədasını "Alo" deyilən cihazdan-telefondan eşidəndə heyrətə gəlib, danışan "qutu" – radio ilə həmsöhbət olub, onunla baş-başa qalıb. Həyatla həqiqət arasında yerlə göy qədər fərq olsa belə, insan təxəyyülünün, insan zəkasının gücü həmişə xəyalı həqiqətə çevirməyə qadir olub.

XX əsrdə elmin, texnikanın yüksək tərəqqisi kütləvi informasiya vasitələrinin də inkişafına güclü təkan verdi. Ötən yüzilliyin 20-30-cu illərindən başlayaraq kütləvi informasiya sırasına yeni vasitə – radio və televiziya da qoşulub. Bəşər övladının xəyallarla arzuladığı möcüzələrdən biri – radio yaranıb. 1895-ci ildə rus fiziki A.S.Popov elektromaqnit dalğaları vasitəsilə mayın 7-də bütün dünya radiosunun yaranma tarixinə imza atıb. 1924-cü il noyabrın 6-da Azərbaycanda radio verilişlərinin əsası qoyulub. Naxçıvanda isə Radio Verilişləri Komitəsinin yaradılması 1932-ci ilə təsadüf edir. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1 aprel 1932-ci il tarixli iclasının protokoluna əsasən Naxçıvan MSSR Xalq Komissarları Soveti yanında "Radio Verilişləri Komitəsi"nin yaradılmasına qərar verilib. Komitənin ilk sədrləri Tarverdi Allahverdiyev, Qadir Səmədov, Hüseyn İbrahimov ilk baş redaktorları Nəcəf Tağızadə, Əsgər Səfərov, Məşkur Əkbər, Karlen İbrahimov, ilk diktorları isə Xalidə İbrahimova, Gültəkin Kəngərli, Zərifə Fətullayeva, Ağa Ağayev, Nurəddin Manafov və başqaları olublar. İlk vaxtlar verilişlərin əsasını "Şərq qapısı" qəzetinin xülasəsi, partiya və dövlət, elm, ədəbiyyat, mədəniyyət xadimlərinin çıxışları, canlı konsertlər təşkil edirdi. Sonralar yeni ictimai-siyasi və ədəbi-bədii verilişlərlə yanaşı, radiooçerk, radiohekayə, radiofelyeton və radiotamaşalar kimi bədii-sənədli yayım növləri də Naxçıvan Radiosunda aparıcı yerlərdən birini tutdu. İllər axarında radio əməkdaşları studiyadankənar "Reportyor" adlanan ağır çəkili səsyazma aparatı ilə verilişlər, reportajlar, oçerklər hazırlamağa başladılar. Zaman keçdikcə radiotexnikanın sürətli inkişafı nəticəsində "Reportyor"ları yeni səsyazma aparatları- "Diktofon"lar əvəz etdi. 80-ci illərin əvvəllərində yeni istifadəyə verilən səyyar radiostudiya da dövlət əhəmiyyətli tədbirlərin canlı



A.S.Popov.

yayımına, sənaye mərkəzlərindən, kənd təsərrüfatının bütün sahələrindən, ucqar dağ kəndlərindən, elm və mədəniyyət ocaqlarından irihəcmli verilişlər hazırlamağa şərait yaratdı. Yarandığı illərdən etibarən Naxçıvan Radiosunda ilk dram verilişlərinin və tamaşalarının hazırlanmasında Naxçıvan Teatrının rejissor və aktyor heyəti yaxından iştirak edib. Radiotamaşaların hazırlanıb "Radionun tamaşa salonu" adı ilə efirə təqdim olunmasında yazıçı-jurnalistlər Bayram İsgəndərlinin, Güllü Məmmədovanın, Akif Axundovun böyük zəhmətləri olub. Naxçıvan Radiosunun 50 illik yubileyi 1982-ci il may ayının 7-də, Radio Günündə qeyd edilib.

Vurğulamaq yerinə düşər ki, bu gün "Naxçıvan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Radiosu ən müasir avadanlıqlarla təchiz olunub. Bu gün "104.1 FM" dalğasında yayımlanır.

Hüseyn İbrahimov Naxçıvan MSSR Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri (1949-1954).



Nəcəf Tağızadə Radio verilişləri baş redaksiyasının baş redaktoru (1954-1963).

Radionun əməkdaşları Rəşid Behbudovla (soldan həkim Əliheydər Qənbərov, Rəşid Behbudov, Nəcəf Tağızadə, yuxarıdan ikinci Məşdi Əliyev, Mənsim Fərəcov, Məşkur Əkbər, Əbdüləli Rüstəmov, Zərifə Fətullayeva və Nurəddin Manafov. 1961-ci il).

Bir qədər sonra dünyada ikinci bir möcüzə baş verdi – televiziya yarandı. Əgər kino səsləndirilmiş təsvirlərdirsə, televiziya təsvir edilmiş səslərdir. Televiziyanı kinodan fərqləndirən əsas cəhət onun hadisələri həmin an canlı və operativ şəkildə birbaşa tamaşaçılara təqdim etməsidir. Dünyada ilk dəfə televiziya verilişləri Amerikada rus mühəndisi V.Zvorkin tərəfindən 1921-ci ildə sınaqdan keçirilib. 1931-ci ildə eksperimental televiziya yaradılıb. 1934-cü ilin noyabrında keçmiş SSRİ-də, 1935-ci ildə Almaniya və Fransada ilk teleyayımlar olub. Dünyada televiziyanın fəaliyyəti ilk dəfə 1936-cı il noyabrın 2-də İngiltərədə "BBC" teleşirkətinin rəsmi efir yayımı ilə başlanıb. 1940-cı illərin ikinci yarısından müntəzəm televiziya fəaliyyətinə başlayan ABŞ-da ilk rəngli televiziya proqramı 1951-ci ildə efirə buraxılıb. Türkiyə Televiziyasının yaranma tarixi isə 1968-ci ilə təsadüf edir.

V.Zvorkin.

1956-cı il fevralın 14-ü rəsmi olaraq Azərbaycan Televiziyasının yaranması tarixi hesab olunur. Məhz həmin gün Bakıda ilk mavi ekranlar işıqlandı. Naxçıvanda isə bu xəyal 1963-cü ildə həqiqətə çevrildi, yanvar ayından Naxçıvanda televiziya texnikasının quraşdırılmasına başlandı və "Televiziya Redaksiyası" yarandı. Gənc jurnalist Fərman Tağıyev redaktor təyin olundu. 1963-cü ilin axırlarında Radio və Televiziya redaksiyaları birləşdirildi və "Naxçıvan MSSR Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsi" yaradıldı. Komitəyə Səfərəli Babayev sədr təyin edildi.

NAXÇIVAN TELERADİOSU

1963-1974-cü illərdə

1963-cü ilin mart ayının 1-də ilk sınaq verilişi efirə hazırlandı və martın 12-də ağ-qara görüntülərlə Naxçıvan Televiziyasının ilk diktoru Elza Salmanova qədim şəhərin mərkəzindəki və ona yaxın məhəllələrdəki evlərin sakinlərini salamladı. İlk tamaşaçılar muxtar respublika həyatından bəhs edən bir neçə xəbəri dinləməklə kifayətləndilər və sonra qısametrajlı televiziya filmi göstərildi. 1964-cü il aprelin 1-dən isə rəsmi surətdə fəaliyyət göstərən Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə Səfərəli Babayev, 1965-1974-cü illərdə isə Fərman Tağıyev rəhbərlik etməyə başladılar. Bəlkə də Naxçıvan 11 milyon kvadrat kilometr əraziyə malik olan sovet imperiyasının sonuncu əyaləti idi ki, ilk dəfə olaraq özünün müstəqil proqramını təqdim edirdi. Sonrakı bir neçə il müddətində də verilişlər efirə belə təqdim olunurdu. Televiziyanın əhatə dairəsi olduqca məhdud, maddi-texniki bazası çox kasıb idi. Verilişlərin hazırlanması və efirə çıxarılması yolları ən ibtidai üsullarla aparılırdı. Teleradio texnikası və avadanlıqları Naxçıvana necə çatırdı? O vaxt üçün ən müasir sayılan və əslində geridə qalan sovet teleradio texnikası bir neçə il Moskvada və Bakıda istifadə olunduqdan sonra Naxçıvan Teleradiosuna göndərilirdi. Yaradıcı kollektivin başı üzərində daim dövlət senzurası deyilən bir əl dolanmaqda idi. Bu senzuranın müəyyən etdiyi çərçivədən bir addım belə kənara çıxmaq ən ciddi və bağışlanmaz nöqsan sayılırdı. Televiziya verilişlərinin hər biri "podstavka", yəni xüsusi duracaqlar üzərinə qoyulmuş 15-20, bəzən də 50-60 ədəd ağ-qara fotoşəkil və neqativ kinolentlər vasitəsi ilə hazırlanırdı. Rejissor köməkçisi tez-tez bu fotoları dəyişir, bəzən də səhv salaraq verilişlər arasında nümayiş olunan "Kinojurnal", "Sənədli film", "Elmi-kütəvi film" sözləri yazılmış qalın karton kağızlarını və sonluqlarını kameralar qarşısına qoyurdu. Sətiraltı cümlələr isə həmin verilişlərin ümumi qayəsini təşkil edirdi. Sərbəstlik, azadlıq, həqiqəti söyləmək barədə söz ola bilməzdi. Hətta televiziya ilə çıxış edənlərin mətnləri belə redaksiya jurnalistləri tərəfindən hazırlanırdı və onlara da təkcə yazılanları oxumaq qalırdı. Vəziyyət 1969-cu ilə qədər belə davam etməkdə idi.

Naxçıvan Teleradiosunun ötürücü qülləsi.

Rejissorun idarəetmə pultu.

Studiya telekameraları.

İlk diktor Elza Salmanova Naxçıvan Televiziyasının efirə çıxdığını bildirir (12 mart 1963-cü il).



Diktor Mehdi Abdullayev (1964).



Diktor Məhəbbət Mehdiyeva (1963).

Teleradionun əməkdaşları 1 May nümayişində (1964-cü il).

Jurnalist Fərman Tağıyev və professor Əziz Şərif (1964-cü il).



Əliheydər Qənbərov, Bəxtiyar Vahabzadə və İslam Səfərli, televiziyanın qonağıdırlar (Sağdan birinci jurnalist F.Tağıyev 1963-cü il).



Televiziya əməkdaşlarından bir qrupu (1969-cu il).

Jurnalistlər Fərman Tağıyev və Elxan Əliyev.

Texniklərdən Əbdüləli Rüstəmov, Leysan Seyidov və Natiq Allahverdiyev ilk səyyar televiziya stansiyası avtobusunun önündə.

Kinooperatorlar Yavər Əliyev və Ənvər Rəhimov.

Televiziyanın ilk kinolaboratoriyası.

Televiziyanın ilk kinomontaj stolu.

Diktor Mehdi Abdullayev hərbçilərlə studiyadan canlı müsahibə aparır (1964-cü il).

Televiziyanın əməkdaşları Elxan Əliyev, Arif Həbibov, Nürəddin Babayev, Yorulmaz Qoçəliyev və Yavər Əliyev iməcilikdən sonra (aprel 1965-ci il).

1969-cu ildə Azərbaycanın başı üzərində bir günəş doğdu və bu günəş özünün parlaq şəfəqlərini həyatın bütün sahələrinə, o cümlədən televiziya və radionun inkişafı sahəsinə saldı. Bu Heydər Əliyev günəşi idi. Ulu öndər televiziya və radionun rolunu həmişə yüksək qiymətləndirir və deyirdi: ***"Televiziya informasiya vasitələri içərisində ən kütləvisidir".*** Məhz bu mühüm cəhəti nəzərə alan Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri kimi Rabitə Nazirliyinə, Teleradio Verilişləri Komitəsinə qəti tapşırıq verdi ki, qısa müddətdə Naxçıvanda respublika televiziyası verilişlərinin yayımlanması və yerli teleradionun imkanlarının genişləndirilməsi üçün texniki məsələləri həll etsinlər. Elə o zaman Naxçıvanda verilişlərin qəbulu üçün 10-dan çox radio-televiziya xətti, yarımstansiya və Duzdağ ərazisində 5 kilovat gücündə televiziya stansiyası quraşdırıldı. Naxçıvan Teleradiosunun maddi-texniki bazası möhkəmləndirildi. Əməkdaşların yaradıcı fəaliyyətində böyük ruh yüksəkliyi yarandı. 1974-cü ilin oktyabrında Naxçıvan MSSR yaradılmasının 50 illik yubiley şənliklərində iştirak edən Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyevin Naxçıvan Dəmiryol Vağzalında qarşılanma mərasimindən bir neçə saat sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən təntənəli yubileydə, fasilə zamanı teatrın qonaq otağında Naxçıvan Televiziyasını izləyərkən, ilk dəfə olaraq Naxçıvan Teleradio əməkdaşlarının peşəkarlığını, xüsusilə də kinooperatorların operativliyini o, çox yüksək yüksək qiymətləndirdi. Elə həmin ildə də Naxçıvan Televiziyasının bir neçə əməkdaşı fəxri adlara və diplomlara layiq görüldü, yeni mənzillərlə təmin olundu.

NAXÇIVAN MSSR YARADILMASININ 50 İLLİK YUBİLEY ŞƏNLİKLƏRİNDƏ İŞTİRAK EDƏN AZƏRBAYCAN KP MK-nin 1-ci KATİBİ HEYDƏR ƏLİYEV.
(oktyabr 1974-cü il)

Naxçıvan Teleradiosunun əməkdaşları bu şənlikləri operativ surətdə efirdə işıqlandırmışlar

NAXÇIVAN TELERADİOSU

1974-1989-cu illərdə

Naxçıvan Televiziyasının yarandığı ilk illərdən gənc jurnalist kimi fəaliyyətə başlayan, sonradan "İctimai-siyasi verilişlər" redaksiyasının baş redaktoru olmuş Elxan Əliyev 1974-cü ildə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə sədr təyin olundu.

1974-1989-cu illərdə Naxçıvan Teleradiosunda canlanma yarandı. Muxtar respublikanın ictimai-siyasi, mədəni həyatı, ədəbi mühitindən bəhs edən, yeni jurnalist yanaşmaları və araşdırmaları ilə hazırlanan maraqlı verilişlər tezliklə efirə vəsiqə aldı. Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin teleradiosunda maddi-texniki baza gücləndi. Yeni texniki avadanlıqlar alındı. 3 obyektivli primitiv telekameralar, yeni rəngli telekameralarla əvəz olundu. Rəngli kinolentlərin aşkarlanması üçün kinolobaratoriya quraşdırıldı. İşıqlandırma sistemi yeniləndi. Səyyar radiostudiya və "Etüd" rəngli səyyar televiziya stansiyası əməkdaşların ixtiyarına verildi. 1985-ci il sentyabrın 25-də studiyanın yeni qurulmuş rəngli texniki avadanlıqları ilə "Möminə xatun" türbəsinin dairəvi rəngli fotosu fonunda Naxçıvan Televiziyası efirə çıxdı. Naxçıvan Televiziyasının rəngli təsvirlərlə efirə çıxması əməkdaşlarla bərabər yerli sakinlərin də böyük sevincinə səbəb oldu. Yeni qurulan rejissor idarəetmə pultunda kompüter yazı makinası, "Xəbərlər" və başqa verilişlərin aparıcıları üçün fonda foto və kinosüjetlərin verilməsi imkanı yaradıldı. Əməkdaşlarda yeni telelayihələrin hazırlanmasına, rəngli televiziya filmlərinin çəkilməsinə maraq oyandı. İlk rəngli "Qüdrətli diyar", "Müqəddəs nemət", Məni qoymayın təklənəm" telefilmləri qısa müddətdə ekranlarda nümayiş olundu. 1986-cı ildə televiziyanın efir başlığının dəyişdirilməsi qərara alındı. Naxçıvanın tarixi abidələrindən, təbiət və şəhər görüntülərindən çəkilmiş rəngli kinokadrların üzərinə ikili təsvirlə "Naxçıvan Televiziyası" yazılmış bir dəqiqəlik videoçarx bəstəkar Cavanşir Quliyevin "Bura vətəndir" mahnısının fonunda efirə təqdim olundu. Bu dövrlərdə Naxçıvana tez-tez ezam olunan Azərbaycan Televiziyasının əməkdaşları Naxçıvanla bağlı verilişlərin bir çoxunu yerli televiziyanın köməyi ilə hazırlamağa başladılar. Onlar üçün studiya və naturadan çəkilişlər aparmağa hər cür şərait yaradıldı. "Naxçıvanın ədəbi mühiti", Naxçıvan Dövlət Pedaqoji İnstitutuna həsr olunmuş "Tələbə dünyası", korifey sənətkar, SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərlik etdiyi "Mahnı Teatrı"nın Naxçıvana qastrol səfəri və konsert proqramlarının studiya çəkilişləri məhz Naxçıvan Televiziyasının rəngli kameraları ilə lentə alınmışdır.

1988-ci ildə Naxçıvan Televiziyasında efirə vəsiqə alan "Ayrılıq" ədəbi-bədii proqramı o dövr üçün Naxçıvan Televiziyasının və proqramın müəllifi, jurnalist Hüseyn Əsgərovun cəsarətli addımı idi. Bu veriliş sərhəd hərəkatının təkan və ilhamverici qüvvəsinə çevrildi. O zamanlar Naxçıvan Televiziyasına gələn minlərlə məktub "Ayrlıq" verilişinin otaylı, butaylı tamaşaçıları arasında böyük şöhrət qazanmasından xəbər verirdi.

31 dekabr 1989-cu ildə baş tutan "Sərhəd hərəkatı" Naxçıvan Televiziyasının əməkdaşı jurnalist Hüseyn Əsgərovun reportaj və çəkilişlərində öz əksini tapdı. Güclü təzyiqlərə baxmayaraq Hüseyn Əsgərov bu çəkilişləri cüzi montaj etməklə dolğun mətnlə, olduğu kimi efirə təqdim etdi.

1989-cu ildə "Şərq qapısı" qəzetinin redaktoru Vahid Bağırov Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə sədr təyin olundu. Teleradionun təşkilati və yaradıcı işində dönüş yarandı. Radioda "Naxçıvanın səsi", televiziyada "Naxçıvan dalğası" xəbərlər proqramı, yeni radio proqramları, televiziyada "Karvan" ədəbi-publisistik proqramı, gənclər üçün "Araz", qadınlar üçün "Qərənfil", ictimai-siyasi yönümlü "Əqidə" proqramları, "Göy qurşağı" folklor toplusu, "Yaddaşlarda yaşayanlar" musiqili ədəbi-bədii silsilə verilişlər də həmin dövrdə efirə vəsiqə aldı və tez bir zamanda da dinləyici, tamaşaçı auiditoriyasının diqqətini cəlb etdi.

Rejissor idarəetmə pultunda rejissor Əsgər Əsgərov, rejissor assistenti Ədalət Qənbərov və texnik-mühəndis Nəriman Vəliyev.

"Xəbərlər" efirdədir.
Diktorlar Laləzar Hüseynova və Xəlil Hüseynov.

Teleoperatorlar Qadir Əliyev,
Qılman Zamanbəyov.

Kinooperator Nurəddin Əliyev
çəkiliş zamanı.

Kinooperator Yavər Əliyev
"Məhsul bayramı"nın çəkilişində.

Jurnalist Arif Həbibov, kinooperatorlar Ənvər Rəhimov və Məmməd İsmayılov.

"Poeziya dəqiqələri" verilişinin çəkilişi.

AzTV-nin əməkdaşı jurnalist Telli Pənahqızı Naxçıvan Televiziyasının əməkdaşları ilə birlikdə veriliş hazırlayarkən

Yaradıcı heyət Yeni il verilişinin çəkilişindən sonra.

Teleradionun "Nəqşi-cahan" ansamblı növbəti çəkilişə hazırlaşır. Ansamblın rəhbəri Arif Quliyev və rejissor Faiq Musayev.

Redaktor Adil Babayev və diktor Ramiz Qurbanov növbəti verilişə hazırlaşarkən.

Televiziyanın nəğməli qonağı müğənni İlhamə Quliyevadır. Redaktor Adil Qasımlı və rejissor Əhməd İmanov çəkilişdən öncə.

Mərhum xalq artisti Həsən Məmmədov Naxçıvan Televiziyasının qonağıdır.

"Tələbə dünyası" verilişinin aparıcısı İsa Həbibbəyli.

"Ədəbi üfüqlər" verilişinin aparıcısı İsa Həbibbəyli.

Studiyanın nəğməli qonaqları Canəli Əkbərov, Səkinə İsmayılova və Baba Mahmudoğlu Aparıcı Laləzar Hüseynova .

Rejissor Faiq Abbasoğlu çəkiliş zamanı.

"Ayrılıq" proqramının aparıcısı Hüseyn Əsgərov proqramın qonaqları ilə.

"Sərhəd hərəkatı"ndan foto (31 dekabr 1989-cu il).

Yaradıcı heyət yeni alınmış "Etüd" səyyar televiziya avtobusunun önündə.

Texniki heyətin bir qrupu yeni alınmış rəngli telekameranın önündə.

NAXÇIVAN TELERADİOSU

1990-1993-cü illərdə

Naxçıvan Teleradiosunun mövcudluq tarixinin ən ağır, ən çətin dövrü 1990-cı illərə təsadüf etdi. Bu elə bir dövr idi ki, bütün Azərbaycan Vətəni itirmək təhlükəsi qarşısında idi. 1990-cı il yanvarın 19-u saat 19:27 də Azərbaycan Televiziyasının enerji bloku mənfur SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin "Alfa" qrupu tərəfindən partladıldı. Azərbaycan Televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. Həmin günlərdə Naxçıvan Teleradiosu haqq səsimizi – "20 Yanvar" faciəsini, Naxçıvana erməni-rus təcavüzünü dünyaya çatdırmaq üçün ilk dəfə 8 dildə məlumat verməklə efirə çıxdı. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri Səkinə Əliyevanın Naxçıvan Muxtar Respublikasının xüsusi qərarla SSRİ-nin tərkibindən çıxması barədə bəyanatı da Naxçıvan Radiosu ilə yayımlandı. Həmin gün birbaşa efirə gedən və lentə yazılan bu xəbərlər ertəsi gün və daha bir neçə gün 4 dəfə orta dalğada səsləndirildi. Bu xəbərləri o zaman Naxçıvan Teleradiosunun diktoru işləyən Ələkbər Qasımov Azərbaycan dilində, telejurnalist Tünzalə Hüseynova rus dilində, müəllimlərdən Qafar Məmmədov ingilis dilində, Validə Qafarova fransız dilində, Həmid Arzulu alman dilində, Naxçıvan Elmi Mərkəzinin əməkdaşı Şəmsi Əliyev fars dilində, Muxtar Respublika Mədəniyyət Nazirliyi Elmi-Metodiki Mərkəzinin əməkdaşı Nazim Həsənov ərəb dilində, "Sovetskaya Naxiçevan" qəzetinin əməkdaşı Fəsahət Hüseynov türk dilində oxudular. Naxçıvan Teleradiosu Naxçıvanda yaranan milli hərəkatı, Sədərək döyüşlərini bütövlükdə işıqlandırırdı. Televiziyanın bütün əməkdaşları Sədərək döyüşlərinin hər anından reportajlar hazırlayır, çəkilişlər edirdilər. İlk şəhidlərin dəfnləri, xəstəxanada yaralılarla müsahibələr lentə alındı. Həmin dövrdə jurnalist Hüseyn Əsgərovun tibb bacısı Nəzifə Qaybalıyevadan silah yoldaşlarının əhatəsində aldığı müsahibədə, onun Naxçıvanın oğul və qızlarına Vətən uğrunda mübariz çağrışla müraciət etməsi, "son damla qanıma qədər vuruşacağam" deyərək and içməsi bütün naxçıvanlıları riqqətə gətirdi. Bu heyrətamiz müsahibə əsasında Naxçıvan Televiziyası 2023-cü ildə Nəzifə Qaybalıyevanın iştirakı ilə "Sədərəkdən Şuşaya" (Müəllif: S.Tahirli) sənədli televiziya filmini yaratdı.

Jurnalistlər Fikrət Qurbanov və Fəridə Abdullayevanın yaralılarla müsahibələri (yanvar 1990-cı il).

Naxçıvan şəhər qəbiristanlığında şəhid İdris Məmmədovun dəfn mərasimi.

Jurnalist Elman Həbib şəhid doğmaları ilə müsahibə apararkən. (Şərur rayonu Oğlanqala kəndi).

Rejissor Faiq Abbasoğlu və kinooperator Məmməd İsmayılov Şərur rayonunda ilk şəhidlərin ziyarəti zamanı çəkiliş apararkən.

Jurnalist Hüseyn Əsgərov Sədərək döyüşlərinin iştirakçısı, ilk qadın döyüşçü, tibb bacısı Nəzifə Qaybalıyevadan müsahibə alır. (yanvar 1990-cı il).

Jurnalist Hüseyn Əsgərov Nəzifə Qaybalıyevadan aldığı müsahibəni 33 ildən sonra Şuşada davam etdirir. (2023-cü il).

Teleradionun texniki işçilərindən bir qrupu matəm günlərində.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev "Şəhidlər Xiyabanı"ndakı matəm mərasimində. (Naxçıvan, 20 yanvar 1991-ci il).

O zamanlarda ağır döyüşləri lentə almaq, həmin gün də tamaşaçılara çatdırmaq o qədər də asan deyildi. 1990-1993-ci illərdə blokadaya alınmış Naxçıvanın ictimai-siyasi vəziyyətini, ermənilərin Sədərəyə hücumlarını kinooperator **Nurəddin Əliyev** belə xatırlayır.

– Yanvarın 18-də həmkarım Yavər Əliyevlə Sədərəkdə çəkilişdə idik. Günortadan sonra çəkiliş zamanı dedilər ki, ermənilər hücuma keçiblər. Çəkilişi yarımçıq qoyub döyüş bölgəsinə yollandıq. Sərhəddə duran sovet əsgərləri çəkilişə icazə vermədilər. Buna baxmayaraq mən gizli yolla daşların arasından keçib bəzi kadrları lentə aldım. O vaxt ağ-qara neqativ kinolentlər idi. O günlər yadıma düşəndə qəhərlənirəm. Televiziyanın bütün kinooperatorları və əməkdaşları Sədərəkdə idi. İlk Sədərək şəhidlərinin dəfnindən tutmuş, xəstəxanada olan yaralılarla müsahibələr, Sədərəyə köməyə gələn ardı-arası kəsilməyən Naxçıvan camaatının döyüş əhval-ruhiyyəsi olduğu kimi lentə alındı. Operatorlarımız hər an erməni gülləsinə tuş gələ bilərdi. Amma torpağa, Vətənə sədaqət hər şeyə qalib gəldi. Allah qorudu bizi. O ağır günlərdə Naxçıvan tamamilə təcrid olunmuş vəziyyətdə idi. İnformasiya qıtlığı idi. Yeganə ümid Naxçıvan Teleradiosuna idi. Buna görə də hər gün Sədərəkdən çəkilən süjet və reportajlar operativ surətdə Naxçıvan camaatına çatdırılırdı. Heç yadımdan çıxmaz, Nüvədiyə getdik, ağır vəziyyətdə, hədə-qorxu içərisində Nüvədidən köçənləri lentə aldım, alınan müsahibələrlə "Nüvədi köçü" adlı veriliş hazırlandı. Çox təəssüf ki, o veriliş indi yoxdur. O vaxtları verilişlər iri babinli videolentlərə yazılırdı. Videolentlərin qıtlığı və texniki heyətin səhlənkarlığı üzündən tarixi videosənəd silindi. "Nüvədi köçü" adlı veriliş ancaq kağızlar üzərində qeyd olunub. O illərdə Naxçıvanın iqtisadi-siyasi vəziyyəti çox ağır idi. Naxçıvanda yaranmış vəziyyəti Azərbaycan rayonlarına və Azərbaycanda baş verən hadisələri Naxçıvan əhalisinə çatdırmaq üçün bir neçə deputatdan ibarət nümayəndə heyəti ilə Qarabağa ezam olundum. 1992-ci ildə Ağdamın Daşaltı əməliyyatının ilk şəhidlərinin meyitlərini çəkmək mənim üçün ürək ağrısı idi. Çəkilişlər zamanı həyacandan kameranı əlimdə tuta bimirdim. O illərdə Qarabağda çəkilən bütün süjetləri təcili Gəncədən Naxçıvana göndərirdik ki, Naxçıvan camaatı baş verən hadisələri görsün.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

O qanlı-qadalı illərin canlı şahidi təqaüdçü, əməkdar jurnalist **Sadiq Gözəlov** xatirələrində qeyd edir ki, 1988-ci ilin may ayında erməni quldurları Vedi rayonunun Şirazlı kəndində azərbaycanlıların evlərini daş-qalaq edərək yandırdıqdan, onları dədə-baba yurdlarını tərk etməyə məcbur etdikdən bir neçə gün sonra Naxçıvanın o zamankı daxili işlər naziri Ramil Usubovun köməyi ilə kinooperator Ənvər Rəhimovla birlikdə gizli yollarla həmin kənddə olduq. Taleyin ümidinə buraxılaraq qardaş Türkiyə ilə sərhədə-Araz qırağına sığınmış, azərbaycanlıların yaşadıqları Şiddi və Xalisa kəndlərinə pənah aparmış sakinlərlə görüşüb, onların acınacaqlı vəziyyətlərindən 45 dəqiqəlik matreial hazırladıq. Erməni quldurlarının Naxçıvan Muxtar Respublikasının Sədərək, Şərur, Şahbuz, Ordubad, Babək rayonlarına hücumları zamanı həmin qaynar nöqtələrdə olmuşuq. Qəhrəman naxçıvanlıların düşmən hücumlarının qarşısını necə qətiyyətlə, canları bahasına aldıqlarını lentin yaddaşına köçürərək Azərbaycan

Televiziyasına göndərmişik. 1991-ci ilin avqust ayında Ermənistan ərazisində azərbaycanlıların yaşadığı sonuncu kəndin – Mehri rayonunun Nüvədi kəndinin rus hərbiçilərinin köməyi ilə zorla evlərindən qovularaq Zəngilanın Vejnəli kəndinə və dəmiryol stansiyasına sığınmış sakinləri ilə görüşüb, onlardan müsahibələr almışam. Zəngilan və Cəbrayıl rayonlarından, habelə hadisələrin qaynar nöqtələrindən olan Mehri ərazisindən xüsusi repotajlar hazırlamışıq. Çəkilişlər zamanı operator Ənvər Rəhimovla birlikdə dəfələrlə ölüm təhlükəsi ilə üzləşmişik...".

Həmin dövrlərdə Naxçıvan Teleradiosu demək olar ki, gecə gündüz işləyirdi. Bəzən gecə saat 3-dən sonra fövqələdə "Xəbərlər" efirə yayımlanırdı. Azərbaycan Televiziyasının peyk vasitəsilə əlaqəsi olmadığından ölkədə və respublikada baş verən hadisələrlə bağlı məlumatlar yalnız telefon və poçt vastəsilə alınırdı. 1993-cü ildə isə Azərbaycan Televiziyasının gündəlik "Günün ekranı" xəbər buraxılışları ən tez bir gün sonra əldə edilirdi. 1990-1993-cü illərdə Naxçıvan Teleradiosunun tarixinə yeni səhifələr yazıldı. Məhz o illərdə xalqın böyük ümidlə kömək umduğu yeganə övladı Heydər Əliyev Moskvadan Bakıya qayıdanda o vaxtkı kommunist rejiminin qulları onu qəbul etmədilər, onların təqiblərinə məruz qaldı və belə bir məqamda Ulu öndər doğma yurdu Naxçıvana üz tutdu. Bu tarixi məqamı, tarixi anı ilk dəfə Naxçıvan Televiziyası lentə aldı. Qayıdışı ilə bu qədim torpaqda xilaskar oğluna böyük ümid bəsləyən və ona arxalanan xalqa öz kömək əlini uzatdı. Üzərinə düşən tarixi missiyanı yerinə yetirdi. Ulu öndərin Naxçıvana gəlişi muxtar respublikanın ictimai-siyasi həyatında olduğu kimi Naxçıvan Teleradiosunda bir canlanma yaratdı. Onun sədrliyi ilə keçirilən ilk sessiyalarda dövlət rəmzlərinin dəyişdirilməsi ilə bağlı qəbul edilən 17 noyabr 1990-cı il tarixli qərarlar, Ali Məclisin Sədri kimi apardığı sessiyalar Naxçıvan Televiziyasının səyyar tele-kinokameraları ilə çəkilərək hər gün Naxçıvan əhalisinə təqdim olunurdu. Ulu öndər həmişə olduğu kimi sessiya başlamazdan əvvəl operatorlardan və texniki işçilərdən çəkilişə hazır olub olmadıqlarını soruşar, sonra sessiyanın işinə başlayardı. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildikdən sonra Naxçıvan Teleradiosu yeni inkişaf mərhələsinə qədəm qoydu və onun məsuliyyəti daha da artdı. Bu illərdə Ali Məclisin Sədri Heydər Əliyev tez-tez televiziyaya gəlir, canlı çıxışlar, müraciətlər edir, qaranlıq məsələlərə aydınlıq gətirərək Naxçıvan əhalisini təmkinli olmağa çağırırdı. Bəzən sərhəd rayonlarındakı vəziyyət və daxildə baş verən çaxnaşmalarla əlaqədar televiziyaya gələr, hətta bəzi vaxtlarda gecə saat 2-də, 3-də belə canlı olaraq efirdən xalqa səslənirdi. Hər dəfə çıxışa gələndə ilk növbədə studiya işçiləri ilə salamlaşar, onların şəxsi və yaradıcı işləri ilə maraqlanar, qolundakı saatı çıxarıb stolun üstünə qoyar və canlı çıxışa hazır olduğunu bildirərdi. Belə müraciət və çıxışlar AXC üzvlərini bərk narahat edirdi. Buna görə də bir qrup cəbhəçi 1992-ci ilin 24 oktyabrında BTR və iri çaplı silahlarla silahlanaraq dövlət çevrilişi etmək məqsədilə Naxçıvan Televiziyasının binasına basqın edib efir yayımını dayandırmaq istədilər. Lakin Naxçıvan əhalisinin Ulu Öndərin ətrafında sıx birləşməsi və Heydər Əliyevin qətiyyətli iradəsi sayəsində bu çevrilişə cəhdin qarşısı alındı. Ali Məclis Sədrinin Naxçıvan Radiosu ilə xalqa müraciəti də o dövr üçün ən aktual müraciətlərdən biri oldu. İran İslam Respublikasına və Türkiyə Respublikasına işgüzar səfərləri, "Ümid" körpüsünün açılışı, şəhid və itikin düşənlərin valideynləri ilə görüşləri, Ərzurum xəstəxanasında müalicə olunan Sədərək döyüşçüləri ilə görüşləri Naxçıvan Televiziyasının kinooperatorları tərəfindən lentə alınaraq tarixin yaddaşına çevrildi. Bu dövrdə Azərbaycan teleməkanında ilk olaraq Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Televiziyası üçün qardaş Türkiyə Respublikasından "BETEKAM" tipli telejurnalist komplekti alındı, "Panasonik-1000" markalı videokamera hədiyyə olundu. Bu kamera vasitəsi ilə Ali Məclis Sədrinin görüşləri, rayonlara səfəri və başqa dövlət tədbirləri çəkilib tarixin mühüm hadisələri kimi operativ şəkildə yayımlanırdı. Bütün bu çəkilişlər Naxçıvan Televiziyasının qarşısında duran tarixi tale yüklü missiya idi.

1990-1993-cü İLLƏRDƏ NAXÇIVAN MR ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN TELERADİOSU



1991-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Naxçıvan Teleradiosunun əməkdaşları ilə Ali Məclisdə xüsusi görüşü televiziyanın tarixinə əbədi həkk olundu. Onun əməkdaşların şəxsi və yaradıcılıq problemləri ilə maraqlanması, etdiyi tövsiyələr, yaradıcı kollektivin əməyinə verdiyi yüksək qiymət hər bir əməkdaşın yaddaşında dərin iz buraxdı və yeni yaradıcılıq uğurlarına ruhlandırdı.

1991-1992-ci illərdə gənc yazıçı-jurnalist Səfər Xəlil oğlu Alışarlı Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə rəhbərlik etdi. 9 aylıq rəhbərliyi dövründə Səfər Alışarlı bir çox yeniliklərlə teleradionun efir yayımında dəyişiklər etdi. İlk növbədə "Xəbərlər" proqramının dolğun və operativ hazırlanamasına nəzarəti gücləndirdi. Redaksiyalarda çalışan jurnalistlərin hər biri növbə ilə gündəlik xəbərləri hazırlayaraq aparıcı kimi də canlı efirə çıxırdılar. Azərbaycanın xəritəsi asılmış "Xəbərlər"in fonunda aparıcı stoluna qoyulan telefon vasitəsi ilə canlı olaraq Azərbaycanda baş verən ictimai-siyasi hadisələr və Müdafiə Nazirliyinin döyüş bölgələrindən verilən məlumatlar xəritə ilə tamaşaçılara çatdırılırdı. Döyüş bölgələrində olan əsgərlərə kömək məqsədi ilə Naxçıvan Televiziyasında operativ məntəqə yaradılmışdı. Bir elanla Naxçıvan Televiziyasına üz tutanların ardı-arası kəsilmirdi. Ərzaq, geyim və pulla yardım edənlər gün ərzində siyahıya alınırdı və "Xəbərlər"dən sonra bu siyahı diktor Ramiz Qurbanovun təqdimatında efirə təqdim olunurdu. Texniki baxımdan Televiziyanın verilişləri 2 videomaqnitofondan yayımlanırdı. Dövlət əhəmiyyətli tədbirlər və xəbər süjetləri əsasən "Betekam" tipli kiçik videokasetlərdə montaj olunub efirə verilirdi. İri babinli 1 saat 30 dəqiqəlik videolentlərə isə studiya verilşləri "3 PMP" tipli videomaqnitofonlara yazılıb efirə verilirdi. Televiziyanın əməkdaşı Elman Həbibin hər həftənin şənbə günü canlı efirə təqdim etdiyi "Şənbədən-şənbəyə" ədəbi-bədii publisistik proqramı Naxçıvan tamaşaçının səbirsizliklə gözlədiyi proqramlarından birinə çevrildi. 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin Naxçıvan Televiziyası ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə təbriki Azərbaycan teleməkanında ilk olaraq göstərildi və bu təbrik bütün həmvətənlərimizi Vətən naminə gələcək illər üçün yeni uğurlara ruhlandırdı. Jurnalist Elman Həbibin hazırladığı bu müsahibə bu gün Naxçıvan Televiziyasının filmotekasında mühafizə olunan ən qiymətli tarixi sənəddir. Həmrəylik Gününə və Yeni ilə həsr olunmuş 3 saatlıq bayram verilişi də 1992-ci ilin yaddaqalan verilişlərindən biri oldu.

Qısa müddət sonra Səfər Xəlil oğlu Alışarlı tutduğu vəzifədən azad olundu. Elman Həbib oğlu Hacıyev 1993-cü ildə Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə sədr təyin olundu.

NAXÇIVAN TELERADİOSU

1993-2001-ci illərdə

1993-2001-ci illərdə Naxçıvan Teleradiosunda böyük işlər görüldü. İlk növbədə televiziya və radio üçün ixtisaslı gənclər işə götürüldü. 1996-cı ildə "Sənədli filmlər və xronika" redaksiyası yaradıldı. Rejissor Faiq Abbas oğlu Musayev redaksiyaya baş redaktor və 2000-ci ilin sentyabrında isə Naxçıvan Teleradiosuna bədii rəhbər təyin olundu. Teleradionun əməkdaşları təqdim etdikləri ssenarilərlə yerli telefilmlərin hazırlanmasında yaxından iştirak etməyə başladılar. 1998-ci ildə studiyalar təmir olunub yeni texniki avadanlıqlarla təmin olundu. Sovet dövründən televiziyanın həyətinə yığılıb qalmış rəngli çox kanallı rejissor idarəetmə aparatları, yeni telekameralar və efir üçün birbaşa kompüter yazı makinası Ali Məclisin Sədri Heydər Əliyevin göstərişi ilə Latviyadan dəvət olunmuş mütəxəsislər tərəfindən quraşdırıldı, "Panasonik" tipli videomontaj sisteminin qurulması prosesi həyata keçirildi. Ulu öndər Heydər Əliyev irsinə böyük hörmət və ehtiramla televiziyada "Heydər Əliyev guşəsi" yaradıldı. Onunla bağlı əməkdaşların hazırladıqları verilişlər və kompozissiyalar ilk təqdimatları ilə bu guşədən başlandı. 1969-1982-ci illərdə Heydər Əliyevlə bağlı çəkilən sənədli tarixi filmlər, 1940-1985-ci illərdə Naxçıvanın ictimai-siyasi, ədəbi-mədəni həyatını əks etdirən sənədli televiziya filmləri videokasetlərə köçürülərək Naxçıvan Televiziyasına gətirildi. Onu da qeyd etmək yerinə düşər ki, bu gün Naxçıvan Televiziyasının filmotekası məhz Elman Həbibin komitəyə rəhbərliyi dövründə yaranıb. Aylarla Azərbaycan Televiziyasında ezamiyyətdə olan "Günün ekranı" xəbərlər proqramı ilə yanaşı dövlət əhəmiyyətli tədbirlərin, verilişlərin və telefilmlərin köçürülüb Naxçıvan Televiziyasına göndəriməsində televiziyanın əməkdaşı, jurnalist Eyvaz Qasımovun zəhməti danılmazdır. Bu illərdə Azərbaycan Televiziyasının köməkliyi ilə Naxçıvan Televiziyasında ilk komputer başlıqları, telekeçidlər və televernisajlar efirə təqdim olundu. 2001-ci ilin əvvəllərində başqa işə keçməsi ilə əlaqədar Elman Həbib oğlu Hacıyev vəzifəsindən azad edildi.

Naxçıvan Teleradio binasının həyətindən görünüşü.

Mərhum keçmiş komitə sədrləri Fərman Tağıyev və Elman Həbib.

Redaktor Adil Babayev, diktor Ramiz Qurbanov, redaktor Məhəbbət Mirzəyeva və montajçı Şəfəq Rüstəmova "Xəbərlər"in montaj prosesində.

Diktor Ramiz Qurbanov.

“Xəbərlər”in əməkdaşları Adil Babayev və İlham Muradov.

Teleradionun yazı-makina otağı redaktor Laləzar Hüseynova və kompüterçi Sevil Rəhimova.

Televiziyanın 8 Mart bayram verilişi. Aparıcılar Aybəniz Sadiqova və Rövşən Hüseynov.

Yeni il verilişinin çəkilişində. Müəllif Hüseyn Əsgərov və rejissor Faiq Abbasoğlu.



Redaktor Eyvaz Qasımov və operator Məmməd İsmayılov “Yeni il” bayram verilişinin çəkilişində.

Komitə sədri Elman Həbib, redaktor Hüseyn Əsgərov, rejissor Faiq Abbasoğlu, operatorlar Məmməd İsmayılov, Nurəddin Əliyev və Cəmil Məhərrəmov “Əcəmi seyrəngahı” – Novruz şənliyində.

NAXÇIVAN TELERADİOSU
2001-2004-cü illərdə

2001-ci ilin fevralında Naxçıvan Teleradiosunun keçmiş əməkdaşı, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin şöbə müdiri, gənc jurnalist Gülparə Aman qızı Bayramova Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə sədr təyin olundu.

2001-2004-cü illəri Naxçıvan Teleradiosunun intibah dövrü adlandırmaq olar. Teleradio 2003-cü il iyulun 15-dən öz verilişlərini hər gün 8 saat olmaqla müstəqil kanalda yayımlamağa başladı. İşə qəbul olunan gənc jurnalistərin yeni teleradio layihələri tez bir zamanda efir məkanında özünə layiqli yer tutdu. Azərbacan Televiziyasında hazırlanan qrafika efir başlıqları, yeni layihələr üçün xüsusi telebaşlıqlar Naxçıvan Televiziyasının efirinə yenilik gətirdi. İlk kompüter qrafika montaj stolunun alınması əməkdaşlarda böyük ruh yüsəkliyi yaratdı. 2002-ci ildə çəkilən "Bu, Lətif Hüseynzadədir", "Avtoportret", "Sənət məbədgahı" sənədli televiziya filmləri ilk dəfə olaraq qrafika montaj stolunda hazırlanıb efirə təqdim olundu. Sonradan alınan bir kompüter montaj stolu da verilişlərin keyfiyyətli hazırlanmasına şərait yaratdı. Bu montaj stollarında hazırlanan verilişlər videokasetlərə köçürülüb efirə verilirdi. Çünki efir yayımı üçün kompüter dəstləri hələ yox idi. Artıq efir və telebaşlıqlar, 3-5 dəqiqəlik keçidlər, televernisajlar televiziyanın qrafikasında bacarıqlı montajçılar tərəfindən hazırlanırdı. Telefilmlərlə yanaşı, film-tamaşalar da çəkilməyə başlandı. C.Məmmədquluzadənin demək olar ki, bütün hekayələri səhnələşdirilib istedadlı rejissor və operatorlar tərəfindən lentə alındı. Digər müəlliflərin hekayələri əsasında çəkilən film-tamaşalar da tamaşaçılar tərəfindən böyük maraqla qarşılanırdı. 2004-cü ildə televiziyanın əsaslı təmirinə və yeni texniki avadanlıqların quraşdırılmasına başlanıldı və 2005-ci ildə istifadəyə verildi. Bu müddət ərzində televiziyanın gündəlik verilişləri hazırlanaraq videokasetlərlə "Duzdağ" ötürücü stansiyasından efirə yayımlanırdı. Gülparə Aman qızı Bayramova 2004-cü ilin avqust ayında tutduğu vəzifəsindən azad olundu.

Televiziyanın bir qrup əməkdaşı
Ulu öndər Heydər Əliyevin büstü önündə.

Gənc jurnalist Elbrus İsayev Azərbaycan Respublikasının Əməkdar müəllimi, pedaqoji elmlər namizədi, dosent Nəriman Orucəliyevdən müsahibə alarkən.

Jurnalist Səməd Canbaxşıyev çəkilişə gedən jurnalist Məmmədağa Tahirov və operator Əqil Məmmədovdan müsahibə alarkən.

Rejissor Faiq Abbasoğlu və operator Qılman Zamanbəyov studiyada növbəti verilişin çəkilişini apararkən.

Azərbaycanın tanınmış incəsənət ustaları Arif Babayev, Niyaməddin Musayev, Teymur Mustafayev və Bilal Əliyevlə. Rejissorlar Faiq Abbasoğlu və Fərhad Zamanbəyovun xatirə fotosu.

Naxçıvan Televiziyasının əməkdaşları Süsənbər Ağamalıyeva, Samir Hüseynov, Günay Əliyeva və Səbinə Əlincəli 2002-ci ilin "Novruz" bayramı verilişində.

Televiziyanın əməkdaşları 2003-cü ilin "Yeni il" şənliyində.

Bədii rəhbər Faiq Abbasoğlu, redaktor Müzəffər Əsgərov və rejissor Vahid Səfərovla yeni filmin ssenarisi üzərində müzakirə zamanı.

Fenetika müdiri Elmira Sadiqova və səs rejissoru Səbuhi Rzayev.

Radionun səs rejissoru Adilə Qardaşbəyova və səs operatoru Nabat İsmayılova.

Jurnalist Yunis Xəlilov "Hüquq maarifi" verilişinin çəkilişində.

Jurnalist Hüseyn Bağıroğlu və filologiya elmləri doktoru Məhərrəm Cəfərli "Ədəbi portretlər" verilişinin çəkilişində.

NAXÇIVAN TELERADİOSU

2005-2013-cü illərdə

2005-ci ilin fevralında Ramiz Xudaqulu oğlu Qurbanov Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə sədr təyin edildi. Həmin il dekabrın 1-dən Naxçıvan Televiziyası 8 saatlıq efir vaxtından 14 saatlıq efir vaxtına keçirildi. Həmin vaxtdan Naxçıvan Teleradiosu "Xəbərlər", "İctimai-siyasi", "Ədəbi-bədii və publisistik verilişlər", "Müəllif və hərbi vətənpərvərlik", "Musiqi və bədii əyləncəli", "Sənədli filmlər və dublyaj" redaksiyaları üzrə sonradan 16 saat yayımla fəaliyyətə başladı. İlk gündən təcrübəli jurnalist Nurəddin Babayevin və bədii rəhbər Faiq Abbasoğlunun təqdimatında "Günün aydın, ulu yurdum!" səhər proqramı ilə Naxçıvan Televiziyası verilişlərinə start verdi.

Müxtəlif vaxtlarda yeniləşən studiya tərtibatlarında, gənc aparıcıların Aytən Yusifova və Əhməd Əhmədovun təqdimatında hazırlanan "Günün aydın, ulu yurdum!" səhər proqramı bu gün "Günaydın" adı ilə 1 saat 30 dəqiqə həcmində efirə təqdim olunur. Bu illərdə televiziyanın həyatında mühüm yeniliklərdən biri də canlı verilişlərin efirə təqdim olunması idi. "Günorta saatı", "Axşam görüşləri" verilişləri özlərinin səhnə estetikası və efir təqdimatı ilə bir-birindən fərqlənirdi. Etiqad Seyidovun redaktorluğu və aparıcılığı ilə "Axşam görüşləri" verilişində sənət adamları ilə söhbətlər canlı musiqi nömrələri ilə müşayiət olunurdu və tamaşaçılarla birbaşa telefon əlaqəsi yaradılırdı. Teatrşünas Cəlil Vəzirovun, şairlərdən Asim Yadigarın, Muxtar Qasımzadənin, Hüseyn Bağıroğlunun, folklorşünas Rafiq Babayevin aparıcılığı ilə təqdim olunan "Günorta saatı" orjinal canlı yayımı ilə seçilirdi. Mövzu ilə bağlı hazırlanan videosüjetlərin efir rejissorları tərəfindən dəqiqliklə operativ şəkildə efirə verilməsi canlı yayıma rəngarənglik gətirirdi.

Naxçıvan Teleradiosunun binası təmirdən sonra (2012-ci il).

"Günorta saatı" canlı verilişinin daimi aparıcılarından biri folklorşünas, filologiya üzrə fəlsəfə doktoru, dosent Rafiq Babayev müsahibləri filologiya elmləri doktoru, professor Məhərrəm Cəfərli və AMEA-nın müxbir üzvü Əbülfəz Amanoğlu ilə.

"Səhər" proqramının qonağı filologiya elmləri doktoru, professor Məhərrəm Cəfərli, aparıcılar Əhməd Əhmədov, Aytən Yusifova.

"Cavid ömrü" filminin H.Cavidin Ev Muzeyində çəkilişindən sonra. Filmin ssenari müəllifi Anar, quruluşçu rejissoru Ramiz Həsənoğlu, Naxçıvan Televiziyanın əməkdaşları Asim Yadigar, Faiq Abbasoğlu, Ənvər Rəhimov və ev-muzeyin direktoru Bəhruz Axundov.

Rejissor Fərhad Zamanbəyov, video-mühəndis Nazim İmanov Naxçıvan Dövlət Filarmoniyasında canlı konsertin çəkilişi zamanı.

Redaktor aparıcı Nurəddin Babayev "Aktual ekran" verilişini canlı olaraq efirə təqdim edir.

Redaktor Afiq Haqverdiyev və montaj operatoru Elçin Baxşəliyev.

Səs rejissoru Səbuhi Rzayev "Xəbərlər" proqramını canlı efirə təqdim edərkən.

NAXÇIVAN TELERADİOSU

2013-2025-ci illərdə

2013-cü ildə struktur dəyişikliklərin edilməsi Naxçıvan Teleradiosunun aurasına yeni yaradıcılıq ab-havası gətirdi. Yeni təyin olunmuş gənc jurnalist komitə sədri **Sahil Abdulla oğlu Tahirli** çəkilişlər üçün yeni viuzal studiyanın və studiya daxilində bir neçə pavilyonun istifadəyə verilməsi, əlavə montaj otaqlarının yaradılması, radiostudiyaların yenidən qurulması yaradıcı heyətin yeni teleradio layihələrini tamaşaçılara təqdim etməsinə şərait yaratdı.

2016-cı il oktyabrın 17-də Naxçıvan Televiziyası intrernet üzərindən yayıma başladı. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi nəticəsində analoq yayım yüksək keyfiyyətli rəqəmsal yayımla əvəzləndi. Naxçıvan Televiziyası HD formatında yayıma başladı. Ötən dövrdə Naxçıvan Dövlət Universitetinin televiziyaya hamiliyə verilmiş jurnalistika ixtisası üzrə gənclər sınaq müddəti dövründə hazırlanaraq Naxçıvan Televiziyasında işə götürüldülər. Teleradioda əsaslı struktur islahatları aparılaraq "Uşaq gənclər və idman", "Səhər verilişləri" redaksiyaları yaradıldı. Naxçıvan Televiziyası üçün "naxçıvantv.az" və "nuhyurduxəbər.az" internet saytı hazırlanaraq yüksək keyfiyyətli HD yayım təşkil edildi. Saytda "Haqqımızda", "Redaksiyalar", "Proqram", "Anonslar", "Əlaqə, "Videoarxiv", "Canlı yayım" və "Arxiv" bölmələri yaradılıdı. Tamaşaçılar son 7 gündəki materialları da izləmək imkanına malik oldular.

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən Müharibəsində Naxçıvan Teleradiosunun əməkdaşları da qələmləri, mikrofonları, kameraları ilə silahlandılar. "Günnüt" əməliyyatından sonra Naxçıvan Televiziyasının jurnalistləri Günnütdə Azərbaycan bayrağını dalğalandıraraq ilk reportajlarını və süjetlərini hazırladılar. Cəbhə bölgələrindən gündəlik məlumatları canlı efir vasitəsilə Prezident İlham Əliyevin xalqa çatdırması Naxçıvan Televiziyası və Radiosu ilə də anbaan yayımlandı. Vətənpərvərlik və qəhrəmanlıq ruhunda verilişlər, videoçarxlar hazırlanaraq hər gün efirə təqdim olundu. Qəhrəmancasına şəhid olmuş naxçıvanlı zabit və əsgərlərin böyük ehtiramla Naxçıvan Aeroportunda qarşılanması, yolboyu böyük izdihamın və bayraqlarla bəzədilmiş maşınların çağırış səsli həyəcanlı anları, dəfn mərasimləri axıra kimi Naxçvan Televiziyasının kameraları ilə yaddaşa köçrüldü və operativ şəkildə əməkdaşlar tərəfindən canlı reportajlarla efirə təqdim olundu. Televiziya və radio studiyalarından hər gün ağsaqqal və ağbirçəklərin, ziyalıların, uşaq və gənclərin sevinc və həyacanlı ürək sözləri canlı efirə verilirdi.

Bu gün Naxçıvan Teleradiosunun efirində hər həftə şəhidlərimizə və qazilərimizə həsr olunmuş " Vətən uğrunda", "Ölümsüzlər", "Qələbəyə gedən yol" və bu kimi müxtəlif başlıqlı verilişlər yayımlanır. 2020-ci il noyabrın 8-i Teleradionun tarixinə yeni səhifə yazmaqla əməkdaşlarının yaddaşına əbədi həkk olundu. Həmin gün teleradionun həyətində böyük izdiham yarandı. Yallı gedib rəqs etdilər, şeir deyib mahnı oxudular, sevinc dolu göz yaşları ilə bir-birilərini təbrik etdilər. Zəfər Gününə qədər 32 il ərzində Qarabağdan arxiv videogörüntüləri və fotoşəkillərlə verlişlər hazırlayan Naxçıvan Televiziyasının əməkdaşları bu gün Qarabağ torpağını qarış-qarış gəzərək Şuşadan, Xankəndidən, Laçından, Kəlbəcərdən sənədli filmlər, müxtəlif səpkili verilişlər, canlı reportajlar hazırlayırlar. 2025-ci il yanvarın 18-də Bakıda "Park bulvar" kinoteatrında təqdimatı keçirilən və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanan "Sədərəkdən Şuşaya" sənədli filmi bu baxımdan diqqətəlayiqdir.

QARABAĞ AZƏRBAYCANDIR!

44 günlük Vətən Müharibəsində Naxçıvan şəhidlərinin Naxçıvanda qarşılanması və dəfn mərasimləri Naxçıvan Televiziyasının əməkdaşları tərəfindən reportajlarla operativ surətdə işıqlandırılmışdır

Jurnalist Əhməd Əhmədov.

Jurnalist Mətin Abbaslı.

Jurnalist Rəmzi Tahirli.

Jurnalist Gülməmməd Əliyev.

NAXÇIVAN TELEVİZİYASININ YARADICI HEYƏTİ AZAD QARABAĞ TORPAĞINDA

Operatorlar İlqar Məhərrəmov və Uğur Məmmədov.

Operator İlqar Məhərrəmov və rejissor Fərhad Zamanbəyov.

"Sədərəkdən Şuşaya" filminin çəkilişi zamanı.

"Şuşanın dağları başı dumanlı".

"Sədərəkdən Şuşaya" filminin qəhrəmanı Nəzifə Qaybalıyeva və jurnalist Elnarə Heydərova Şuşada.

"Sədərəkdən Şuşaya" filminin təqdimat mərasimi. Bakı, 18 yanvar 2025-ci il.

Jurnalist Nicat Quliyev və operator Rəşad Hüseynov çəkiliş zamanı.

Operatorlar Elşad Heydərov və Uğur Bağırov çəkiliş zamanı.

"NAXÇIVAN MUXTAR RESPUBLİKASI TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ BU GÜN

2021-ci il aprelin 1-dən Qapalı Səhmdar Cəmiyyət kimi fəaliyyət göstərən Naxçıvan Teleradiosu əməkdaşlarının yaradıcılığında yeni bir səhifə açıldı. Naxçıvanın olduğu kimi tanıdılmasında mühüm rol oynamağa başladı. Hazırda Naxçıvan Televiziyası bir çox cəhətdən zəngin olan teleməkanda fəaliyyət göstərir və özünəxas teleestetikası ilə digər telekanallardan heç də geridə qalmır.1963-cü ildə iki redaksiya ilə 30 dəqiqəlik efirə çıxan Naxçıvan Televiziyası bu gün 8 redaksiya ilə - "Xəbərlər" departamenti, "İctimai-siyasi məsələlər", "Ədəbi-bədii verilişlər və müəllif proqramları", "Təhsil və sosial məsələlər", "Uşaq, gənclər və idman", "İncəsənət və musiqi verilişləri", "Səhər proqramı və musiqi verilişləri", "Sənədli filmlər və dublyaj" redaksiyaları ilə hər gün anons və reklamlarla 17 saat efir yayımı edir. "104.1 FM" dalğasında yayımlanan Naxçıvan Radiosu 18 saat ərzində yeni radio-layihələr və canlı radio verilişləri ilə hər gün saat 8:00-dan dinləyicilərin görüşünə gəlir. 1963-cü ildən ağır və çətin bir yol keçən Naxçıvan Teleradiosu bu gün də Prezident İlham Əliyevin kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğıdan kənarda qalmır. Ən müasir texniki avadanlıqlarla və gənc yaradıcı heyətlə efirə çıxan Naxçıvan Televiziyasının 2023-cü il noyabrın 4-də Bakı bürosu fəaliyyətə başladı. Paytaxtımızdan və Azərbaycanın bütün bölgələrindən birbaşa bağlantılar və müxtəlif səpkili verilişlərin hazırlanması həyata keçdi.

Ölkə rəhbəri, cənab İlham Əliyev 22 iyul 2025-ci ildə Şuşada keçirilən "Şuşa Qlobal Media Forumu"nda bu fikirləri səsləndirərək ümumilikdə Azərbaycan mediasına yüksək dəyər, bütün mənsublarına daha səmərəli və məsuliyyətli işləmək üçün stimul verdi: "Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə böyük nüfuz qazanıb. Mən tam səmimiyyətlə deyirəm. Sizə xoş gəlmək üçün yox... Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçmişdir. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir".

2025-ci il mayın 30-da Azərbaycan Milli Mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı-"MEDİAFEST-2025"in keçirilməsi Naxçıvan mediasının keçdiyi yoldan və bugünkü inkişafından xəbər verir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli Fərmanına əsasən Audiovizual Şura tərəfindən 2024-cü il 23 avqust tarixdə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-yə regional yerüstü televiziya yayımçısı lisenziyası və regional yerüstü radio yayımçısı lisenziyası veridi. "Naxçıvan TV"yə peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyasının da verilməsi haqqında qərar qəbul olundu. 30 may 2025-ci ildə Naxçıvanda keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı-"MEDAFEST -2025" çərçivəsində Naxçıvan Televiziyası "AzərSpeys-1" peykində yayıma başladı. Naxçıvan Radiosu və ölkənin ilk regional telekanalı kimi Naxçıvan

Televiziyası bu gün Azərbaycanın ən ucqar nöqtələrində belə izlənilmək hüququ qazandı. Bu da teleradio əməkdaşları qarşısında daha bir məsuliyyət olmaqla yanaşı, yeni yaradıcılıq uğurlarına və daha əzmlə çalışmalarına imkan yaratdı.

Sənətkara qiymət vermək sənəti yaşatmaq deməkdir. Söz var, deyərlər, bir var "qayğı" sözü, bir də var "qayğı"nın özü. Bu gün Naxçıvan Teleradiosunun əməkdaşları Azərbaycan dövlətinin qayğısı ilə öz şərəfli missiyasını – Vətənə, xalqa xidmət etmək missiyasını böyük zəhmətkeşliklə davam etdirirlər və bu zəhmət də əvəzsiz qalmayıb. Son bir neçə ildə əməkdaşlardan bir neçəsi "Azərbaycan Respublikasının Əməkdar jurnalisti", "Əməkdar mədəniyyət işçisi", Naxçıvan MR-nın fəxri adlarına, bir nəfər "Prezident təqaüdü"nə layiq görülmüş, "Tərəqqi" medalları ilə təltif olunmuşlar. Azərbaycan Milli Mətbuatının 150 iliyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 21 iyul 2025-ci il tarixli Sərəncamına əsasən Naxçıvan Teleradiosunun əməkdaşlarından bir nəfər "Prezidentin fəxri diplomuna", üç nəfər "Tərəqqi" medalına layiq görülmüş, on nəfər "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə və beş nəfər isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunmuşlar. Hələ qarşıda nə qədər belə təltiflər, mükafatlar olacaq. Bax, budur qayğının özü. Ulu öndər Heydər Əliyevin bir kəlamını xatırlatmaq yerinə düşər: "Mən Azərbaycanda söz və mətbuat azadlığının təminatçısıyam və heç kimə imkan vermərəm ki, bu prinsipləri pozsun". Bu gün muxtar respublikamızda Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasəti bütün sahələrdə, həyatımızın bütün məqamlarında, dönəmlərində uğurla həyata keçirilməkdədir. O cümlədən televiziya və radioda, ümumilikdə mətbuat sahəsində.

"Günaydın" səhər proqramının çəkiliş anları.

Naxçıvan Televiziyasının efiri idarəetmə heyəti.

"Xəbərlər" departamentinin montaj otağı.

Rejissor Fərhad Zamanbəyli və operator İlham Vəliyev çəkiliş zamanı.

Sənədli filmlər və dublyaj redaksiyasının montaj otağı. Rejissor Fərhad Zamanbəyov, montajçı Emil Bağırov, redaktorlar Müzəffər Zəfər və Nəsimi Məmmədov yeni filmin montajı zamanı.

Redaktor Vaqif Ağalarov, rejissor Vahid Səfərli və operator Şahin Əliyev sənədli filmin çəkilişində.

Sənədli filmlər və dublyaj redaksiyasının yaradıcı heyəti yeni filmlərin çəkilişi zamanı.

Qrafika – montaj şöbəsinin montajçıları Müseyib Quliyev, Tural Əliyev və Nail Həsənov.

Redaktor Şölə Əliyeva və gənc rejissor Xəzər Abdullayev yeni çəkiləcək filmin ssenarisi üzərində fikir mübadiləsi apararkən.

Redaktor Hüseyn Tarverdiyev və videomontajçı HikmətMəhərrəmov efirə təqdim olunacaq verilişlərin proqamını hazırlarkən.

Televiziyanın veteran rejissoru Faiq Abbasoğlu gənc rejissorlar Fərhad Zamanbəyov, Tofiq Ələkbərov, Xəzər Abdullayev, Vüqar Mehdiyev, İlham Vəliyev və Naib Qulusoylu ilə yeni telelayihənin müzakirəsi zamanı.

NAXÇIVAN TELERADİO KOMİTƏSİNİN SƏDR VƏ MÜAVİNLƏRİ
(bioqrafiyalar)



Səfərəli Yaqub oğlu Babayev 1923-cü ildə Babək rayonunun Təzəkəndində dünyaya göz açıb. Coğrafiya elmləri namizədi, professor S.Babayev mənalı həyat yolu keçib. Naxçıvan MSSR Maarif Nazirliyində inspektor, nazir müavini, nazir, Azərbaycan KP Naxçıvan Rayon Komitəsinin 1-ci katibi, 1963-65-ci illərdə Naxçıvan MSSR Nazirlər Soveti yanında Radio və Televiziya Komitəsinin sədri, Naxçıvan MSSR Nazirlər Soveti sədrinin 1-ci müavini, 1970-72-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Filialının direktoru, 1972-90-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun "Coğrafiya" kafedrasının müdiri və dekan işləyib. 2000-ci ildə Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədri seçilib. Naxçıvan MSSR Ali Sovetinin 3 çağırış, Naxçıvan MR Ali Məclisinin 2-ci çağırış deputatı olub. "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülən AMEA-nın müxbir üzvü S.Babayev Naxçıvan Teleradiosu ilə daim əməkdaşlıq edib. 1998-ci ildə öz ssenarisi və aparıcılığı əsasında oğlu, coğrafiyaşünas Nazim Bababəylinin iştirakı ilə hazırladığı "Dədə Qorqudun izi ilə" sənədli televiziya filmi Naxçıvan tarixi üçün ən dəyərli videosənəddir. Görkəmli alim, əsl ziyalı, xeyirxah insan Səfərəli Yaqub oğlu Babayev 2003-cü ildə vəfat edib. Ruhu şad olsun! Bu gün onun nəvəsi **Məryəm Nazim qızı Bababəyli** babasının teleradioyaya ömür bağlılığını böyük məsuliyyət hissi ilə davam etdirir. Məryəm Nazim qızı Bababəyli 1996-cı ildə Naxçıvan şəhərində anadan olub. 2017-ci ildə UNEC - İqtisad Universitetinin "SABAH" qruplarını bitirib, bakalavr dövrünün 1 ili ərzində Avropanın bir sıra ölkələrində və Cənubi Koreyanın SolBridge Beynəlxalq Biznes Universitetində təhsil alıb. 2023-cü ildən Naxçıvan Teleradiosunda çalışır və hazırda redaktor vəzifəsində fəaliyyətini davam etdirir, eləcə də ingilis və azərbaycan dillərində xəbər aparıcısıdır.



Fərman Məşhədi Sultan oğlu Tağıyev 1928-ci ildə Şərur rayonunun İbadulla kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra müəllim kimi fəaliyyətə başlayan Fərman Tağıyev daha sonra Naxçıvan MSSR Maarif Nazirliyində inspektor, Vilayət Partiya Komitəsində mühazirəçilər qrupunun rəhbəri, təbliğat və təşviqat şöbəsi müdirinin müavini, 1956-1960-cı illərdə "Şərq qapısı" qəzetinin redaktoru, 1960-1963-cü illərdə Naxçıvan Vilayət Partiya Komitəsinin şöbə müdiri kimi məsul vəzifələrdə çalışıb**.** Fərman Tağıyev 1965-1974-cü illərdə Naxçıvan MSSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsinin sədri olub. Onun rəhbərliyi dövründə Naxçıvan Televiziyası daha məhsuldar çalışıb. Yeni, rəngarəng və maraqlı rubrikalar açılıb, respublikalararası müsabiqələrdə dəfələrlə qalib olub. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair-dramaturq Kəmalə Ağayeva haqqında Naxçıvan Televiziyasında ilk kinooçerkin, "Şəfa bulaqları", "Dağlar qoynunda", "Uzun ömürlülər diyarı", "Onun istəyi", "Naxçıvan uşaqları Artekdə" və bir çox kinooçerk və sənədli filmlərin ssenari müəllifi olub. Naxçıvan Televiziyasının təməlini qoyanlardan biri kimi sonralar 1999-2000-ci illərdə yenidən Naxçıvan Televiziyasında təcrübəli jurnalist kimi fəaliyyətini davam etdirib. Örnək olan verilişləri və yaddaqalan sənədli filmləri ilə gənc jurnalistlərə nümunə olub. Fərman Tağıyev 2020-ci ildə vəfat edib. Ruhu şad olsun!

Elxan Hacıbala oğlu Əliyev 1933-cü ildə Naxçıvan şəhərində anadan olub. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirdikdən sonra təyinatla göndərildiyi Şahbuz rayonunun "Qabaqcıl" qəzetində məsul katib kimi işə başlayıb. 1957-1965-ci illərdə "Şərq qapısı" qəzetinin müxtəlif şöbələrində fəaliyyət göstərib. Bu illərdə o, SSRİ Jurnalistlər İttifaqının üzvü olub. 1965-ci ildən 1977-ci ilədək Naxçıvan MSSR Nazirlər Soveti Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin baş redaktoru vəzifəsində, 1972-1974-cü illərdə isə Azərbaycan KP Naxçıvan Şəhər Komitəsinin şöbə müdiri vəzifəsində çalışıb. Jurnalistika sahəsində zəngin təcrübəyə malik olduğu, işgüzarlığı və təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq Elxan Əliyev 1974-cü ilin mart ayında Naxçıvan MSSR Nazirlər Soveti yanında Televiziya və Radio Verilişləri Komitəsinin sədri təyin olunub. Elə həmin il o, İliç rayonunun Ulya-Noraşen seçki dairəsindən (indiki Şərur rayonunun Oğlanqala kəndi) Naxçıvan MSSR Ali Sovetinə deputat seçilib. 1989-1992-ci illərdə o, jurnalist fəaliyyətinə qayıdaraq "Şərq qapısı" qəzetinin baş redaktor müavini vəzifəsində çalışıb. 1992-ci ilin sonunda ailəsi ilə Bakıya köçən E.Əliyev 1994-2000-ci illərdə paytaxtda fəaliyyət göstərən müxtəlif mətbuat orqanlarında baş redaktor, baş məsləhətçi vəzifələrində çalışıb. 1991-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. 2001-ci ildə Bakı şəhərində vəfat edib. Ruhu şad olsun!

Vahid Həbib oğlu Bağırov 1941-ci ildə indiki Babək rayonunun Əliabad qəsəbəsində anadan olub. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirərək Naxçıvan Televiziyasında əmək fəaliyyətinə başlayıb. 1964-cü ildən SSRİ Jurnalistlər İttifaqının üzvü olub. 1966-cı ildə Naxçıvan MSSR Vilayət Komsomol Komitəsinin 1-ci katibi seçilib. 1970-ci ildə "Şərq qapısı" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. 1970-ci ildə Sov. İKP Mərkəzi Komitəsi yanında Ali Partiya Məktəbinə daxil olub və buranı 1973-cü ildə fərqlənmə diplomu ilə bitirib. 1975-ci ildə Naxçıvan MSSR mədəniyyət naziri vəzifəsinə təyin olunub. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin plenumu 30 mart 1977-ci ildə Vahid Bağırovu Naxçıvan MSSR Vilayət Partiya Komitəsinin katibi vəzifəsinə seçib. 7-ci, 8-ci və 9-cu çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı olub. 1989-1992-ci illərdə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsində çalışıb. 1993-cü ildə "Vətən" Cəmiyyəti Naxçıvan Şöbəsinin sədri olub. 1978-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni və 1991-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunub. 2010-cu ildə Bakı şəhərində vəfat edib. Ruhu şad olsun!

Səfər Xəlil oğlu Alışarlı 1954-cü ildə Şərur rayonunun Alışar kəndində anadan olub. 1968-1972-ci illərdə Bakı Politexnik Texnikumunda oxuyub. 1976-1980-cı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda təhsil alıb. 1980-1985-ci illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. 1985-ci ildən Azərbaycanın bir çox mətbuat orqanlarında kiçik redaktor, şöbə müdiri və 2008-ci ildən isə "Vətəndaş cəmiyyəti" jurnalının baş redaktoru vəzifəsini icra edib. 1992-1993-cü illərdə Naxçıvan MR Dövlət Teleradio Komitəsinin sədri, 1993-1995-ci illərdə isə Azərbaycan Teleradiosunda sədr müvini vəzifələrində çalışıb. İlk hekayələri "Azərbaycan" jurnalında çap olunub. O vaxtdan mütəmadi olaraq bu və digər ədəbi-bədii jurnal və qəzetlərdə öz hekayələrini çap etdirib. "Sən heç nə bilmirdin", "Milad gecəsi", "Dağlar bizə baxır" hekayələrinin əsas qayəsi və araşdırma mövzusu insan psixologiyasının mürəkkəbliyidir. "Yaz havası", "50 hektarlıq avqust", "Kərimin inqilabı" hekayələri, "Adam yaşamayan bölmədə", "Gavur" povestləri müsair Azərbaycan nəsrinin maraqlı nümunələrindəndir. 2004-cü ildə yazıçının çap edilmiş "Maestro" romanı Azərbaycan nəsrində böyük ədəbi hadisə kimi qarşılanıb. Bu gün "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzində böyük elmi redaktor vəifəsində çalışır.

Elman Həbib oğlu Hacıyev 1949-cu ildə Ordubad rayonunun Tivi kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsini bitirib. 1971-ci ildən Naxçıvan Teleradiosunda redaktor və baş redaktor vəzifələrində çalışıb. 1993-2000-ci illərdə Naxçıvan MR Dövlət Teleradio Komitəsinin, 2001-ci ildən Naxçıvan MR Həmkarlar İttifaqı Konfederasiyasının sədri olub. Komitə sədri işlədiyi illərdə "Yeni il" və "Novruz" bayramlarına həsr olunmuş irihəcmli televiziya verilişlərinin ssenari müəllifi, bir çox sənədli filmlərin ideya müəllifi, 1989-ci ildə xalq şairi Məmməd Araza həsr olunmuş "Məni qoymayın təklənəm", 2008-ci ildə Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş ikihissəli "Həqiqət günəşi", "Günəşin vətəni", Naxçıvanın muxtariyyatına aid "Dünyanın yaşıdı", "Gəmiqaya", "Arpaçayı daşa biməz", "Naxçıvannamə", "Bu şəhər mən görən şəhər deyil" kimi telefilmərin ssenari müəllifi, 1999-cu ildə "Göydən düşən mələk" və 2006-cı ildə efirə təqdim olunan "Ağ ölümün ölümü" televiziya tamaşalarının redaktoru olub. "Günəş qatarı", "Yoluma çıx", "Günəş həqiqəti", "Ömrüm, günüm", "Sənsiz səninlə", "Yerlə göy arasında" kimi şeir və poemalar toplusu ilə oxucuların diqqətini cəlb edib. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli şair-dramaturq Elman Həbib Naxçıvan MR Ali Məclisinin 1-ci çağırış deputatı seçilib. Vətənpərvər şair, milli ideyaların carçısı Elman Həbib oğlu Hacıyev 2009-cu ildə vəfat edib. Ruhu şad olsun!

Gülparə Aman qızı Bayramova 1972-ci ildə Culfa rayonunun Ərəfsə kəndində dünyaya göz açıb. Naxçıvan şəhərindəki 11 nömrəli orta məktəbi bitirdikdən sonra 1989-cu ildə Naxçıvan Dövlət Teleradiosunun diktoru kimi əmək fəaliyyətinə başlayıb. 1994-cü ildə Naxçıvan Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olub. Təhsil aldığı illərdə Naxçıvan Televiziyasında aparıcı və müəllif kimi fəaliyyət göstərib. "Mirzə Cəlil dünyası" adlı ilk 3 hissəli sənədli televiziya filmi ilə özünü peşəkar jurnalist kimi təsdiq edib. 1999-cu ildən 2000-ci ilə kimi Naxçıvan MR Ali Məclisində humanitar şöbənin referenti, 2000-ci ildən 2001-ci ilə kimi Naxçıvan MR Nazirlər Kabinetində təhsil, mədəniyyət, səhiyyə və sosial problemlər şöbəsinin müdiri vəzifələrində işləmişdir. 2001-ci ilin fevralından 2004-cü ilin avqustunadək Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri olmuşdur.

Ramiz Xudaquli oğlu Qurbanov 1958-ci ildə Şahbuz rayonunda anadan olub. 1980-84-cü illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 1985-1994-cü illərdə televiziyada diktor vəzifəsində çalışıb. 1994-cü ildə "Xəbərlər" redaksiyasında böyük redaktor olmaqla jurnalist fəaliyyətinə başlayıb. 2002-ci ildə Naxçıvan Teleradiosunun "Proqram-buraxılış və əlaqələndirmə direksiyası"na direktor təyin olunub**.** 2004-cü ildə Teleradio Komitəsi sədrinin müavini, 2005-2013-cü illərdə Naxçıvan MR Dövlət Teleradio Komitəsinin sədri vəzifəsində işləyib. Bir çox fəxri fərman və diplomlara, 1999-cu ildə "Naxçıvan MR Əməkdar artisti", 2005-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2013-cü ildə sədr vəzifəsindən azad olunan Ramiz Qurbanov Naxçıvan MR Nazirlər Kabinetində Mətbuat və ictimayyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi olub. Hazırda dövlət qulluqçusu təqaüdçüsüdür.

Sahil Abdulla oğlu Tahirli 1983-cü ildə Babək rayonunun Cəhri qəsəbəsində dünyaya göz açıb. 2005-ci ildə Naxçıvan Dövlət Universitetini jurnalist ixtisası üzrə bitirib. 2004-cü ildə "Şərq qapısı" qəzeti redaksiyasında müxbir kimi əmək fəaliyyətinə başlayıb. Daha sonra "Şərq qapısı" qəzeti redaksiyasında İctimai-siyasi məsələlər şöbəsinin müdiri vəzifəsində işləyib. 2006-2007-ci illərdə Naxçıvan MR Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində məsləhətçi, 2007-ci ildən 2011-ci ilədək Naxçıvan MR Teleradio Şurasının sədri vəzifəsində çalışıb. 2011-ci ildə Naxçıvan MR Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri təyin edilib. 27 mart 2013-cü ildən Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri, 2021-ci ildən 2025-ci ilədək Naxçıvan MR "Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri olub. 2014-cü ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü seçilib. Dövlət qulluğunun baş müşaviridir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə mətbuat və teleradionun inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, 2024-cü ildə isə ölkə Prezidentinin xüsusi "Təşəkkürnamə"si ilə təltif edilib. Dövri mətbuatda müntəzəm olaraq publisistik, siyasi-analitik məqalələrlə çıxış edib. Bir neçə yaddaqalan sənədli televizya filmlərinin ideya müəllifi və layihə rəhbəri olub. 2023-cü ildə Naxçıvan Televiziyasının hazırladığı Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev 100: Ömrün Naxçıvan aşırımları" bir neçə hissəli sənədli televiziya filminin və "Üzbəüz" ictimai-syasi, publisistik silsilə proqramın ideya müəllifi və aparıcısı olub. 2025-ci ilin iyununda öz ərizəsi əsasında sədr vəzifəsindən azad edilib.

Samur Tağı oğlu Nağıyev 1944-cü ildə Şərur rayonunun Düdəngə kəndində anadan olub. 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1968-1973-cü illərdə "Şərq qapısı" qəzetinin xüsusi müxbiri, 1979-1989-cu illərdə Naxçıvan Mətbəəsinin direktoru olub. 1991-2005-ci illərdə Naxçıvan Teleradiosunda baş redaktor, şöbə müdiri, müavin vəzifələrində çalışıb. Bu illərdə günlə səsləşən aktual mövzulu ictimai-siyasi verilişlərin müəllifi və aparıcısı olmaqla jurnalist fəaliyyətini də davam etdirib. 1980-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunub. 2021-ci ildə vəfat edib. Ruhu şad olsun! **Oğlu Fariz Nağıyev də** 1997-2005-ci illərdə televiziyada videomontaj operatoru vəzifəsində çalışaraq çoxsaylı verilişlərin hərtərəfli montaj prosesini layiqincə həyata keçirib. Atası Samurun Naxçıvan Teleradiosuna bağlı sənət və omür yolunun davamında az da olsa yolçuluğu olub.

Rabil Məmməd oğlu Kətanov 1972-ci ildə Naxçıvan şəhərində anadan olub. 1990-1995-ci ildə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində təhsil alıb. 1995-ci ilin noyabrında Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (Bakı Sosial İdarəetmə və Politologiya İnstitunun) Sosiologiya kafedrasının siyasətin sosiologiyası ixtisası üzrə aspirantura şöbəsinə daxil olub. 1998-ci ildə aspiranturanı bitirib. 1996-ci ilin martın 1-dən 2003-ci ilin aprelin 1-nə qədər "Səs" qəzetində müxbir və xüsusi müxbir vəzifələrində çalışıb. Xüsusi müxbir kimi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yerli və xarici səfərlərində iştirak edib, görüşlərini işıqlandırıb. 1999-2000-ci illərdə "Azad Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. 2003-2004-cü illərdə Şahbuz rayonunda döyüş bölgəsində hərbi xidmətdə olub. 2005-2006-cı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi, 2006-cı ilin martın 3-dən 2007-ci ilin fevralın 6-na qədər Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini, 2007-ci il fevralın 6-dan 2011-ci ilin iyun 29-na qədər "Şərq qapısı" qəzetinin baş redaktoru vəzifələrində çalışıb. Eyni zamanda 2009-2012-ci illərdə Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AZƏRTAC) Naxçıvan Muxtar Respublikası üzrə müxbiri, 2012-2014-cü ilin mayın 30-na qədər Azərbaycan dilində informasiya baş redaksiyasının buraxılış redaktoru, 2014-cü ilin mayın 5-dən AZƏRTAC-ın İran İslam Respublikası üzrə xüsusi müxbiri vəzifəsində çalışıb. 2022-ci ildən AZƏRTAC-ın iqtisadiyyat redaksiyasının müxbiri vəzifəsində çalışır. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının Fəxri jurnalisti" adına layiq görülüb.

Xaliq Yunis oğlu Babayev 1985-ci ildə Şərur rayonunun Mahmudkəndində dünyaya göz açıb. 2013-cü ildə Naxçıvan Dövlət Universitetini bitirdikdən sonra Universitetin "İnformasiya texnologiyaları" şöbəsinin müdiri və direktoru vəzifələrində çalışıb. 2015-ci ildə Naxçıvan Teleradiosunun sədr müavini vəzifəsinə təyin edilib. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2025-ci il tarixli sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

İLLƏRİN TELEYADDAŞINDAN

Son illərdə Naxçıvan Teleradiosunun bərpa olunan filmotekasında redaksiyalar üzrə qeydə alınan videokasetlərin içərisində Naxçıvan Televiziyasının 40 illiyinə həsr olunmuş videoyazı da var. 2003-cü il martın 12-də efirə yayımlanan bu videoda o illərin canlı şahidlərinin xatirələri dilə gəlib. Həmin xatirələri diqqətinizə çatdırırıq.

FƏRMAN TAĞIYEV-1956-cı il fevralın 14-də paytaxt Bakıda ilk televiziya verilişlərinə başlanıldı. O zamanlar teleyayımların əhatə dairəsi bütün rayonlar üçün əlçatan deyildi. Naxçıvan da ucqar bir yerdə olduğundan bu yayımlar Naxçıvana çatmırdı. Bu hadisədən bir il sonra, fevral ayında belə bir addım atıldı ki, Naxçıvanda müstəqil televiziya baş redaksiyası yaradılsın. Azərbaycan KP Mərkəzi Komitəsinin göstərişi ilə Naxçıvan MSSR Nazirlər Soveti yanında "Radio və Televiziya Verilişləri Komitəsi" yaradıldı. Mən bu redaksiyaya baş redaktor təyin edildim və tez bir zamanda Bakıya getməli oldum. Bizə 9 ştat verdilər. Naxçıvana qayıtdım. Hər şeyi sıfırdan başladıq. 2 redaksiya – "İctimai" və "Bədii verilişlər" redaksiyası yaradıldı. Bu redaksiyalara gənc jurnalstlər Elxan Əliyev və Zeynal Vəfa rəhbərlik etməyə başladılar. İlk növbədə studiya quruldu, texniki avadanlıqlar, idarəetmə pultu, işıqlandırma sistemi quraşdırıldı. 70-80 kiloqram ağırlığında telekameralar gəldi. Bundan sonra verilişə başlamaq ərəfəsində idik. Ali məktəb bitirən müxtəlif peşə sahiblərini seçib jurnalist kimi işə qəbul etdik. Birinci növbədə mən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tələbəsi Elza Salmanovanı işə götürdüm. Təmiz, ləhcəsiz danışığı olan Elza Salmanova 1963-cü il martın 12-də ilk diktor kimi Naxçıvan Televiziyasının efirini açdı. Həmin gün mən özüm 12 xəbər hazırlamışdım. Xəbərlərdən sonra bir kinojurnal və bir qısametrajlı bədii film göstərdik. Sonra biz axtarışda olub Naxçıvanda foto sənətinə bələd olan adamları dəvət etdik. Onların köməkliyi ilə fotoreportajlar, fotooçerklər, hətta 60-70 fotoşəkildən ibarət tematik verilişlər hazırlamağa başladıq. Bədii verlişlər hazırlamaq üçün Naxçıvan Teatrının tanınmış aktyorlarını Mir İbrahim Həmzəyevi, Zəroş Həmzəyevanı, Əyyub və Yusif Haqverdiyev qardaşlarını, gənclərdən indi tanınmış aktyor, xalq artisi Rafael Dadaşovu, əməkdar artist Xəlil Hüseynovu tez-tez televiziyaya dəvət etməyə başladıq. Sonralar Xəlil Hüseynovu diktor kimi işə qəbul etdik. Naxçıvan Televiziyası efirə çıxan gündən hamı başladı televizor almağa. Naxçıvanda 8 ayda 5 mindən artıq müxtəlif markalı televizor satıldı. O vaxt "Sizin arzunuzla" adlı musqili-bədii verilişimiz də var idi. Tamaşaçı məktubları əsasında verilişlər hazırlayırdıq. Ştatdankənar ansambl yaratmışdıq. Ansambla mərhum bəstəkar Məmməd Ələkbərov rəhbərlik edirdi. Bakı Televiziyasından tez-tez jurnalistlər, rejissorlar, operatorlar, diktorlar gəlirdi. Jurnalistlərdən Sabir Rüstəmov, Seyfulla Səfərov, rejissorlardan Arif Babayev, Nazim Abbasov, operatorlardan Karlen Orucov, Nəriman Şıxəlyev, diktorlardan Aydın Qaradağlı, Natəvan Hacıyeva müəyyən müddətə Naxçıvana gəlib

yerli yaradıcı kadrların hazırlanmasına köməklik göstərirdilər. Bakıdan dəvət olunmuş diktorlar bəzən beş-altı gün qalıb bədii-sənədli filmlərin səsləndirilməsində iştirak edirdilər. Məsələn, "Yaşıl əjdaha", "Kapitan Tenkeş"adlı çoxseriyalı xarici filmlərin səsləndirilməsinə Aydın Qaradağlı gəlirdi. Mətni özü oxumalı idi. Naxçıvanlılar səbirsizlikə bu filmləri gözləyirdilər ki, Aydın Qaradağlının səsini eşitsinlər. Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin studiyadan canlı çıxışları Naxçıvan Televiziyasına olan marağı daha da artırırdı. Dünyaşöhrətli müğənnilər Rəşid Behbudov, Zeynəb Xanlarova, Şövkət Ələkbərova, Rübabə Muradova, görkəmli rejissor və aktyor Rza Təhmasib, "Uzaq sahillərdə" filminin baş qəhrəmanı, Mehdi rolunun ifaçısı Nodar Şaşıqoğlu, xalq rəssamı Tahir Salahov, görkəmli alim Əziz Şərif, xalq yazıçılarından Süleyman Rəhimov, Əli Vəliyev, Qılman İlkin, yazıçı Əlfi Qasımov, şairlərdən Bəxtiyar Vahabzadə, İslam Səfərli, Balaş Azəroğlu, Mədinə Gülgün, Mirvarid Dilbazi, bəstəkarlardan Ramiz Mirişli, Nəriman Məmmədov və onlarla başqaları nüxtəlif dövrlərdə Naxçıvan Televiziyasının qonağı olublar. Bakı Televiziyası üçün hazırladığımız "Naxçıvan Televiziyası günü" adlı silsilə verilişlər ildə 3 dəfə efirə təqdim olunurdu. Hətta Moskva Televiziyasında ildə 2 dəfə Naxçıvan haqqında hazırladığımız televiziya filmləri nümayiş olunurdu. Televiziya ümumiyyətlə, insanların məişətinə, həyatına daxil olduğu kimi mənim də həyatımın bir parçasına çevrildi. Ömrümün gənclik illərini Naxçıvan Televiziyasında keçirdim. 9 il komitə sədri oldum. İndi yaşa dolmuşam. Televiziya veteranıyam. Bu gün gənc həmkarlarıma yol göstərirəm, məsləhətlərimi verirəm.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

❋ ❋ ❋

SƏFƏRƏLİ BABAYEV-Televiziya xalqımızın mənəvi, mədəni, siyasi həyatına möhkəm daxil olmuş möcüzəli hadisələrdən biridir. 1963-cü ildə Naxçıvanda Radio və Televiziya Verilişləri Komitəsinin təşkili haqqında qərar verildi. Fəxr edirəm ki, bu komitənin birinci sədri mən olmuşam. O dövrdə böyük çətinliklərlə rastlaşırdıq. Birinci növbədə televiziyanın maddi-texniki bazasının yaradılması üzərində çalışdıq. O vaxtlarda televiziyanın binası da yox idi. Televiziya Nazirlər Sovetinin nəzdində birinci mərtəbədə 3 otaqda yerləşirdi. Naxçıvan Vilayət Partiya Komitəsinin təşəbbüsü və Nazirlər Sovetinin qərarı ilə televiziya üçün mövcud yaşayış binası-indi fəaliyyət göstərən bu bina Televiziya Komitəsinin ixtiyarına verildi. Bu binada çox ağır, yenidənqurma işləri apardıq. İlk növbədə əyləşdiyimiz bu studiyanı qurduq. Bundan başqa hər mərtəbədə olan yaşayış evləri sökülüb yenidən qurulmalı idi. Yadımdadır, mərtəbələrdə dəhliz açmaq lazım idi. Mütəxəssislər dedilər ki, bu, mümkün deyil. Çünki binanın daşları standartlardan

kənar divar daşlarıdır. Buna baxmayaraq mən bu cəsarəti öz üzərimə götürüb dəhlizi açdırdım və iş otaqları yaratdım. Texniki cəhətdən korluq çəkirdik. Bir kinokameramız var idi. Çəkiliş üçün maşınımız da yox idi. Sonradan çox çətinliklə 2 kamera, 2 maşın və "PTS-3M" səyyar televiziya avadanlığı aldıq. Bu səyyar televizya avtobusunun KT-87 ağ-qara kameraları vasitəsi ilə Naxçıvan Teatrından mühüm tədbirlər, konsert proqramları, bayram şənlikləri retransilyasiya olunurdu. Qismən də olsa televiziyanın maddi- texniki bazasını yaratdıq. O dövrdə bütün işçilərdə böyük həvəs var idi. Gecə-gündüz çalışırdıq. Televiziya tez bir zamanda Naxçıvanın ictimai-siyasi həyatına yenilik gətirdi. Hamı televiziyada hansı verilişlərin gedəcəyi ilə maraqlanırdı. Başladıq öz gücümüzlə kinosüjetlər çəkməyə. Allah rəhmət eləsin fotoqraf Mənsim Fərəcova. İlk kinooperator olaraq o, Naxçıvanın tarixi yerlərindən, ayrı-ayrı əmək adamlarından kinosüjetlər çəkdi. Sonralar kinosüjet çəkilişləri Naxçıvan şəhərinin müəssisələrində, rayonlarda, kolxoz və sovxozlarda aparıldı. Öz "Raf" maşınımızla rayonlardan özfəaliyyət kollektivlərini studiyaya gətirib onların canlı konsertlərini təşkil etməyə başladıq. Belə çıxışlar camaatın böyük marağına səbəb olurdu. Sonra şairlərin, elm, sənət, əmək adamlarının studiyadan birbaşa çıxışlarını efirə hazırladıq. Bundan başqa biz o dövrdə tənqidi verlişlərə də yer verirdik. Məsələn, "Bunlar kiçik məsələ deyil" rubrikası ilə tənqidi verilişlər hazırlayırdıq. "Şəhərimiz evimizdir" adlı tənqidi verilişimiz də var idi. Belə verilişlərdə şəhərin ayrı-ayrı yerlərində, idarə və müəssisələrdə, yaşayış binalarının ətrafındakı natəmizliklər və başqa nöqsanlar tənqid olunurdu. Belə tənqidi verilişlər tez bir zamanda aidiyyəti ünvanlarda müzakirə olunub nəticə çıxarılırdı və "Tənqiddən sonra" rubrikası ilə əlavə çəkilişlər edib nöqsanların aradan qaldırıldığını tamaşaçılara çatdırırdıq. Qeyd edim ki, o dövrdə bütün əməkdaşlarda böyük həvəs var idi. Televiziya üçün nəsə bir yenilik etmək istəyirdilər. "Proqram-buraxılış" şöbəsinin əməkdaşı var idi, Leysan Seyidov, Allah rəhmət eləsin ona. O, Naxçıvan kinobirliyinin köməkliyi ilə həftəlik sənədli filmlərin, kinojurnalların, elmi-kütləvi filmlərin, bədii filmlərin televiziya ilə nümayişini təşkil edirdi. Bayramlar ərəfəsində mən ona deyirdim ki, "Leysan müəllim, mən Sizi qoyuram sədr yerinə, Siz nə desəniz, mən də onu edəcəyəm". Bir dəfə indiki mərkəzi meydanda bayram nümayişlərinin birində Leysanın təklifi ilə televizor kimi böyük bir qutu düzəldib qoyduq maşının üstünə. O dövrdə bizim çox istedadlı diktorlarımız var idi. Onlardan biri Məhəbbət Mehdiyeva idi. O, hal-hazırda elmlər namizədidir, Nizami adına Ədəbiyyat Muzeyinin direktor müavinidir. Biri də Elza Salmanova idi. Onun qarşısına şüşə və görünməyən mikrofon qoyduq. Bu yayım tez bir zamanda böyük sensasiyaya səbəb oldu. İl yarım işləyəndən sonra məni apardılar Nazirlər Sovetinə, sədrin birinci müavini. Onu da deyim ki, Naxçıvan Televiziyasını ata evi, doğma ev kimi hesab edirəm. Bu gün Naxçıvan Televiziyasının hər bir uğuru məni hədsiz sevindirir. İnanıram ki, müasir dövrümüzün tələbləri ilə ayaqlaşan Naxçıvan Televiziyası gələcəkdə də yeni-yeni uğurlar, nailiyyətlər əldə edəcək.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

* * *

YAVƏR ƏLİYEV - Naxçıvanda televiziya yarananda biz bilmirdik ki, televiziya, kino çəkilişi nədir? Kinolentlərin aşkarlanması üçün Naxçıvanda ilk dəfə kinolaboratoriya yaradıldı və məni ora müdir təyin etdilər. Bakı Televiziyasından bizə tez-tez köməyə gəlirdilər. İşləyə-işləyə bizi öyrədirdilər. Yaxşı yadımdadır, ilk dəfə "Kompas" kinokamerası ilə çəkilən 35 millimetrlik neqativ kinolent aşkarlananda sevincimizin həddi-hüdudu yox idi. Nəhayət ki, aşkarlanan bu ilk kinolentlə Naxçıvanda kino sənəti inkişaf etməyə başladı. O vaxtlar "Şərq qapısı" qəzetinin fotoqrafı mərhum Mənsim Fərəcov verilişlər çəkmək üçün televiziyaya dəvət olundu və ilk olaraq kinooperator kimi kinosüjetlər çəkməyə başladı. Ənvər Rəhimov da onun assistenti oldu. Bir müddətdən sonra Almaniyanın istehsalı olan kinokamera gətirildi və Ənvər Rəhimovla mən kinooperator kimi fəaliyyətə başladıq. Çəkilən neqativ kinosüjetlər kinoaparatda pozitivə çevirilirdi. Diktorlar bu süjetləri şüşə arxasından rejissorun "dayan", "oxu" ifadəsinin əl hərəkətlərini izləyə-izləyə mətni oxuyurdular. Mən ilk olaraq 3 hissəli "Şəfa bulaqları" adlı elmi-kütləvi film çəkdim. Ssenarisini Fərman Tağıyev yazmışdı. Filmi Azərbaycan Radiosunun diktoru Aydın Qaradağlı və xalq artisti Əli Zeynalov səsləndirdilər. İkinci çəkdiyim film isə Naxçıvan duz mədəninin əmək adamlarına həsr olumuş "Duz dağın qartalları" adlı film oldu. Bu filmin ssenarisini isə akademik Mirəli Qaşqay yazmışdı. Bu filmlər Aərbaycan və Moskva Televiziyasında rus dilində səsləndirilərək nümayiş olundu. Uzun müddət Naxçıvan Televiziyası ağ-qara fotoşəkillərlə və kinosüjetlərlərlə canlı olaraq studiyadan efirə çıxırdı. 70-80-cı illərdə mən jurnalist Arif Həbibovla Azərbaycan Televiziyasının həm də Naxçıvan üzrə bölgə əməkdaşı kimi fəaliyyət göstərmişəm. 1985-ci ildə Naxçıvan Televiziyası rəngli təsvirlə efirə çıxanda artıq rəngli təsvirli kinolentlərin aşkarlanması üçün kinolaboratoriya da hazır idi. Rəngli kinomontaj stolu da gətirilmişdi. Bu ilə qədər, yəni Azərbaycan Televiziyası üçün çəkdiyim kinosüjetlər və verilişlər oranın kinolaboratoriyasında aşkarlanıb montaj olunurdu. Məsələn, 1984-cü ildə jurnalist Arif Həbibovun ssenarisi əsasında rejissor Faiq Musayevlə çəkdiyimiz Naxçıvan Muxtar Respulikasının 60 illiyinə həsr olunmuş "Qüdrətli diyar" adlı ilk rəngli televiziya filmi Azərbaycan Televiziyasında hazırlandı və səsləndirilərək videolentə köçürüldü. Film ilk olaraq Naxçıvan Televiziyası ilə rəngli təsvirdə nümayiş olundu. Uğurlu nümayişdən sonra bu film Azərbaycan Televiziyasının efirində də göstərildi. Naxçıvan Televiziyası rəngli təsvirlə efir yayımına keçdikdən sonra Azərbaycan Televiziyasının əməkdaşları tez-tez Naxçıvana gələrək irihəcmli verilişlərin studiya və natura çəkilişlərini Naxçıvan Televiziyasının əməkdaşları ilə birgə hazırlamağa başladılar. Azəbaycan Televizasında hər hansı bir film və ya veriliş nümayiş olunarkən sonda Naxçıvan Televiziyasının yaradıcı və texniki heyətinə minnətdarlıq sözlərini oxuyanda hamı kimi mən də böyük iftixar hissi keçirirəm ki, nə yaxşı ki, mən Naxçıvan Televiziyasının kinooperatoru olmuşam. 40 il öz sevimli peşəmədən ayrılmamışam, gecə-gündüz sevimli kinokameramla bir yerdə olmuşam. 29 yaşımda televiziyaya gəlib, 69 yaşıma kimi doğma Naxçıvan Televiziyasında çalışmışam. Bu gün yetirdiyim gənc kino-teleoperatorlarla fəxr edirəm. Fəxr edirəm ki, Naxçıvan Teleradiosunun gələcəyi etibarlı əllərdədir.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

ƏNVƏR RƏHİMOV-Məni bu sənətə yönəldən ilk komitə sədri Səfərəli Babayev oldu. 1964-cü ildə məni ştat üzrə ilk kinooperator vəzifəsinə təyin etdi. Düzdür, məndən əvvəl mərhum Mənsim Fərəcov da həm fotoqraf kimi, həm kinooperator kimi işləyirdi. Mən də ilk təcrübələrimi onun yanında keçirdim. O zamanlar mən bir həvəskar operator kimi çalışırdım ki, çəkdiyim süjetlər, oçerklər bizim Naxçıvan camaatının xoşuna gəlsin.Təzə işə başlayan dövrlərdə çətinliklə də olsa professor Əziz Şərif haqqında, sonra xalq artisti Rza Təhmasib haqqında filmlər çəkdim. O dövrdə ən maraqlı cəhətlərdən biri bu idi ki, televiziyanın bütün əməkdaşları daim axtarışda idi, bir-biriləri ilə yaradıcılıq rəqabətinə girərək, yeni-yeni verilişlər hazırlamağa, filmlər çəkməyə çalışırdılar. Bu mənada 1975-ci ildə mərhum şair-dramaturq Müzəffər Nəsirli ilə Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov haqqında sənədli televiziya filmi hazırladıq. Belorusiyanın paytaxtı Minsk şəhərinə gedib onun məzarını tapdıq, çəkilişlər etdik, müsahibələr aldıq. Bu film və çəkdiyim bir neçə sənədli film o illərdə tez-tez keçirilən ənənəvi Ümumittifaq Televiziya Filmləri Festivalında layiqli yerlərdən birini tutdu. "Naxçıvan uşaqları Artekdə", "Dağlar qoynunda", "Uzun ömürlülər diyarı" filmlərinin kinooperatoru olmuşam. 1982-86-cı illərdə Naxçıvan Televizyasının jurnalistləri Əli Cəfərov və 1986-92-ci illərdə Sadiq Gözəlovla birgə Azərbaycan Televiziyasının Naxçıvan üzrə bölgə müxbirlərinin kinooperatoru vəzifəsində çalışmışam. O illərin tarixi hadisələrinin əksəriyyəti mənim kinokameramın lentlərində öz əksini tapıb. 1989-cu ildə Naxçıvandakı "Sərhəd hərəkatı", 1990-93-cü illərin Sədərək döyüşləri, xüsusilə də Ulu öndərin Naxçıvana qayıdışı, sədrlik etdiyi ilk sessiyalar, Ali Məclisin Sədri seçildikdən sonra iştirak etdiyi bütün rəsmi tədbirlər bu gün də mənim kinokamera yaddaşımdadır. Çox təssüf ki, o illərdə çəkdiyim kinosüjetlər Azərbaycan Televiziyası ilə efirə verilmədi. Bu gün mən də öz telehəmkarlarımı doğma Naxçıvan Televiziyasının 40 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm, çiyin-çiyinə çalışdığım bütün gənc əməkdaşlarımıza yeni yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki, 1963-ci ildən bu günə kimi Azərbaycan teleməkanında özünəlayiq yer tutan, efir dalğalarında özünəməxsus, reklamsız dəsti-xətti ilə seçilən Naxçıvan Televiziyasının tarixi ənənələrini bundan sonra da uğurla davam etdirsinlər.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

* * *

VAQİF İSMAYILOV - Mən 1965-ci ildən burdayam. Təxminən 13 ilə yaxın radioda səs rejissoru işləmişəm. O dövrdə radioda az əməkdaş çalışırdı. 2 səs operatoru və 2 diktor gündəlik efirə çıxırdıq. Nurəddin Manafov və Zərifə Fətullayeva gündəlik xəbərləri oxumaqla yanaşı həm də növbə ilə verilişləri proqram üzrə dinləyicilərə çatdırırdılar. Təcrübəmiz az idi. Bilmədiklərimizi Bakıdan gəlmiş təcrübəli televiziya və radio əməkdaşlarından öyrənirdik. Sonralar mən televiziyada səs rejissoru və rejissor, həm də kinooperator kimi çalışmağa başladım. Əsasən "Gənclik" redaksiyasının verlişlərinə operatorluq və rejissorluq etmişəm. Bu gün də gənclik həvəsi iə həmin redaksiyada çalışıram. Gənc həmkarlarıma bundan sonra da yeni yaradıcılıq uğurları arzulayıram.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

* * *

XƏLİL HÜSEYNOV - Naxçıvan Televiziyasına gəlişim 1973-cü ilə təsadüf edir. O dövrə qədər mən Naxçıvan Teatrında aktyor işləyirdim. Teatrda rejissor köməkçisi işləyən Əsgər Əhmədoğlu (Əsgərov) televiziyaya rejissor dəvət olunduqdan sonra mən onun bədii verilişlərində tez-tez iştirak etməyə başladım. "Poeziya dəqiqələri", "Hekayə axşamı" və bir neçə radio-televiziya verilişlərinin aparıcısı oldum. Kiçikhəcmli teletamaşalarda aktyor kimi də iştirak etdim. 17 il Naxçıvan Televiziyasında diktor kimi çalışdığım illərdə yadda qalan çox hadisələr olub. O vaxtlar bu studiya çox balaca idi. İşıqlanma zəif, texniki avadanlıqlar köhnə və primitiv idi. Fonda "Xəbərlər" yazılmış iri taxta lövhə ilə canlı efirə çıxırdıq. "Xəbərlər"dən sonra 10-15 dəqiqəlik kinojurnal göstərilirdi ki, növbəti veriliş üçün studiya qurulsun. Yəni fon üçün taxta dekor hissələri və çıxışçılar üçün stol, stullar qoyulsun. Konsert proqramları çəkilərkən studiya təmiz boşalırdı.Taxta dekor hissələri stidiyanın divarlarına söykənirdi, təkcə fondan başqa. Studiyanın divarlarına söykənən taxta dekor hissələri canlı efirdə kameraların hərəkəti zamanı dəfələrlə bizim və çıxışa gələnlərin başına düşürdü. O vaxtlar diktorlardan çox böyük məsuliyyət tələb olunurdu. Verilişə dəvət olunan qonaqlarla

canlı efirdə ünsiyyət yaratmaq, onlarla kamera qarşısında səmimi dialoq qurmaq, köhnə yazı makinlarında yazılan, güclə oxunan mətnləri canlı efirdə düzgün tələffüzlə tamaşaçılara çatdırmaq lazım idi. Gülməli də olsa bir hadisəni xatırlatmaq istəyirəm. Bir dəfə televiziyaya canlı çıxışa gələn hansısa kolxoz sədrinə söz verəndə stolun üstündəki mikrofonu götürüb qulağına tutdu və məlumat verməyə başladı- "Bu il kolxozumuzun göstəriciləri yüksək olub..." Rejissor özünü itirmədən fotoşəkillərlə musiqi keçidi verdi. Mən də tez mikrofonu onun əlindən alıb stolun üstünə qoydum və ondan mikrofona danışmağı xahiş etdim. Bu hadisə mənə qəribə görünmədi. Çünki o vaxtlar rayonlarda, kəndlərdə telefonlaşma yenicə həyata keçirilirdi. İlk növbədə inzibati idarə və təşkilatlara telefon çəkilirdi. Buna görə də o dövrün idarə və təşkilat rəhbərlərinin "adətkar" əlləri həmişə telefon dəstəyində olduğundan müsahibim də "rəhbərliyə" telefonla yox, mikrofonla məlumat verməyə çalışdı. Tək mən yox, 17 il bir aparıcı masası arxasında verilişlər apardığım Laləzar Hüseynova ilə birlikdə o illərin bu cür çox maraqlı hadisələrinə şahidlik etmişik. Bu gün Naxçıvan Teleradiosu özünün intibah dövrünü yaşayır. Naxçıvan Teleradiosu təkcə mənim yox, hər bir tamaşaçının, hər bir ziyalının, hər bir incəsənət, mədəniyyət, təhsil, elm adamının, hər bir mətbuat işçisinin həyatında mühüm rol oynayıb. Naxçıvan Teleradiosunun bütün əməkdaşlarına yeni yaradıcılıq uğurları arzulayıram.

Naxçıvan Televiziyası, 12 mart 2003-cü il.

XƏLƏFLƏR, SƏLƏFLƏR VƏ AİLƏLƏR, TALELƏR

Bəzən zaman bir göz qırpımında ötür. Zamanın necə ötdüyünü duymursan belə. Elə bil hər şey dünən idi. 1932-2025... Bu illər ərzində Naxçıvan Teleradiosunun qapısından minlərlə insan daxil olub, minlərlə insan çıxıb. Yarandığı ilk illərdən Naxçıvan Teleradiosu böyük bir tarixin carçısına, taleyini bura bağlayan insanlar üçün doğma bir ocağa çevrilib. Teleradionun divarları şahiddir bu illərin iş proseslərinə, çəkilişlərə, səs yazılarına, çətinliklərə və uğurlara. Bu illər ərzində şahidlik edib, xeyir-dua verib neçə-neçə yeni qurulan gənc ailələrə. Burada yaranan ilk tanışlıqlar sonralar əbədi məhəbbət nağılına çevrilib. Çiyin-çiyinə çalışaraq sevinclərini, kədərlərini bir yerdə bölüşüb talelərini Naxçıvan Teleradiosuna bağlayıblar. Qardaşların da, bacıların da iş yerləri Naxçıvan Teleradiosu olub. Gündəlik iş yerlərinə bir gəlib, bir gediblər. Naxçıvan Teleradiosu ikinci evlərinə çevrilib. Bu ocaq həmişə hər bir əməkdaşa mənəvi dayaq, arxa olub. Bu illər ərzində Naxçıvan Teleradiosunda əsil həyat və sənət məktəbini keçən bir çox əməkdaşların səsi bu gün Azərbaycanın və Naxçıvan MR-nın müxtəlif mötəbər yerlərindən gəlir. Onlar çalışdıqları hər bir sahədə Naxçıvan Teleradiosunun adını uca tutub, onunla fəxr edirlər. Bu gün Naxçıvan Teleradiosunda çalışan əməkdaşların bir qismi isə dünyasını dəyişmiş valideynlərinin, doğmalarının, əzizlərinin sənət yolunu uğurla davam etdirirlər. Naxçıvan Teleradiosu bir ev, həm də bir ocaqdır. Çünki bu ocağın bütün dövrlərində bacı-qardaş, iki qardaş, ata-oğul, baba-nəvə və həyat yoldaşları çiyin-çiyinə çalışıb. Bəlkə də budur əməkdaşları bir-birinə sıx bağlayan tellər. Bəlkə də budur Naxçıvan Teleradiosunu ocağa çevirən, təkcə iş mühiti yox, ailə ortamı yaradan səbəb. Sözləri mərhum xalq şairi Cabir Novruza və musiqisi mərhum xalq artisti Oqtay Kazımiyə məxsus olan "Ey həyat, sən nə qəribəsən?" mahnısını eşitdikcə Naxçıvan Teleradiosu əməkdaşlarının sənət və ömür yolları bir anlığa gözlər önündə canlanır. Elə bil bu mahnı onlara həsr olunub.

Nə yaxın qonşu olduq bu dünyada,
Ayrı-ayrı doğulduq bu dünyada,
Axır gəlib bir olduq bu dünyada
Ey həyat, sən nə qəribəsən?

Aylar keçir, illər keçir axın olur,
Yadlar gəlir doğma olur, yaxın olur.
Məhəbbətlə keçən ömür nağıl olur,
Ey həyat, sən nə qəribəsən?

Qadın texniki işçilərin bir qrupu.

Radio əməkdaşlarının bir qrupu.

Yavər İsmayıl oğlu Əliyev 1936-cı ildə Naxçıvan şəhərində anadan olub. 1963-cü ildə televiziyanın kinolaboratoriyasında müdir vəzifəsində çalışmağa başlayıb. Tez bir zamanda kinooperator kimi əmək fəaliyyətini davam etdirib. İlk sənədli filmlərin və o dövr üçün ənənəvi dövlət tədbirlərinin çəkilişlərini həyata keçirib. Dəfələrlə Naxçıvan MSSR Ali Sovetinin Fəxri fərmanlarına, diplomlarına və döş nişanlarına layiq görülüb. 1990-93-cü illərin məlum tarixi hadisələri də Yavər Əliyev kinokamerasının baxış bucağından yan keçməyib. Yeni kiçik kasetli "TJK" tipli videokamera dəstini ilk dəfə sınaqdan çıxaran da Yavər Əliyev olub. O, "Panasonik" adlı videokamera ilə Naxçıvan MR Ali Məclisinin sessiyalarının, Ali Məclisin Sədri Heydər Əliyevin qəbullarının və görüşlərinin, iştirak etdiyi bütün dövlət əhəmiyyətli tədbirlərin çəkilişlərində yaxından iştirak edib. 2003-cü ildə təqaüdə çıxan ustad sənətkar 2018-ci ildə vəfat edib. Ruhu şad olsun! Onunla uzun illər bir yerdə çalışmış ömür-gün yoldaşı Fəridə xanım həmişə Yavər Əliyevə həyatda və sənətdə mənəvi dayaq olub, sevinc və kədərlərini bir yerdə bölüşüblər.

Fəridə Xəlil qızı Əliyeva 1937-ci ildə Naxçıvan şəhərində anadan olub. Televiziyanın yarandığı ilk illərdən kinolaboratoriyada laborant vəzifəsində çalışmağa başlayıb. Kinooperator Yavərlə onun ömür yolu burada birləşib. Yavərin kinolentlərin aşkarlanması zamanı ona verdiyi məsləhət və tövsiyələr tək onun yox, bir neçə laborant həmkarının bu sahəyə olan maraqlarını daha da artırıb. İllərin sınağıdan çıxan Yavər və Fəridənin ömür hekayəsi kinolentlərin aşkarlığında ağ, xoşbəxt günlərin vərəqləri ilə tamamlanıb. Ömürlərinin sonuna kimi bir-birilərinə sadiq qalıblar. Fəridə Xəlil qızı Əliyeva 2016-cı ildə dünyasını dəyişib. Ruhu şad olsun!

Qadir Zülfüqar oğlu Əliyev 1939-cu ildə Naxçıvan şəhərində anadan olub. 1963-cü ildə Naxçıvan Televiziyasının ilk teleoperatoru və fotoqraflarından biri, 40 il fasilə vermədən telekamera arxasında dayanaraq iri həcmli bayram verilişlərinin, canlı teletamaşaların quruluşçu operatoru olub. 1990-cı illərin tarixi sınaq günlərində bir çox həmkarları kimi o da gecəsini gündüzünə qataraq doğma kanal vasitəsilə xalqa müraciətlər edilərkən telekamera araxasından bir an belə uzaqlaşmayıb. Onun telekamerası 1990-1993-cü illərdə Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən bütün tarixi sessiyaların canlı şahidi olub. Bu illər ərzində üç dəfə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanı və "Əmək veteranı" medalı ilə təltif olunub. 2001-ci ildə vəfat edib. Ruhu şad olsun!

Bu gün onun sənət yolunu televiziyada qızı Şölə jurnalist, oğlu İlqar isə operator kimi layiqincə davam etdirirlər.

Şölə Qadir qızı Əliyeva (İbrahimova) 1970-ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Universitetinin "Psixologiya" ixtisası üzrə bitirən Şölə Əliyeva 1989-cu ildən Naxçıvan Teleradiosunda atası Qadirlə bir yerdə çalışaraq kiçik redaktorluqdan baş redaktorluğa kimi jurnalist yolu keçib. 20 ilə yaxın "Ədəbi-bədii verilişlər" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. 2004-cü ildə efirə gedən "Günün aydın, ulu yurdum!" və "Günaydın" səhər proqramının müəllif və redaktoru, xalq yaradıcılığı ilə bağlı silsilə verilişlərin, bir neçə teleleviziya filminin layihə rəhbəri, ssenari müəllifi və redaktoru olub. Dəfələrlə fəxri fərmanlara, 2014-cü ildə isə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. Hazırda Naxçıvan Televiziyasının "Sənədli filmlər və dublyaj" redaksiyasında redaktor vəzifəsində çalışıb. Hazırda "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasının baş redaktorudur.

İlqar Qadir oğlu Əliyev 1976-cı ildə Naxçıvan şəhərində anadan olub. 1998-ci ildə kino-teleoperator vəzifəsinə işə qəbul olunub. Televiziyada operatorluq sənətinin incəliklərini atası Qadirdən öyrənən İlqarın tez bir zamanda çəkdiyi kinosüjetlər və studiya verilişləri onun peşəkar operator kimi yetişdiyini büruzə verdi. Atası Qadir kimi o da bu gün çox sevdiyi telekamerasının arxasından bir an belə ayrılmır, yeni-yeni rəngarəng telegörüntülərlə studiya verilişlərinin maraqlı olmasına çalışır.



✵ ✵ ✵

İldırım Dadaş oğlu Məhərrəmov 1939-cu ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. 1963-cü ildən ömrünün sonuna kimi Naxçıvan Teleradiosunda texnik-mühəndis vəzifəsində çalışıb. Saysız-hesabsız radio və televiziya verilişlərinin, konsert proqramlarının, teletamaşaların hazırlanmasında səs operatoru və səs rejissoru kimi də yaxından iştirak edib. Müxtəlif diplom və fəxri fərmanlara layiq görülüb. 2007-ci ildə vəfat edib. Ruhu şad olsun!

İldırım Məhərrəmovun Naxçıvan Teleradiosunda 44 illik əmək fəaliyyətini bu gün oğlu Cəmil layiqincə davam etdirir.

Cəmil İldırım oğlu Məhərrəmov 1972-ci ildə Naxçıvan şəhərində anadan olub. 1990-cı ildə işıqçı vəzifəsinə işə qəbul olunub. Qısa müddətdən sonra kinooperator vəzifəsində əmək fəaliyyətini davam etdirib. İlk xəbər süjetlərindən kinooperator kimi püxtələşən C.Məhərrəmov müxtəlif irihəcmli bir neçə bayram verilişinin və televiziya filminin quruluşçu operatoru olub. Dövlət əhəmiyyətli tədbirlərin çəkilişlərində isə aparıcı kinooperator kimi fəal iştirak edib. Əmək fəaliyyəti dövründə bir çox fəxri fərman və diplomlara layiq

görülən Cəmil Məhərrəmov 2006-cı ildə "Tərəqqi" medalı, 2025-ci ildə isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub. Peşəkar kinooperator C.Məhərrəmov bu gün də dövlət əhəmiyyətli tədbirlərin və gündəlik verilişlərin çəkilişlərində böyük həvəslə iştirak edir.

❋ ❋ ❋

Nəriman Fərrux oğlu Vəliyev 1938-ci ildə Şərur rayonunun Tənənəm kəndində anadan olub.1963-cü ildə Naxçıvan Teleradiosunun ilk texniki-mühəndislərindən biri olub. Növbə rəisi işlədiyi illərdə canlı və çəkilən studiya verilişlərinin texniki cəhətdən qüsursuz efir yayımına məsuliyyətlə yanaşıb. Müxtəlif fəxri fərmanlarla təltif olunub. 2018-ci ildə vəfat edib. Ruhu şad olsun!

Bu gün oğlu İlham da atasının yolunu gedərək taleyini Naxçıvan Teleradiosuna bağlayıb.

İlham Nəriman oğlu Vəliyev 1977-ci ildə Şərur rayonunun Tənənəm kəndində doğulub. 2007-ci ildə qiyabi olaraq Naxçıvan Dövlət Universitetini bitirib. 1999-cu ildə televiziyada işıqçı vəzifəsində çalışmağa başlayıb, daha sonra kinooperator kimi əmək fəaliyyətini davam etdirib. "Naxçıvan albomu" üçhissəli televiziya filminin quruluşçu operatorlarından biri olub. Bir çox televiziya filmlərinə və yaddaqalan silsilə verilişlərə kinooperatorluq edib. Uzunmüddətli kinooperatorluq təcrübəsi bu gün ona studiya rejissoru kimi müxtəlif səpkili verilişlərin çəkilişlərində yeni, təkrarsız rejissor tapıntılarına imkan yaradır.

❋ ❋ ❋

Şükür Allahverdi oğlu Babayev 1940-cı ildə Naxçıvan şəhərində anadan olub. 1963-ci ildə ilk kinomexanik kimi televiziyada əmək fəaliyyətinə başlayıb. 1984-1994-cü illərdə televiziyanın videotekasına nəzarət edib. 1994-cü ildə dünyasını dəyişib. Ruhu şad olsun!

Rəfiqə Mehdi qızı Babayeva - 1941-ci ildə dünyaya gəlib. 1975-ci ildə teleradioda teleqrafçı vəzifəsinə işə qəbul olunub. Ömrünün sonuna kimi bu vəzifədə çalışıb. İş yerinə həyat yoldaşı Şükürlə qoşa gəlib qoşa gediblər. Şükürlə eyni ildə, yəni 1994-cü ildə dünyadan köçüb. Ruhu şad olsun!

Əfruz Şükür qızı Babayeva (Firudinbəyova) 1963-cü ildə Naxçıvan şəhərində dünyaya göz açıb. O da atası Şükür, anası Rəfiqə kimi taleyini Naxçıvan Teleradiosuna bağlayaraq 1980-ci ildə videomontaj operatoru vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1982-1988-ci illərdə indiki Azərbaycan Dövlət Texniki Universitetində qiyabi təhsil alıb. Çoxsaylı verilişləri videolentə köçürən Əfruz 1989-cu ildə "Məni qoymayın təklənəm" televiziya filminin yeni qurulan 2 postlu, iribabinli "3 PMP" tipli videomaqnitofonlarda həmkarı Məmmədbağır Sultanovla bütün texniki çətinliklərə baxmayaraq yüksək səviyyədə montaj prosesini həyata keçirərək efirə təqdim edib. 1990-2001-ci illərdə "BETEKAM", "VXS-SVXS" tipli videomaqnitofonlarda montaj və efir operatoru kimi çalışıb. Televiziyada uzun müddətli səmərəli fəaliyyətinə görə 2021-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2001-ci ildən efir rejissoru vəzifəsində çalışan Əfruz Şükür qızı Firudinbəyova bu gün də efir rejissoru kimi qüsursuz efir yayımına çalışır.

Elxan Tağı oğlu Kərimov 1937-ci ildə Naxçıvan şəhərində anadan olub. 1963-cü ildə Naxçıvan şəhər 7 nömrəli peşə məktəbinin elektromexanik və radio-texnik ixtisası üzrə tam kursunu bitirib. Həmin ildən də Naxçıvan Televiziyasında müxtəlif vəzifələrdə çalışmağa başlayıb. Öz işini görməklə yanaşı həvəskar fotoqrafiya ilə də məşğul olub. Naxçıvan Teleradiosunda çalışdığı illərdə çəkdiyi fotoşəkillər bu gün o illərin əməkdaşlarının şəxsi ailə arxivinin ən əziz xatirəsinə çevrilib. Tez-tez işlətdiyi "Belə qalsa, yaxşıdır!" ifadəsi ilə Elxan bu gün də yada düşüb xatırlanır. Bu kitabda istifadə olunan tarixi fotoların çoxu Elxan Kərimova məxsusdur. O, 1994-cü ildə vəfat edib. Ruhu şad olsun!



Xalq artisti Həsən Məmmədov və Elxan Kərimov.

Elxan Kərimov, xalq artisti Flora Kərimova və Zeynəb Kazımova.

Zeynəb Əziz qızı Kazımova 1948-ci ildə Şərur rayonunun Yuxarı Yaycı kəndində anadan olub. 1983-cü ildən Naxçıvan Radiosunda səs operatoru vəzifəsində çalışıb. İşdə həmkarı, ailədə ömür-gün yoldaşı Elxan Kərimovla birgə addımladıqları ömür yolunun acılı-şirinli günlərində həmişə ona mənəvi dayaq, arxa, övladlarına əsil ana olub. 2005-ci ildə təqaüdə çıxıb.

Səs operatoru Zeynəb Kazımova və səs rejissoru Adilə Qardaşbəyova canlı radio yayımında.

Naxçıvanda rabitəçilər ailəsi kimi tanınan Rüstəmovlar ailəsi haqqında sovetlər birliyinin mötəbər mətuat səhifələrində dəfələrlə geniş məqalələr, oçerklər, reportajlar yazılıb. Rüstəmovlar ailəsinin ağsaqqalı **Hüsyen Rüstəm oğlu Rüstəmov** 1917-ci ildə Ordubad rayonunun Vənənd kəndində dünyaya gəlib. 1941-1945-ci illər müharibəsinin iştirakçısı olub. 1963-cü ildən ömrünün sonuna kimi Naxçıvan Teleradiosunun kinokamera, kinomontaj aparatları və texniki avadanlıqlar sexinə rəhbərlik edib. 1992-ci ildə vəfat edib. Hüseyn kişinin teleradioya bağlılığı övlad və nəvələrinə də irsən keçib. Qızı Zöhrabə və Misir bir müddət radioda çalışıblar. Dünyalarını erkən dəyişsələr də qardaşları Məmmədəli Naxçıvan rabitəsində, Əbdüləli isə Naxçıvan Teleradiosunda atalarının yolunu gedərək ailəvi rabitəçi ənənələrini layiqincə davam etdiriblər.

Əbdüləli Hüseyn oğlu Rüstəmov 1945-ci ildə Ordubad rayonunun Vənənd kəndində anadan olub. Əbdüləli Rüstəmov 1961-ci ildə Bakı Rabitə Texnikumunu qiyabi bitirib. 1964-cü ildən Naxçıvan Teleradiosunda əmək fəaliyyətinə başlayıb. Bu illər ərzində videoyazı operatoru və sex rəisi, teleradionun texniki işlər üzrə direktor müavini və radioda texnik-mühəndis vəzifələrində çalışıb. 1990-93-cü illərdə illərdə keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyalarının texniki cəhətdən qüsursuz videoyazılışı və birbaşa qüsursuz efir yayımı sex rəisi Əbdüəli Rüstəmovun adı ilə bağlıdır. 2010-cu ildə təqaüdə çıxıb. **1989-2001-ci illərdə Hüseyn Rüstəmovun nəvələri Arzu radioda səs operatoru, Sitarə televiziyada rejissor assisenti, Tahirə isə efir kompüterçisi** vəzifələrində çalışaraq "Rabitəçilər" ailəsinin adət-ənənələrinə sadiq qalıblar.

Vaqif Misirxan oğlu İsmayılov 1946-cı ildə Naxçıvan şəhərində anadan olub. 1965-ci ildə Naxçıvan Radiosunda səs operatoru və səs rejissoru kimi əmək fəaliyyətinə başlayıb. Efirə təqdim olunan çoxsaylı radioverilişlərin, radiotamaşaların və kompozisiyaların musiqi tərtibatını verib. 1990-93-cü illərdə Naxçıvan Radiosunun səyyar studiyası ilə yayımlanan Naxçıvan MR Ali Məclisinin sessiyaları, Ulu öndər Heydər Əliyevin müraciətləri və canlı çıxışları Vaqif İsmayılovun rejissorluğu ilə efirə təqdim olunub. Sonrakı illərdə televiziyada rejissor, operator vəzifələrində çalışmağa başlayıb. Jurnalist Akif Axundovun ssenariləri əsasında çəkilən "Əshabi-Kəhf" və "Şərur toyu" sənədli televiziya filmlərinin quruluşçu rejissoru və operatoru olub. Jurnalist Səməd Canbaxşıyevin müəllifi olduğu "Səyyah" teleturizm klubu, "Park" gənclər klubu, "Qapı", "Vətən, mən əsgərəm", "Hər şey ordu üçün" və bir çox silsilə proqramların operator-rejissoru olub. Bir neçə "Yeni il" bayram verilişinin hazırlanmasında ikinci rejissor kimi iştirak edib. Çəkdiyi verilişlərdə səmimi duyğularla yaşayan sədaqətli dost, etibarlı yoldaş Vaqif Misirxan oğlu İsmayılov 2023-cü ildə vəfat edib. Ruhu şad olsun!

Zahid Misirxan oğlu İsmayılov 1942-ci ildə Naxçıvan şəhərində anadan olub. Qardaşı Vaqifdən iki yaş böyük olan Zahid ondan iki il sonra 1967-ci ildə televiziyanın şriftçi rəssamı vəzifəsində əmək fəaliyyətinə başlayıb. O illərdə efirə təqdim olunan bütün verilişlər, konsertlər, tamaşalar və sonluqlar müxtəlif rəngli kağızlarda yazılan titrlərlə verilirdi. Müxtəlif səpkili verlişlərin mövzularına uyğun başlıq və sonluqlarına təkrarsız şriftlərlə titrlər hazırlayan Zahid İsmayılov irihəcmli studiya verlişlərinin səhnə tərtibatında da yaxından iştirak edib. Zahid İsmayılov 2009-cu ildə vəfat edib. Ruhu şad olsun!

Eldar Məmmədhüseyn oğlu İsmayılov 1941-ci ildə Culfa rayonunun Göydərə kəndində anadan olub. 1963-1986-cı illərdə səyyar televiziya stansiyasının və studiyanın növbə rəisi vəzifələrində çalışıb. Səyyar televiziya stansiyası ilə müxtəlif verilişlərin natura çəkilişlərini, ənənəvi tədbirlərin canlı yayımını həyata keçirib. Növbə rəisi işlədiyi dövrlərdə həmkarları ilə birlikdə studiya verilişlərinin texniki cəhətdən qüsursuz efir yayımına nəzarət edib. Eldar İsmayılov 2001-ci ildə dünyasını dəyişib. Ruhu şad olsun!

Növbə rəisləri Eldar İsmayılov və Nəriman Vəliyev.

Nabat Abbas qızı İsmayılova Culfa rayonunun Göydərə kəndində 1947-ci ildə anadan olub. Həmkəndlisi Eldar İsmayılovla ailə qurub ömür yollarında Naxçıvan Teleradiosunda birgə addımlayıblar.

Televiziyanın yarandığı ilk illərdən kino-laboratoriyada laborant, sonrakı illərdə isə radioda səsyazma operatoru vəzifəsində çalışıb. 2009-cu ildə dünyasını dəyişib. Ruhu şad olsun!

* * *

Sevindik Abılı oğlu Həmzəyev 1941-ci ildə Şahbuz rayonunun Zırnel kəndində anadan olub. (Təəssüflər olsun ki, bu kənd indi yoxdur. Adı arxiv sənədlərində və yaddaşlarda yaşayır. Kənd sakinlərinin əksəriyyəti Güney Qışlaq, Qızıl Qışlaq kəndlərində və Naxçıvan şəhərində məskunlaşıblar) Sevindik Həmzəyev 1961-67-ci illərdə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində ali təhsil alıb. 1964-cü ildə televiziyada rejissor köməkçisi vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1965-ci ildə öz ərizəsi əsasında işdən azad edilib. "Şərq qapısı" qəzetində ədəbi işçi vəzifəsi ilə jurnalist fəaliyyətini davam etdirib. 1968-76-cı illərdə "Şərq qapısı" qəzetində məsul katibin müavini və məsul katib vəzifələrində işləyib. Sevindik Həmzəyev 1976-cı ildə yenidən Naxçıvan Teleradiosuna qayıdaraq "Xəbərlər" redaksiyasında, 1977-ci ildə isə "Təbliğat" redaksiyasında böyük redaktor vəzifələrində çalışıb. 1991-1994-cü illərdə "Radio verilişləri" baş readaksiyasına

baş redaktor, studiya direktoru, radio üzrə komitə sədrinin müavini təyin edilib. Naxçıvan MSSR Ali Sovetinin bir çox Fəxri fərmanlarına və "Təşəkkürnamə"lərə layiq görülüb. 2003-cü ildə təqaüdə çıxıb. 2016-cı ildə vəfat edib. Ruhu şad olsun!

Ömrünün sonuna kimi radionun aparıcı diktoru Leyla Bədəlova ilə qurduğu ailənin bütövlüyünə sadiq qalıb.

Leyla Bayraməli qızı Bədəlova 1945-ci ildə Naxçıvan şəhərində anadan olub. 1972-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. Elə həmin il Naxçıvan Radiosunda kiçik redaktor vəzifəsinə işə qəbul olunub. Həmkarı jurnalist Sevindik Həmzəyevlə ailə qurub. Uzun illər radioda bir yerdə çalışıblar. Ömrünün sonuna kimi radionun aparıcı diktoru kimi fəaliyyət göstərib. Naxçıvan Radiosunun gündəlik efir dalğalarında diqqəti cəlb edən məlahətli səsi ilə dinləyicilərin könlünü oxşayan Leyla Bədəlova 2012-ci ildə dünyasını dəyişib. Ruhu şad olsun!

Rafiq Hüseyn oğlu İmanov 1941-ci ildə Şahbuz şəhərində doğulub. 1963-cü ildə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunu, 1969-cu ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1967-ci ildə Naxçıvan Teleradiosunda müxbir vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1973-93-cü illərdə Azərbaycan Radiosunun və "AzərTAC"ın xüsusi müxbiri vəzifələrində çalışıb. Naxçıvan Radiosunun Ordubad rayonu üzrə bölgə müxbiri olub. 1990-93-cü illər Rafiq İmanovun jurnalist fəaliyyətinin ən ağır və ən məhsuldar dövrü olub. Jurnalist həmkarları ilə gecə-gündüz bir yerdə çalışaraq blokada şəraitində yaşayan Naxçıvanın haqq səsini dünya informasiya agentliklərinə çatdırmağa çalışıb. O, Naxçıvan MR Ali Məclisinin bütün sesssiyalarında iştirak edərək Ali Məclisin Sədri Heydər Əliyevin müraciət və təkliflərini özünün əl boyda balaca diktofonuna yazaraq gündəlik efir dalğalarında səsləndirib. Kəsərli reportajları ilə əsil jurnalist mövqeyini sübut edib. Bir çox fəxri fərman və diplomlarla yanaşı 2005-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunub. Uzun illər ömür və sənət yollarında birgə addımlayan Rafiq İmanovla Güllü Məmmədovanın qurduqları ailə bu gün Azərbaycanda tanınmış əsil ziyalı, jurnalist ailələrindən biridir.

Güllü Mehdi qızı Məmmədova 1947-ci ildə Yevlax rayonunda anadan olub. 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1969-cu ildə Şahbuz rayonunun "Qabaqcıl" qəzetinin məsul katibi vəzifəsi ilə əmək fəaliyyətinə başlayıb. 1986-cı ildən Naxçıvan Televiziyasının "Xəbərlər" redaksiyasında jurnalist fəaliyyətini davam etdirib. 2001-2007-ci illərdə radionun "Ədəbi-bədii verilişlər" redaksiyasında böyük redaktor vəzifəsində çalışıb. "Şəxsiyyət-bu, Lətif Hüseynzadədir", "Sənət məbədgahı-Naxçıvan Dövlət Filarmoniyası" televiziya filmlərinin və "Səni sevirəm", "Mənim üçün varsan" adlı filmtamaşaların müəllifidir. Müxtəlif illərdə çap olunmuş hekayə, povestlərlə yanaşı müəllif "Qarabəkir əfsanəsi", "Kalbalı xan", "Qan içində işıq", "Oğurlanmış Zəngəzur", "Fatehlərin zəfəri" tarixi sənədli romanlarını yazmışdır. "Qan içində işıq" Ankarada türk dilində çap olunmuşdur. "Oğurlanmış Zəngəzur" romanı isə hazırda rus dilinə tərcümə edilir. Bu gün həyat yoldaşı Rafiq müəllimin mənəvi dayağı ilə övladlarının və nəvələrinin uğurlarına sevinən Güllü xanım ailəsi ilə birlikdə Bakı şəhərində yaşayaraq yeni ədəbi axtarışlarını davam etdirir.

* * *

Məmməd Abbasəli oğlu İsmayılov 1947-ci ildə Naxçıvan şəhərində doğulub. 1967-ci ildə Naxçıvan Teleradiosunda kinooperator assistenti vəzifəsinə işə qəbul olunub. İllər keçdikcə kinoopertorluq sahəsində təcrübə toplayan Məmməd İsmayılov saysız-hesabsız verilişləri kamerasının yaddaşına köçürüb. İrihəcmli bayram verilişlərinin, "Müqəddəs nemət", "Məni qoymayın təklənəm" və bir çox telefilmlərin quruluşçu operatoru olub. 1990-1993-cü illərin məlum tarixi hadisələri onun da "TJK" videokamerasından yan keçməyib. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən bütün tarixi sessiyalar, Ali Məclisin Sədri kimi onun İrana və Türkiyəyə işgüzar səfərləri də M.İsmayılovun "TJK"videokamerası ilə lentlərə köçürülüb. Baş operator kimi bir neçə il operatorlar qrupuna rəhbərlik edib. 1980-90-cı illərdə dəfələrlə Naxçıvan MSSR Ali Sovetinin Fəxri fərman və diplomlarına, 1991-ci ildə isə "Naxçıvan MR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2011-ci ildə sevimli kinokamerasından ayrılan Məmməd İsmayılov 2013-cü ildə vəfat edib. Ruhu şad olsun.

O, dünyasını dəyişsə də uzun illər bir yerdə çalışıb sonradan ailə qurduğu Təhminə İsmayılovanın və qızlarının yaddaşlarında xoş xatirələrlə yaşayır.

Təhminə Hüseyn qızı İsmayılova 1957-ci ildə Naxçıvan şəhərində anadan olub. Atası Hüseyn kişi də uzun müddət teleradionun təsərrüfat işlərinə nəzarət edib. Təhminə İsmayılova 1974-1983-cü illərdə makinaçı, 1983-2003-cü illərdə teleqrafçı, 2003-2021-ci illərdə rejissor assisenti vəzifələrində çalışıb. 2021-ci ildə təqaüdə çıxıb. İsmayılovlar ailəsində televiziya ab-havası ilə böyüyən Aytən də əmək fəaliyyətinin ilk illərini valideynləri kimi Naxçıvan Teleradiosundan başlayıb.

Aytən Məmməd qızı İsmayılova 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1993-1997-ci illərdə Naxçıvan şəhər Ü.Hacıbəyov adına Musiqi Kollecində təhsil alıb. 1998-ci ildə Naxçıvan Radiosunda musiqi redaktoru vəzifəsində çalışmağa başlayıb. İlk dəfə olaraq radionun yeni formatda təqim olunan canlı "Arzular-istəklər" proqramının müəllifi və aparıcısı olub. 10 il radioda müxtəlif rəngarəng musiqili proqramlar və ədəbi-bədii musiqili verilişlər hazırlayan Aytən İsmayılova Naxçıvan Teleradiosundan 2008-ci ildə ayrılsa da, bu gün musiqi sahəsində pedaqoji fəaliyyətini uğurla davam etdirir.

Qılman Fərhad oğlu Zamanbəyov 1949- cu ildə Naxçıvan şəhərində anadan olub. 1969-cu ildə teleoperator vəzifəsinə işə qəbul olunub. Teleoperator işlədiyi illərdə saya gəlməyən müxtəlif səpkili verilişlərə quruluş verib. Həmkarları ilə birlikdə studiyadan canlı yayımlanan teletamaşaların müxtəlif, rəngarəng kadrlarla təqdimatına daha çox üstünlük verib. Kadr rəngarəngliyi və kadr seçimi onun kamerası ilə 1990-93-cü illərdə keçirilən Naxçıvan MR Ali Məclisin tarixi sessiyalarının çəkilişlərində özünü göstərib. "Sehirli kürsü", səyyar televiziya kameraları ilə çəkilən "Həsrətin son axşamı" televiziya tamaşası və "Şərur yallıları" televiziya filmi ilə quruluçu operator peşəkarlığını bir daha təsdiq edib. 2019-cu ildə təqaüdə çıxıb.

Fərhad Qılman oğlu Zamanbəyov 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1999-cu ildə Naxçıvan Özəl Universitetini bitirib. 1994-cü ildə Naxçıvan Teleradiosunda səs operatoru vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1997-ci ildə rejissor vəzifəsinə təyin olunan Fərhad Zamanbəyov 2002-ci ildən 1-ci dərəcəli rejissor kimi "Xəbərlər" proqramının aparıcı rejissoru olub. 2004-2014-cü illərdə baş rejissor kimi televiziyanın "Sənədli filmlər və dulyaj redaksiyası" və "Proqram-buraxılış, əlaqələndirmə direksiyası"nın rejissoru olub. "Dəmirçi", əməkdar rəssam Şəmil Mustafayevə həsr olunmuş "Avtoportret", "Sənət məbədgahı-Naxçıvan Dövlət Filarmoniyası" və çoxsaylı televiziya filmlərinə, eyni zamanda irihəcmli ədəbi-bədii, ictimai-siyasi proqram və verilişlərə quruluş verib. "Azərbaycanın ürəyidir Naxçıvan" sənədli televiziya filmi Bolqarıstanda keçirilən turizm-film festivalında mükafata layiq görülüb. "Şəbəkə ustası" sənədli televiziya filmi Bakıda keçirilən Film-festivalında ən yaxşı təsvir filmi nominasiyasına layiq görülüb. Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Ömrün Naxçıvan aşırımları" bir neçə hissəli sənədli televiziya filmi Fərhad Zamanbəyovun quruluşçu rejissor və montaj rejissoru kimi ən uğurlu filmlərindəndir. Bir çox diplom və fəxri fərmanlara, 2016-cı ildə isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2021-cü ildən "Naxçıvan Teleradiosu" QSC-nin rejissorlar qrupuna rəhbərlik edir.

Əlyar Yusif oğlu Yusifli 1929-cu ildə Şərur rayonunun Püsyan kəndində dünyaya göz açıb. 1950-ci ildə Ordubad Pedaqoji Texnikumunu, 1956-cı ildə Azərbaycan Pedaqoji İnstitutunu "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə, 1969-cu ildə Moskvada M.Qorki adlna Ədəbiyyat İnstitutunun nəzdində 2 illik ali ədəbiyyat kurslarını bitirib. Pedaqoji fəaliyyət göstərib, mətbuatda çalışıb. 1970-ci ildən ömrünün sonuna kimi Naxçıvan Televiziyasının "Ədəbi-bədii verilişlər" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. İrihəcmli bayram verilişlərinin ideya və ssenari müəllifi olub. Onun redaktorluğu ilə saysız-hesabsız ədəbi-bədii, publisistik yeni telelayihələr efirə vəsiqə alıb. "Dağlar yaraşığı", "Səni xatırlayıram", "Səni tapacağam", "Bənövşə ətri" kimi bir çox şeir topluları nəşr olunub. "Vicdan əzabı", "Ürək sevərsə", "Səadət naminə", "Gözüm yollarda qaldı", "Əlincədən uçan qartal" pyesləri Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub. Şair-dramaturq Əliyar Yusifli 1993-cü ildə dünyasını dəyişib. Ruhu şad olsun! Əliyar Yusiflinin poetik yaradıcılıq yolunu qardaşı oğlu şair-jurnalist Asim Yadigar Naxçıvan ədəbi mühitində və Naxçıvan Teleradiosunda layiqincə davam etdirib və etdirir.

Asim Yediyar oğlu Əliyev 1954-cü ildə Şərur rayonunun Püsyan kəndində anadan olub. 1971-75-ci illərdə Naxçıvan Dövlət Universitetində "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə ali təhsil alıb. Bir neçə il pedaqoji fəaliyyətlə məşğul olduqdan sonra 1989-2009-cu illərdə Naxçıvan Televiziyasında redaktor, baş redaktor, şöbə müdiri vəzifələrində çalışıb. "Göy qurşağı", "Ozan", "Sazın, sözün sehrində", "Yaddaşlarda yaşayanlar", "Yazıçılarımızın yaradıcılığından səhifələr", "Dünyada nə qədər kitab var belə", "Üz-üzə", gündəlik efirə yayımlanan "Günorta saatı" və bir çox silsilə verilişlərin müəllifi, eyni zamanda aparıcısı olub. Onun Naxçıvan Televiziyasında hazırladığı ulu öndər Heydər Əliyevə və Naxçıvan Muxtar Respublikasına həsr olunmuş kompozisiyalar, tematik verilişlər həmişə orjinal efir təqdimatları ilə seçilib. "Göy-göl", "Nizami", "Şəhid ucalığından görünən Vətən" sənədli televiziya filmləri də onun güclü şair-jurnalist qələminin məhsuludur. 2005-ci ildə Naxçıvan MR "Əməkdar mədəniyyət işçisi", 2019-cu ildə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına, "Cümhuriyyətin 100 illiyi" medalına, 2009-cu ildə Prezident mükafatına, 2014-cü ildə isə "Tərəqqi" medalına layiq görülüb. 4-5-6-cı çağırış Naxçıvan MR Ali Məclisinin deputatı olub. Ömrünün 72-ci baharını yaşayan Asim Yediyar oğlu Əliyev 2007-ci ildən Naxçıvan MR

Yazıçılar Birliyinin sədri vəzifəsində çalışaraq bu gün də ədəbi yaradıcılığını davam etdirir. 16 kitabın, 6 pyesin, 18 poemanın, 500-dən çox müxtəlif mövzulu şeirlərin müəllifidir. Asim Yadigarın qızı Günay da ömrünün və sənət yolunun ilk illərini Naxçıvan Teleradiosunadan başlayıb.

Günay Asim qızı Əliyeva 1981-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-2002-ci illərdə Naxçıvan Dövlət Univetsitetində "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə ali təhsi alıb. 1998-2017-ci illərdə Naxçıvan Teleradiosunda çalışaraq jurnalist qələmini sınaqdan çıxarıb. Televiziyada "Xalqım Heydər deyəcək", Üç yarpaq", "Pəncərə", "Tariximizi necə öyrənirik", "Sabaha doğru" kimi silsilə veriliş və proqramların, radioda Naxçıvanın ədəbi mühiti ilə bağlı çoxsaylı proqramların, "Efir dalğalarında" radio-anonsların müəllifi və aparıcısı olub.

❋ ❋ ❋

Qəmər Musa qızı Əliyeva 1947-ci ildə Naxçıvan şəhərində anadan olub. 1971-ci ildə televiziyaya makinaçı vəzifəsinə işə qəbul olunub.1972-ci ildən radionun səs operatoru vəzifəsində çalışmağa başlayıb. Radioverilişlərin, konsertlərin, radiotamaşaların keyfiyyətli səsyazmalarına məsuliyyətlə yanaşıb. Ömrünün 43 ilini Naxçıvan Radiosuna həsr edən Qəmər Əliyevanın oğlanları Arzu və Kazım da əmək fəaliyyətlərinin ilk illərinə Naxçıvan Teleradiosundan başlayıblar.

Arzu Məmməd oğlu Əliyev 1986-ci ildə Naxçıvan şəhərində anadan olub. 1996-cı ildə indiki Azərbaycan Texniki Universitetində "Elektrik rabitə mühəndisliyi" ixtisası üzrə təhsil alıb. 2001-ci ildə televiziyada mühəndis kimi əmək tfəaliyyətinə başlayıb. 2005-2011-ci illərdə sex rəisi və ümumi texniki işlər üzrə direktor vəzifələrində çalışan Arzu Əliyev başqa işə keçməsi ilə əlaqədar 2011-ci ildə Naxçıvan Teleradiosundan ayrılıb.

Kazım Məmməd oğlu Əliyev 1967-ci ildə Naxçıvan şəhərində anadan olub. 1987-91-ci illərdə Moskva Energetika İnstitutunda "Elektrik rabitə" mühəndisliyi ixtisası üzrə təhsil alıb. 1991-ci ildə Naxçıvan Televiziya Mərkəzində texnik-mühəndis vəzifəsində ilk əmək fəaliyyətinə başlayıb. 2001-2004-cü illərdə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor kimi əmək fəaliyyətini davam etdirib. "Mövqe", "İslahat yollarında", "Kənd təsərrüfatı və sənayemiz bu gün", "Dövlət quruculuğu" və bir neçə silsilə verilişlərin və "Azadlıq yollarında" 3 hissəli televiziya filminin müəllifi olub. 2005-ci ildə Naxçıvan Teleradiosundan ayrılıb.

❋ ❋ ❋

Məlahət Yaqub qızı Allahverdiyeva 1951-ci ildə Babək rayonunun Cəhri kəndində anadan olub. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1974-1994-cü illərdə televiziyanın "Uşaq və gənclər" redaksiyasında redaktor, böyük redaktor vəzifələrində çalışıb. O illərdə efirə təqdim olunan verilişlərindən "Qərənfil" qadınlar üçün silsilə proqram jurnalist Məlahət Allahverdiyevanın peşəkar jurnalist imzası ilə daha çox yadda qalıb. 1994-2011-ci illərdə radionun "İctimai-siyasi verilişlər" redaksiyasının şöbə müdiri və redaktoru olub. M.Allahverdiyeva burda da öz jurnalist dəsti-xəttini bir daha təsdiq edib. Ömrünün 37 ilini Naxçıvan Teleradiosuna həsr edən M.Allahverdiyeva 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. 2013-cü ildə təqaüdə çıxıb. Teleradioda jurnalist həmkarı, ailədə ömür-gün yoldaşı olan Afiq Haqverdiyevin mənəvi dəstəyi Məlahət xanıma böyük yaradıcılıq işlərini görməyə imkan verib. Ayrı-ayrı redaksiyalarda çalışsalar da, onları bir amal birləşdirib Azərbaycan xalqına və dövlətçiliyinə layiqincə xidmət etmək.

Afiq Haqverdi oğlu Haqverdiyev 1939-cu ildə Bakı şəhərində anadan olub. 1969-cu ildə Azərbaycan Dövlət Universiteinin Şərqşünaslıq fakültəsində "Ərəb filologiyası və tərcüməçi" ixtisasına yiyələnib. 1972-92-ci illərdə "Şərq qapısı" qəzetində müxtəlif vəzifələrdə çalışıb. 1981-87-ci illərdə Azərbaycan və Naxçıvan MSSR Ali Sovetlərinin Fəxri fərmanları ilə təltif olunub. 1992-2009-cu illərdə Naxçıvan Televiziyasında jurnalist fəaliyyətini davam

etdirib. Azərbaycan və Naxçıvan ədəbi mühiti, mədəniyyəti, incəsənəti onun hazırladığı verilişlərin əsas süjet xəttini təşkil edib. Həftəlik "Minbər", "İslam olduğu kimi" və digər ictimai-siyasi yönümlü verilişlər də A.Haqverdiyevin yaratdığı ən gözəl telenümunələrdir. 2005-ci ildə "Naxçıvan MR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Afiq Haqverdiyev 2009-cu ildə dünyasını dəyişib. Ruhu şad olsun!

❋ ❋ ❋

Adil Fürudin oğlu Babayev – 1948-ci ildə Naxçıvan şəhərində anadan olub. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. İlk əmək fəaliyyətinə "Şərq qapısı" qəzetində başlayıb. 1976-cı ildən 2013-cü ilədək jurnalist qələmilə fasiləsiz olaraq Naxçıvan Televiziyasının "İctimai-siyasi", "Xəbərlər" baş redaksiyalarında redaktor, şöbə müdiri, baş redaktor vəzifələrində çalışıb. 2010-cu ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2013-cü ildə təqaüdə çıxıb. 2021-ci ildə vəfat edib. Ruhu şad olsun!

Adil Babayevin ənənəvi jurnalist dəsti-xəttini bu gün qızı Təhminə Babayeva uğurla davam etdirir.

Təhminə Adil qızı Babayeva – 1978-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-ci ildə "Naxçıvan" Universitetini bitirərək Naxçıvan Televiziyasında işə başlayıb. Həmin ildən televiziyanın "Xəbərlər" redaksiyasında müxbir, aparıcı və redaktor vəzifələrində çalışıb. 2015-2018-ci illərdə televiziyanın "İncəsənət və musiqili verilişlər" redaksiyasının baş redaktoru vəzifəsini icra edib. 2018-2020-ci illərdə Naxçıvan MR Ali Məclisi Aparatının mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində məsləhətçi və baş məsləhətçi vəzifələrində çalışıb. 2020-2024-cü illərdə yenidən televiziya fəaliyyətini davam etdirərək "Uşaq, gənclər və idman", "İncəsənət və musiqli verilişlər" redaksiyalarında baş redaktor, "Xəbərlər" departamentinin direktoru vəzifələrində çalışıb. 2024-cü ildə 7-ci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı seçilib. 2015-ci ilin mart ayında "Rəşadətli əməyə görə" nişanı, həmin ilin iyul ayında isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. T.Babayevanın qələmi bu gün də Naxçıvan Televiziyasının efirində layiqli yerini tutmaqdadır.

Tural Yaqub oğlu Qasımov - 1980-ci ildə Naxçıvan şəhərində anadan olub. 2005-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini, 2021-ci ildə NDU-nun İqtisadiyyat fakültəsini bitirib. 2003-2007-ci illərdə Naxçıvan Televiziyasında rejissor assistenti, ali dərəcəli rejissor vəzifələrində çalışıb. Elə burada jurnalist Təhminə Babayeva ilə yaradıcı iş prosesində tanış olaraq onunla ailə qurub. Bir-birinə dəstək olmaqla verilişlər, videoçarxlar hazırlayıblar. Tural Qasımov 2007-2015-ci illərdə Naxçıvan MR Televiziya və Radio Şurasında sektor müdiri-baş mühasib vəzifəsində işləyib. 2015-2024-cü illərdə Naxçıvan Teleradiosunda maliyyə şöbəsinin müdiri vəzifəsində çalışıb. 2024-cü ildən Naxçıvan MR Ədliyyə Nazirliyi maliyyə şöbəsinin rəisi vəzifəsində işləyir.

❋ ❋ ❋

Nurəddin İsa oğlu Əliyev 1959-cu ildə Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1977-ci ildən Naxçıvan Televiziyasında rejissor köməkçisi, kinooperator assistenti, kinooperator və teleoperator vəzifələrində çalışıb. Əhəmiyyətli dövlət tədbirlərinin aparıcı kinooperatoru olub. Bir neçə "Yeni il" və "Novruz" irihəcmli bayram verilişlərinin çəkilişlərinə quruluş verib. "Göy göl", "Nizami", "Arpa çayı daşa bilməz", "Günəşin vətəni", " Bu, Lətif Hüseynzadədir" televiziya filmlərinin, "Göydən düşən mələk", "Ağ ölümün ölümü", "Yasda toy əhvalatı" filmtamaşalarının quruluşçu operatoru olub. Bir çox fəxri fərman və diplomlarla və 2005-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. 2020-ci ildə səhhəti ilə bağlı təqaüdə çıxmağına baxmayaraq bu gün də doğma kollektivdə teleoperator vəzifəsində çalışır.

Kəmalə Niyaz qızı Həsənova 1973-cü ildə Naxçıvan şəhərində anadan olub. 1990-cı ildə televiziyada səs operatoru vəzifəsində işə başlayıb. Gündəlik iş prosesində Kəmalə ilə tez-tez rastlaşan və böyük məhəbbət hissi ilə salamlaşan kinooperator Nurəddin Əliyev ona evlilik təklif edib. Onlar tez bir zamanda ailə qurublar. Kəmalə Həsənovanın bir sıra verilişlərin musiqi tərtibatında xüsusi rolu olub. Bəzən də səs rejissorunu əvəz edib. 1998-2020-ci illərdə televiziyanın filmoteka müdiri vəzifəsində çalışıb. Filmotekaya daxil olan çəkiliş videokasetlərinin qeydiyyatını dəqiqliklə aparıb. Efirə gedəcək gündəlik verilişlərin arxiv materiallarını vaxtlı-vaxtında redaksiyalara təqdim edib. 2020-ci ildə televiziyadan ayrılıb.

✵ ✵ ✵

Cəfərov Əli Əzim oğlu 1930-cu ildə Naxçıvan şəhərində anadan olub. 1967-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsini bitirib. 1978-1999-cu illərdə Naxçıvan Teleradiosunda çalışıb. Bu illər keçidində Naxçıvan MR-nın bütün ictimai-siyasi, elmi-mədəni həyatını jurnalist qələmi ilə Naxçıvan və Azərbaycan teleradiosunda, müxtəlif mətbuat səhifələrində təqdim edib. "Yanar ocaqlar" publistik proqramı onun televizyada hazırladığı silsilə verlişlərdən ən uğurlusu və yaddaqalanı olub. 1969-cu ildə SSRİ Jurnalistlər İttifaqına üzv seçilib. 1982-1986-cı illərdə Azərbaycan Televiziyasının Naxçıvan üzrə xüsusi müxbiri vəzifəsində çalışıb. 1991-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2015-ci ildə dünyasını dəyişib. Ruhu şad olsun. Nəvəsi Cəfərov Əzim Elşən oğlu bu gün Naxçıvan Teleradiosunun "Günaydın" səhər proqramının jurnalist-aparıcısı kimi çalışaraq babası - tanınmış fəxri jurnalist Əli Cəfərovun əsl ziyalı mövqeyini layiqincə davam etdirməyə çalışır.

Cəfərli Əzim Elşən oğlu 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. 2024-cü ildə Odlar Yurdu Universitetini bitirib. Hazırda Bakı Mühəndislik Universitetində "İnformasiya Texnologiyaları" ixtisası üzrə təhsil alır. 2014- cü ildən etibarən televiziya aparıcı vəzifəsində çalışır. İşlədiyi illər ərzində səmərəli fəaliyyətinə görə bir çox dipolm və mükafatlara layiq görülüb.

Şəmil Murtuz oğlu Mustafayev 1929-cu ildə Ordubadda anadan olub. 1951-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini "Tərtibatçı rəssam" ixtisası üzrə bitirib. 1970-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü, 1970-1976-cı illərdə Naxçıvan Rəssamlar Təşkilatının sədri olub. 1969-cu ildə "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi", 2002-ci ildə "Azərbaycanın Respublikasının Əməkdar rəssamı" fəxri adlarına layiq görülüb. 1980-1995-ci illərdə Naxçıvan Televiziyasının tərtibatçı, sonralar quruluşçu rəssamı vəzifələrində çalışıb. Naxçıvan Teatrında "Od gəlini", "Hacı Qara", "Torpaq təslim olur" tamaşalarına quruluş verib. Daim yaradıcılıq axtarışlarında olan qocaman rəssamın yaradıcılıq yolu vaxtaşırı Naxçıvan Televiziyası ilə işıqlandırılıb. Onun haqqında 2002-ci ildə rejissor F.Zamanbəyovun çəkdiyi "Avtoportret" sənədli televiziya filmi bu gün də televiziyanın filmotekasında qorunub saxlanılır. Tanınmış rəssam Şəmil Mustafayev 2010-cu ildə vəfat edib. Ruhu şad olsun!

Rövşən Şəmil oğlu Mustafayev 1959-cu ildə Ordubad şəhərində anadan olub. Atası Şəmilin yolunu davam etdirərək 1971-ci ildə Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbini bitirib. Təyinatla Naxçıvana qayıdaraq müxtəlif təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olub. 1979-1984-cü illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda "Ümumi texniki fənlər" ixtisası üzrə təhsil alıb. 1994-cü ildən Naxçıvan Televiziyasında vaxtilə atası Şəmil Mustafayevin çalışdığı quruluşçu rəssam vəzifəsini 2005-ci ilə kimi layiqincə icra edib. 2006-cı ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçərək rəssamlıq fəaliyyətini davam etdirib. 2016-cı ildə vəfat edib. Ruhu şad olsun!

❋ ❋ ❋

Hacı Müseyib oğlu Rəsulov 1936-cı ildə Şərur (indiki Kəngərli) rayonunun Şahtaxtı kəndində anadan olub. 1957-63-cü illərdə Azərbaycan Dövlət Universitetində "Jurnalist" ixtisası üzrə təhsil alıb. 1965-ci ildə "Şərq qapısı" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsinə qəbul olunub. 20 ildən artıq müddətdə "Şərq qapısı" qəzetində qüsursuz və səmərəli fəaliyyətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunub. 80-ci illərdə jurnalist fəaliyyətini Naxçıvan Radiosunda davam etdirib. Daha çox ictimai-siyasi mövzulara toxunan Hacı Rəsulovun səsi tez-tez efir dalğalarından eşidilib. Ömrünün 70-ci ilində, 2006-cı ildə dünyadan köçüb. Ruhu şad olsun!

Dürüstlüyü, peşəsinə olan sevgi və hörməti ilə tanınan Rəsulov imzasını bu gün qızı Ruhiyyə Rəsulova davam etdirir.

Ruhiyyə Hacı qızı Rəsulova 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin "Azəbaycan dili və ədəbiyyatı" ixtisasını bitirib. 2005-ci ildən "Şərq qapısı" qəzeti və Naxçıvan Teleradiosu ilə əməkdaşlıq edib. 2010-2024-cü illərdə televiziyanın "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasında redaktor və baş redaktor vəzifələrində çalışıb."Ordubadın qədim məhəllələri", "Zəngəzurluların izi ilə", "Dağlar, sizdə nəyim qaldı", "Tarixin işığında Şahbuz", "Nisgil", "Biz qayıdacağıq" və bu kimi onlarla telefilmlərin, yaddaqalan verilişlərin müəllifidir. Ruhiyyə Rəsulova 2018-ci ildə "Tərəqqi" medalı, "Naxçıvan Respublikasına xidmətlərə görə" nişanı və 2025-ci ildə "Azərbaycan milli mətbuatının 150 illiyi" medalı ilə təltif edilib. 2025-ci ilin yanvar ayında "Şərq qapısı" qəzetinin məsul katibi vəzifəsinə təyin olunub.

* * *

Mətanət Telman qızı Quliyeva 1965-ci ildə Naxçıvan şəhərində anadan olub. 1984-cü ildə Naxçıvan Politexnik Texnikumunu bitirib. 1988-2009-cu illərdə Naxçıvan Radiosunda səsyazma operatoru və səs rejissoru vəzifələrində çalışıb. 2009-cu ildə vəfat edib. Ruhu şad olsun!

Bacısı **Arzu Telman qızı isə Quliyeva** 1962-ci ildə Naxçıvan şəhərində anadan olub. 2000-ci ildən radioda səsyazma operatoru və səs rejissoru vəzifələrində işləyib. Hazırda səsyazma studiyasında səs və montaj operatoru vəzifəsində çalışır.

Nailə Adəm qızı Qardaşbəyova 1961-ci ildə Naxçıvan şəhərində anadan olub. 1983-cü ildə indiki Azərbaycan Dövlət Texniki Universitetini "Yarımkeçiricilər və dielektriklər" ixtisası üzrə bitirib. 1989-cu ildə Naxçıvan Televiziyasında rejissor assistenti vəzifəsində çalışıb. 1992-ci



ildə Naxçıvan Teleradiosunun Texniki Mərkəzində videomühəndis kimi əmək fəaliyyətini davam etdirib. Yaddaqalan maraqlı verilişlərin, proqramların montaj prosesində yaxından iştirak edib. Elmi işi ilə əlaqədar 2005-ci ildə teleradiodan ayrılıb. Fizika-riyaziyyat elmləri namizədi Nailə Qardaşbəyova hazırda Naxçıvan Dövlət Universitetinin fizika kafedrasının dosentidir.

Adilə Adəm qızı Qardaşbəyova 1969-cu ildə Naxçıvan şəhərində anadan olub. 1986-1991-ci illərdə Azərbaycan Dövlət Texniki Universitetində "Radiorabitə və radio verilişləri mühəndisi" ixtisası üzrə ali təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla 1991-ci ildən öz ixtisası üzrə Naxçıvan Teleradiosunda 27 il səs rejissoru vəzifəsində çalışıb. Hazırda Naxçıvan Dövlət Universitetində pedaqoji və elmi fəaliyyətlə məşğuldur.

Həcər Ədalət qızı Səmədova 1994-cü ildə Naxçıvan şəhərində anadan olub. 2011-ci ildə Naxçıvan Dövlət Universitetinin "Filologiya" fakültəsinə daxil olub. Tələbəlik illərindən etibarən Naxçıvan Radiosu ilə kənar müəllif kimi əməkdaşlıq edən Həcər anasının və xalasının yolunu gedərək taleyini Naxçıvan Teleradiosuna bağlayıb. 2014-cü ildə Naxçıvan Televiziyasında redakator kimi peşəkar fəaliyyətə başlayıb. Fəaliyyəti dövründə "Mən gəncliyin səsiyəm", "Media+", "Maddə X" verilişlərinin müəllifi və həyat yoldaşı və həmkarı Emil Səmədovla birgə "Çərpələng" lahiyəsinin aparıcısı olub. Hazırda "Təhsil və sosial məsələlər" redaksiyasının baş redaktoru vəzifəsini icra edir.

Aybəniz Bağır qızı Sadiqova 1967-ci ildə Naxçıvan şəhərində anadan olub. Qardaşı Rüstəmin məsləhəti və dəstəyi ilə 1986-1992-ci illərdə indiki Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb. 1992-ci ildən televiziyanın "Gənclik" redaksiyasında kiçik redaktor vəzifəsində çalışmağa başlayıb. "Qayğı" adlı ilk verilişi tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Bu verilişə görə televiziya rəhbərliyi tərəfindən pulla mükafatlandırılıb. Bu isə onu yeni telelayihələr hazırlamağa ruhlandırıb. Həmin redaksiyada kiçik redaktorluqdan baş redaktor vəzifəsinə qədər uzun yaradıcılıq yolu keçən Aybəniz Sadiqova günün, zamanın gənclik səsi ilə səsləşən saysız-hesabsız verilişlərə və proqramlara peşəkar jurnalist imzası atıb. "Vətənpərvərlik", "Məktəb həyatı", "Novruz çərşənbələri", "Kamillik", "Təhsil ocaqlarımız", "Könül", "Ömür qatarı" , "Din və cəmiyyət" proqram və verilişləri onun gərgin jurnalist axtarışlarının bəhrəsidir. Bu gün "Ədədi-bədii verilişlər və müəllif proqramları" redaksiyasında redaktor vəzifəsində çalışır. 2016-cı ildə "Tərəqqi" medalı ilə təltif olunub. Qardaşı Səftər də Aybənizin yolu ilə gedərək jurnalist kimi uzun müddət Naxçıvan Teleradiosunda çalışıb.

Səftər Bağır oğlu Sadiqov 1963-cü ildə Naxçıvan şəhərində anadan olub. 1980-1986-cı illərdə Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbində təhsil alıb.1991-ci ildə Naxçıvan Radiosunda musiqi redaktoru vəzifəsində çalışmağa başlayıb. 1993-cü ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. Sınaq müddətində "Tariximizi gənclərə necə öyrədirik?" adlı ilk verilişi ilə çıxış edib. Televiziyada hazırladığı müxtəlif verilişlər içərisində "Tariximiz-daş yaddaşımız" və "Durna teli" verilişləri daha çox diqqəti cəlb edib. "Hər şey ordu üçün", "Vətən, mən əsgərəm!", "Şəhidlik zirvəsi" və bir çox hərbi-vətənpərvərlik mövzusunda hazırladığı verilişlər də bu qəbildəndir. 2010-cu ildə radioda jurnalist qələmini yenidən sınayan S.Sadiqov "Azərbaycan mədəniyyəti tarixindən", "Səsin sehri", "Muğam dünyamız" proqram və silsilə verilişlərin redaktoru, aparıcısı olub. 2021-ci ildə Naxçıvan Teleradiosundan ayrılıb.

Səbuhi Sevindik oğlu Rzayev 1975-ci ildə Naxçıvan şəhərində anadan olub. Bakı Telekomunikasiya Kollecini bitirib. 2001-ci ildən Naxçıvan Radiosunun rejissorudur. Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevlə bağlı, 100-illik Naxçıvan muxtariyyatının dünənini, bu gününü, 44 günlük Vətən Müharibəsinin zəfər salnaməsini özündə əks etdirən vətənpərvər, mübariz ruhlu radiokeçidlər hər gün efir dalğalarında səslənir. Zamanın, günün nəbzini tutan bu radiokeçidlər Səbuhi Rzayevin uğurlu rejissor işlərindən olub. İşdə həmkar, ailədə Səbuhiyə ömür-gün yoldaşı olan Samirə Rzayeva da onunla birgə neçə illərdir ki, Naxçıvan Radiosunda çalışır.

Samirə Eyvaz qızı Rzayeva 1980-ci ildə Şahbuz rayonunun indiki Qızıl Qışlaq kəndində anadan olub**.** 2001-ci ildən Naxçıvan Radiosunun əməkdaşıdır. 2003-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. Əsasən ədəbi-bədii verilişlər hazırlayır. "İrs", "Sənətin ahəngi", "Kinoman" kimi canlı silsilə verlişlərinin redaktoru və aparıcısıdır.

❋ ❋ ❋

Gülşən Müslüm qızı Məhərrəmova (Həsənova) 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. 2001-ci ildə Naxçıvan Teleradiosunda vidoemontaj operatoru kimi əmək fəaliyyətinə başlayan Gülşən çoxsaylı xəbər süjetlərinin, televiziya verilişlərinin, televernisajların montaj işini peşakarlıqla həyata keçirib. İşinə olan məsuliyyəti və montajçı kimi texniki bacarıqlarından dolayı xüsusi ilə dövlət əhəmiyyətli tədbir və xəbərlərin montaj işi onun yaradıcı montajı ilə efirə təqdim olunub. 2010-cu ildə həyat yoldaşı Yaqub Həsənovla Bakı şəhərinə köçüb və hazırda orada yaşayır.

Elşən Müslüm oğlu Məhərrəmov 1980-ci ildə Babək rayonunun Qahab kəndində anadan olub. 2005-2011-ci illərdə bacısı Gülşənin məsləhəti və dəstəyi ilə televiziyada videomontaj operatoru, 2011-2021-ci illərdə televiziyanın "Xəbərlər" redaksiyasında rejissor vəzifələrində çalışıb. 2020-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. Hazırda "Naxçıvan Teleradiosu" QSC-nin "Xəbərlər" departamentində videomontaj operatoru vəzifəsini icra edir.

❋ ❋ ❋

Yaqub Xudat oğlu Həsənov 1984-cü ildə Naxçıvan şəhərində anadan olub. 2001-ci ildə Naxçıvan Dövlət Universitetində "İnformasiya sistemləri" ixtisasına yiyələnib. 2002-ci ildə Naxçıvan Teleradiosunda videomontaj operatoru kimi əmək fəaliyyətinə başlayıb. Burada çalışdığı illərdə maraqlı montaj işləri ilə kollektivin diqqətini öz üzərinə çəkməyi bacarıb. Naxçıvan Televiziyasında çalışdığı illərdə Teleradionun digər videomontaj operatoru Gülşən Məhərrəmova ilə ailə həyatı qurub. 2007-ci ilədək Naxçıvan Televiziyasındakı məhsuldarlığı və peşəkar kollektivlə birgə çalışması, sonradan Azərbaycan Televiziyası və İctimai Televiziyadakı fəaliyyətinə müsbət təsir göstərib. Azərbaycanın ruhunu ekran əsərlərinə çevirmək amalını rəhbər tutan Yaqub Həsənov montaj rejissoru kimi çoxsaylı süjet və veriliş, həmçinin 300-ə yaxın bədii-sənədli film ərsəyə gətirib. 2007-ci ildən etibarən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də fəaliyyətini davam etdirir. Fəaliyyəti dövründə bir sıra fəxri fərman, mükafat və "Təşəkkürnamə"lərə layiq görülüb.

❋ ❋ ❋



Hüseyn Rüfət oğlu Tarverdiyev 1982-ci ildə Naxçıvan şəhərində anadan olub. Hüseyn Tarverdiyev 2004-cü ildə Naxçıvan Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. 2004-2009-cu illərdə Naxçıvan Televiziyasında bir çox idman verilişlərinin aparıcısı və redaktoru olub. 2011-ci ildən "Proqram, efirə buraxılış və əlaqələndirmə" Departamentinin redaktoru vəzifəsində çalışır. Bu illərdə o, Əfsanə Ramiz qızı ilə ailə qurub. Uzun müddət bir yerdə gərgin iş şəraitində çiyin-çiyinə çalışaraq qızları Məleykə və Aysunun gələcək xoşbəxt günləri üçün xeyir-dualarla yaşıyıblar. Bəlkə də gələcəkdə bu qızlardan hansısa valideynlərinin ömür yolunu Naxçıvan Teleradiosunda davam etdirəcək?

Əfsanə Ramiz qızı Tarverdiyeva 1991-ci ildə Culfa rayonunun Göydərə kəndində anadan olub. 2017-2025-ci illərdə Naxçıvan Teleradiosunda kompüter yazı operatoru vəzifəsində çalışıb. Televiziya və radio üçün yazılan mətnlərin, ssenarilərin kompüter yazısında düzgün və qüsursuz yazılışına ciddi səy göstərib. 2025-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin "İnformasiya texnologiyaları" şöbəsində videomontaj operatoru vəzifəsini icra edir.

✵ ✵ ✵

Ramil Hidayət oğlu Əliyev 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1993-98-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakültəsində təhsil alıb. 2005-2009-cu illərdə fasilələrlə Naxçıvan Teleradiosunda müxtəlif vəzifələrdə çalışıb. Jurnalist olmaq arzusu onu sonuncu iş yeri olan televiziyanın "Xəbərlər" redaksiyasına gətirib. Tez bir zamanda jurnalist kimi müxtəlif səpkili maraqlı, dolğun xəbər süjetləri ilə həmkarlarının diqqətini cəlb edib. Teleradionun kompüter-yazı otağında süjet mətnlərini yazdırarkən komputerdə yazı operatoru Naibə Əliyeva ilə aralarında yaranan səmimi münasibət, sonradan onların ailə qurmalarına səbəb olub. Qızları Elmiranın dünyaya gəlməsi gənc ailəyə böyük sevinc gətirib. Lakin bu sevinc çox da uzun çəkməyib. Vaxtsız ölüm gənc ata Ramil Hidayət oğlu Əliyevi 2009-cu ildə özü qədər sevidiyi ailəsindən, doğmalarından, doğma kollektivdən ayırıb. Ruhu şad olsun!



Naibə Hüseyn qızı Əliyeva 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 2003-2007-ci illərdə Naxçıvan Teleradiosunda kompüterçi, 2012-2021-ci illərdə kompüter-yazı operatoru vəzifəsində çalışıb. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin "İnformasiya texnologiyaları" şöbəsində əvvəlki kompüter-yazı operatoru vəzifəsini layiqincə yerinə yetirir. Qayğıkeşliyi ilə kollektivin böyük hörmətini qazanan, səmimi, mehriban Naibə bu gün Ramilin yadigarı qızı Elmira ilə nəfəs alır, onun xoş gələcəyi üçün sədaqətli ana kimi bütün çətinliklərə dözüb, Ramilin arzularının həyata keçməsinə çalışır. Arzularınız həyata keçsin!

Lalə Abbas qızı Sadiqova (Allahverdiyeva) 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. 2005-ci ildə Naxçıvan Dövlət Universitetini "Jurnalist" ixtisası üzrə bitirib. 2005-2011-ci illərdə televiziyanın "Təhsil, gənclər və idman" redaksiyasında redaktor, 2011-2014-cü illərdə televiziyanın və radionun "Ədəbi-bədii və publisistik verilişlər" redaksiyasında, 2021-ci ildən isə "Naxçıvan Teleradiosu" QSC-nin "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasında redaktor vəzifələrində çalışıb. "Vətən ürəyimin sözüdür", "Sözün ilməsi, rəngin cilvəsi", "Vətənpərvərlik və milli qürur", "Ədəbi irsimizdən", "Misraların işığında", "İrs" kimi müxtəlif mövzulu silsilə verilişlərin müəllifidir. Hərdən verilişlərində 7 rəngin möcüzəsindən söz açan Lalə tez bir zamanda öz həyatında telehəmkarı, rəssam Həbib Allahverdiyevin yaratdığı rəsm əsərlərində 7 rəngdən birinin möcüzəsinə rast gəldi. Həbiblə ailə qurdu. Necə deyərlər, sözün ilməsi, rəngin cilvəsi.

Həbib Rəşad oğlu Allahverdiyev 1985-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin "Təsviri incəsənət" ixtisası üzrə bakalavr və magistraturasında təhsil alıb. 2009-cu ildə Naxçıvan Televiziyasını "İncəsənət və musiqi verilişləri" redaksiyasında redaktor vəzifəsində çalışmağa başlayıb. "Rəsmlərdə yaşayan ömür", "Heykəltaraş ömrü", "Rəsmin sirlərini öyrənirik", "Rənglərin möcüzəsi", "Xalq rəssamları" kimi proqram və verilişlərlə yanaşı, dünyanın korifey rəssamlarının yaradıcılığından bəhs edən çoxsaylı silsilə verilişlərin də müəllifi olub. 2011-ci ildə Naxçıvan Rəssamlar Birliyinə, 2012-ci ildə isə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunub. 2016-cı ildə gənc rəssamlar nominasiyası üzrə, 2024-cü ildə isə Naxçıvan MR Mədəniyyət Nazirliyi tərəfindən Prezident mükafatına layiq görülüb. 2020-ci ildə Naxçıvan Teleradiosundan ayrılıb. Hazırda Naxçıvan Müəllimlər İnstitutunda öz ixtisası üzrə müəllim kimi fəaliyyət göstərir.

* * *

Əhməd Qüdrət oğlu Əhmədov 1986-cı ildə Naxçıvan şəhərində anadan olub. Əhməd Əhmədov 2010-cu ildə Azərbaycan Maliyyə İqtisad Kollecinin Gömrükxana işi fakültəsini bitirib. 2018-ci ildə isə Naxçıvan Dövlət Universitetinin "Bədən tərbiyəsi və idman" ixtisasını bitirib. 2010-cu ildə televiziyada videomontaj operatoru vəzifəsində çalışmağa başlayıb. Efir və studiya rejissoru olmaqla yaradıcılıq sınaqlarından uğurla çıxan Ə.Əhmədov özünəməxsus səs tonu ilə diqqət çəkib. 2011-ci ildə "Ədəbi-bədii və publisistik verilişlər" redaksiyasında redaktor vəzifəsinə yüksəlib. "Günün aydın, ulu yurdum!" səhər proqramında bir neçə il aparıcı olub. Bu illərdə saysız-hesabsız yaddaqalan ədəbi-bədii, elmi-publisistik mövzulu verilişlərə özünəməxsus jurnalist dəsti-xətti ilə yanaşıb. Çoxsaylı sənədli televiziya filmlərinin səsləndirilməsində yaxından iştirak edib. Onun ssenari müəllifi olduğu "Əbədiyyət", "Qeyrətdən doğan zəfər", "Bahar yağışı", "Salim ozan", "Səhlab" televiziya filmləri də tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Ulu öndər Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusuna həsr olunan "Əbədiyyət" sənədli filmi muxtar respublika jurnalistləri arasında keçirilən müsabiqədə 2-ci yeri tutaraq xüsusi diplom və pulla mükafatlandırılıb. "Qeyrətdən doğan zəfər", "Salim ozan" filmləri də onun peşəkar jurnalist qələmindən çıxan əsl sənət nümunələridir. O, "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasının baş redaktoru olub. Hazırda "Səhər verilişləri" redaksiyasının baş redaktorudur. Mütəmadi olaraq mətbuatda ictimai-publisistik məqalələrlə çıxış edib. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Yaradıcılığında qazandığı uğurlar şəxsi həyatında da özünü göstərib. Gənc jurnalist Songül Vəliyeva ilə ailə həyatı qurub. Bu gün Naxçıvan Teleradiosunun böyük yaradıcı ailəsinə daxil olan Əhmədlə Songülün xoşbəxt ailə cütlüyü yeni qurulacaq gənc ailələr üçün bir nümunədir.

Songül Qadir qızı Vəliyeva (Əhmədova) 2000-ci ildə Şahbuz rayonunun Kükü kəndində anadan olub. 2017-ci ildə Naxçıvan Dövlət Universitetində jurnalist ixtisası üzrə ali təhsil alıb. 2018-ci ildən Naxçıvan Televiziyası ilə əməkdaşlıq edən Songül Əhmədova bu gün "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasında redaktor vəzifəsində çalışır. Həyat yoldaşı, həmkarı Əhməd Əhmədovun məsləhət və tövsiyələri ilə "Sazın, sözün sehrində", "Çağlayan xatirələr", "Mizrab", "Ləzzətin izi ilə" verilişlərinin müəllifi və aparıcısı, rejissoru və müəllifi Faiq Abbasoğlu olan "Sənət yolu və sənətkar taleyi"

verilişinin aparıcısı olub. İsmayıllıda, Lənkəranda və muxtar respublikanın bir sıra kəndlərində hazırlanan "Ləzzətin izi ilə" verilişi geniş tamaşaçı auditoriyasının diqqətini cəlb edib. Jurnalist fəaliyyəti dövründə mütəmadi olaraq Azərbaycanın klassik və gökəmli şairlərinin, yazıçılarının, "Dünya ədəbi inciləri" silsiləsindən dünyanın korifey söz adamlarının həyat və yaradıcılığına həsr olunan verilişləri ərsəyə gətirib. Böyük söz ustadı Məhəmməd Füzulinin 530 illiyi münasibətilə "Füzuli-530" adlı silsilə verilişlər hazırlamaqla jurnalist araşdırmaları ilə diqqəti cəlb edib. O, 2022-ci ildə "Fəal jurnalist" nominasiyası üzrə diplomla mükafatlandırılıb. 2025-ci ildə xalq şairi Bəxtiyar Vahabzadənin 100 illiyinə həsr olunmuş sənədli televiziya filmi tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

* * *

Razim Rafiq oğlu İsmayıllı 1988-ci ildə Naxçıvan şəhərində anadan olub. 2012-ci ildə videomontaj operatoru vəzifəsinə işə qəbul olunub. 2023-cü ilə qədər operator, baş operator və rejissor vəzifələrində çalışıb. Müxtəlif səpkili verilişlərə, bir neçə televiziya filminə operator-rejissor dəsti-xətti ilə imza atıb. 2023-ci ildə efirə təqdim olunan "Heydər Əliyev 100: Ömrün Naxçıvan aşırımları" sənədli televiziya filminin quruluşçu operatorlarından biri olub. "Sədərəkdən Şuşaya" sənədli televiziya filminin 18 yanvar 2025-ci ildə Bakıda "Park Bulvar" kinoteatrında keçirilən təqdimat mərasimində ən yaxşı rejissor işinə görə xüsusi Fəxri fərmana layiq görülüb. Hərtərəfli yaradıcılıq imkanlarına malik olan Razim İsmayıllı 2023-cü ildə doğma kanaldan ayrılsa da, bu gün sevdiyi peşəsini özəl sahədə uğurla davam etdirir. Naxçıvan Tteleradiosunun işgüzar, mehriban kollektivi içərisində seçib sevdiyi gənc jurnalist Aysun Məmmədli ilə qurduğu ailənin xoşbəxtliyi yeni mənzilin soyuq divarlarına hərarət gətirib. Dövlət tərəfindən hədiyyə edilən mənzildə bu gün iki övlad böyüdən Razimlə Aysunun ailə xoşbəxtliyinə sənətdə qazandıqları yeni uğurların sevinci də qatılır.



Aysun Əsgər qızı Məmmədli 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. 2009-2013-cü illərdə Naxçıvan Dövlət Universitetində "Memarlıq və mühəndislik" ixtisası üzrə ali təhsil alıb. Təhsil aldığı illərdə televiziya ilə əməkdaşlıq edərək 2012-ci ildən "Təhsil və sosial məsələlər" redaksiyasında jurnalist fəaliyyətinə başlayıb. 2024-cü ildə "İncəsənət və musiqi verilişləri" və "Səhər verilişləri" redaksiyalarının baş redaktoru olub. "Qadın nə istəyir?", "Qalereya" kimi silsilə verlişlərin müəllifi olub. Hazırda "NTV Səhər" proqramının aparıcılarından biridir.

Firuzə Əziz qızı Əliyeva 1996-cı ildə Naxçıvan şəhərində anadan olub. 2017-ci ildə Azərbaycan Dillər Universitetində "İngilis dili" ixtisası üzrə ali təhsilini bitirərək Naxçıvan Televiziyasının "Sənədli filmlər və dublyaj" redaksiyasında redaktor vəzifəsində çalışmağa başlayıb. Sənədli filmlərin ingilis dilindən tərcüməsində və səsləndirilməsində yaxından iştirak edib. 2018-ci ildən ingilis dilində efirə yayımlanan "Nakhchivan news" ("Naxçıvan xəbərləri") proqramının redaktoru və aparıcısıdır. Naxçıvan Teleradiosunun böyük yaradıcı ailəsinə Firuzə ilə Gülməmmədin qurduqları yeni ailənin xoşbəxtliyi də qatıldı. Bugünkü jurnalist uğurları onların ailə xoşbəxtliyinə ikiqat sevinc bəxş edir.

Gülməmməd Rasim oğlu Əliyev 1994-cü ildə Babək rayonunun Nəzərabad kəndində anadan olub. 2011-2015-ci illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində ali təhsil alıb. 2018-2022-ci illərdə Naxçıvan Teleradiosunda redaktor vəzifəsində çalışıb. 2022-2023-cü illərdə "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru vəzifəsini icra edib. 2023-cü ildən televiziyanın "Uşaq, gənclər və idman" verilişləri redaksiyasının baş redaktorudur. Dünyasını dəyişmiş, unudulmuş Azərbaycan və Naxçıvan idmançıları haqqında müəllifi olduğu televiziya filmləri və hazırladığı maraqlı verilişləri idman həvəskarları tərəfindən rəğbətlə qarşılanıb. Bu baxımdan onun dünya futbol taixində beynəlxalq dərəcəli futbol hakimi kimi tanınan Tofiq Bəhramov haqqında hazırladığı film daha çox diqqətəlayiqdir.

* * *

İlham Eldar oğlu Vəliyev 1996-cı ildə Şərur rayonunun Dizə kəndində anadan olub. 2013–2017-ci illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində jurnalist ixtisası üzrə təhsil alıb. 2019-cu ildə Naxçıvan Televiziyasında redaktor vəzifəsinə işə qəbul olunub. Müxtəlif illərdə "İctimai-siyasi məsələlər" redaksiyasında redaktor, həmçinin "Sayt və sosial şəbəkələrdə iş" redaksiyasının baş redaktoru vəzifələrində çalışıb. Hazırda "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Naxçıvan MR üzrə xüsusi müxbiri və "Naxçıvan Televiziya və Radio Verilişləri" QSC-nin "İctimai-siyasi məsələlər" redaksiyasında redaktor vəzifəsində fəaliyyət göstərir. Gənc jurnalist Nuray Faiq qızı ilə qurduğu ailə isə onun jurnalst fəaliyyətində və şəxsi həyatında yeni uğurlar qazanmasına ilham verdi.

Nuray Faiq qızı Vəliyeva 2000-ci ildə Naxçıvan şəhərində anadan olub. 2017-2021-ci illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində jurnalist ixtisası üzrə təhsil alıb. 2019-cu ildən Naxçıvan Televiziyasında redaktor vəzifəsində işə başlayıb. Müxtəlif illərdə "Günaydın" proqramında aparıcı kimi çıxış edib. Hazırda isə uşaq verilişlərinin aparıcısıdır. İlhamla qurduğu ailənin bugünkü xoşbəxtliyi, sevinci onu jurnalist fəaliiyətində yorulmadan çalışmağa ruhlandırır.

NAXÇIVAN TELERADİOSUNUN JURNALİST- REDAKTOR HEYƏTİ

"Yaradıcılıq hər şeydən əvvəl zəhmətdir. Dərin, maraqlı müşahidələr, yuxusuz gecələr, tez-tez təəssüflənmək, azca sevinmək deməkdir. Sonra yenə gərgin, əzablı axtarışlardır əsl yaradıcılıq..."

Həsən SEYİDBƏYLİ
Xalq artisti, kinorejissor

Radio və televiziyanın inkişafı jurnalist əməyinin təsdiqi ilə də qırılmaz surətdə bağlıdır. Bu gün telejurnalistika sahəsində çalışanlar yadda saxlamalıdırlar ki, "Televiziya milli-mənəvi dəyərlərin keşiyində dayanaraq xalqa sədaqətlə xidmət göstərməli, onun görmək istədiyi dəyərləri təbliğ etməli, təkcə mahiyyəti ilə deyil, məzmunu ilə də milli xarakter daşıdığını xalqa çatdırmalıdır. Milli televiziya ekranlarına gətirilən proqramlar peşəkar jiurnalistlər tərəfindən hazırlanmalıdır. Çünki televiziya cəmiyyətin maariflənməsində, gənc nəslin vətənpərvər və sağlam ruhda böyüməsində, milli və dövlət maraqlarımızın qorunmasında müstəsna rol oynayır. Minlərlə jurnalistin yetişməsi üçün həqiqətən də "məktəb" funksiyasını yerinə yetirməli olan televiziya operativliyi və obyektivliyi, qərəzsizliyi əsas tutmalıdır". Bu sözləri bütünlüklə Naxçıvan Teleradiosuna aid etmək olar. Bunu da xüsusi vurğulamaq istərdik ki, son illərdə Naxçıvan Televiziyası və Radiosunun qazandığı uğurlar bir tərəfdən göstərilən dövlət qayğısı ilə bağlıdırsa, digər tərəfdən möhkəm təmələ söykənmə, qarşıya qoyulan vəzifəyə məsuliyyət hissidir.

Yarandığı vaxtdan bu günə kimi taleyini Naxçıvan Teleradiosuna bağlayan insanlar arasında qələm sahibləri-jurnalistlər də var. Onların qələmindən çıxan müxtəlif mövzulu maraqlı radio və televiziya verilişləri, ssenarilər lent yazılarının, videokasetlərin yaddaşında bu gün də yaşayır. Bu müqəddəs peşə sahibləri həmişə xatırlanıb və xatırlanacaqlar. Dünyasını dəyişənlərə Allahdan rəhmət diləyib, təqaüddə olanlara, teleradioda ömür sürüb yaşa dolanlara isə can sağlığı arzulayırıq!



Zeynal Vəfa ədəbi kimliyi ilə tanınan şair-publisist Zeynalabdin İsmayıl oğlu Zeynalov 1938-ci ildə Naxçıvan şəhərində anadan olub. 1962-ci ildə indiki Bakı Dövlət Universitetinin "Filologiya" fakültəsini bitirib. 1963-1968-ci illərdə Naxçıvan Teleradiosunda redaktor və böyük redaktor vəzifələrində çalışıb. 1969-1980-cı illərdə Azərbaycan Televiziyasında redaktor kimi əmək fəaliyyətini davam etdirib. 1993-cü ilin sonlarından "Azərbaycan" qəzetində baş redaktorun birinci müavini vəzifəsində çalışıb. "Çinarım mənim", "Qəlbimin səsi", "Körpələrin xətrinə", "Ömrün beşinci fəsli" şeir və poema toplularının müəllifidir. Xalq artisti Azər Zeynalovun atasıdır. 2024-cü ildə vəfat edib. Ruhu şad olsun!

* * *

İsrafil Əli oğlu Mədətov 1937-ci ildə Şərur (indiki Kəngərli) rayonunun Qarabağlar kəndində dünyaya göz açıb. 1965-cu ildə indiki Bakı Dövlət Universitetinin "Jurnalistika" fakültəsini qiyabi bitirib. 1960-1963-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatında, "Şərq qapısı" qəzetində ədəbi işçi işləyib. 1963-ci ildən Naxçıvan Teleradiosunda əmək fəaliyyətinə başlayıb. 1966-1975-ci illərdə "Uşaq və gənclər" redaksiyasında böyük redaktor vəzifəsində çalışan İsrafil Mədətov tez bir zamanda teleradionun "Proqram və buraxılış" şöbəsinin müdiri, sonradan "Proqram və buraxlış" redaksiyasnda böyük redaktor vəzifələrinə təyin olunub. 1980-ci illərdə televiziyanın "İqtisadiyyat

Soldan kinooperator Yavər Əliyev, professor Səfəralı Babayev, redaktorlar İsrafil Mədətov və Samur Nağıyev.

və kənd təsərrüfatı" verilişləri şöbəsinə rəhbərlik edib. İsrafil Mədətov bu illər ərzində kollektiv arasında böyük hörmət qazanıb. Böyüklə böyük, kiçiklə kiçik kimi davranıb. Hamının problemləri ilə maraqlanıb, əlindən gələn köməyi onlardan əsirgəməyib. Kollektiv arasında "Dayı" kimi tanınan İsrafil Mədətov səmərəli fəaliyyətinə görə Komitə Həmkarlar Təşkilatının sədri vəzifəsinə irəli sürülüb. Dəfələrlə Azərbaycan Televiziyasının, Həmkarlar İttifaqının fəxri fərmanlarına layiq görülüb. 1989-cu ildə SSRİ və Azərbaycan Jurnalistlər İttifaqına üzv seçilib. Həmin ildə də "Muxtar Respublikada xalq təsərrüfatının inkişafında xidmətlərinə görə" Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanı, "Əmək veteranı" medalı ilə təltif olunub. "Naxçıvan MSSR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. İsrafil Əli oğlu Mədətov 2006-ci ilin oktyabr ayında Bakı şəhərində vəfat edib. Ruhu şad olsun!

❋ ❋ ❋

Yorulmaz Cabbar oğlu Qoçəliyev 1939-cu ildə Naxçıvan şəhərində anadan olub. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu qiyabi yolla bitirib. 1963-cü ildə Naxçıvan Televiziyasında fotoqraf kimi əmək fəaliyyətinə başlayıb. 1964-2002-ci illərdə kinooperator assistenti və teleoperator, "Xəbərlər" redaksiyasında redaktor, "Proqram buraxılış" direksiyasında baş redaktor vəzifələrində çalışıb. 1979-cu ildə SSRİ Jurnalistər İttifaqına, daha sonra Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunub. 1989-cu ildə "Əmək veteranı" medalı ilə təltif edilib. 2002-ci ildə təqaüdə çıxıb.



❋ ❋ ❋

Akif Səttar oğlu Axundov 1943-cü ildə Şərur rayonunun Qışlaqabbas kəndində anadan olub. 1972-ci ildə indiki Bakı Dövlət Universitetini, 1980-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında İdarəetmə Akademiyasını bitirib. 1967-ci ilin fevralında Naxçıvan Teleradiosuna kiçik redaktor vəzifəsinə işə qəbul olunub. Redaktor, şöbə müdiri vəzifələrində işləyib. 1980-1986-cı illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti və Laçın, Şəki-Zaqatala zonaları üzrə "Kommunist" qəzetinin xüsusi müxbir vəzifəsində çalışıb. 1986-1992-ci illərdə "Sovet Naxçıvanı", "Şərq qapısı" qəzetlərinin baş redaktoru, Naxçıvan MR "Mədəniyyət Fondu"nun sədri olub.Yenidən Naxçıvan Teleradiosuna qayıdan A. Axundov 1993-2009-cu illərdə baş redaktor və şöbə müdiri vəzifələrini icra edib. Radioda və televiziyada, mətbuatda çalışdığı illərdə yüzlərlə ən mühüm məsələləri əhatə edən verilişləri efirə hazırlanıb, məqalələri dərc olunub. 1988-1993-cü illərdə videolentə alınan "Həsrətin son axşamı", "Hökm" teleradio tamaşalarının və 1996-ildə çəkilən "Əshabi-Kəhf", "Şərur toyları" teleleviziya filmlərinin ssenari müəllifi olub. İlk hekayələr toplusu 1986-cı ildə nəşr olunub. Müxtəlif illərdə "Ömrün üç anı", "Çətin günün dostu", "Sənsiz də səninləyəm", "Qisas", "Gecə ovçuları" hekayə və povestləri, dedektiv janrda yazılan "Ehtiras və cinayət", "Cəhənnəmdən qovulmuş", "Sarı damğa", Keçmişin izləri" və 20 dən çox kitabı üşıq üzü görüb. Təqaüddə olan qocaman yazıçı-dramatuq və jurnalist bu gün də yeni yaradıcılıq axtarşlarındadır.

❋ ❋ ❋

Nurəddin Məmmədəli oğlu Babayev 1939-cu ildə Naxçıvan şəhərində doğulub. 1962-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun "Alman və Azərbaycan dili" müəllimi ixtisasını bitirib. 1967-70-ci illərdə pedaqoji fəaliyyətlə məşğul olub. 1970-ci ildə radio üzrə böyük redaktor vəzifəsinə dəvət olunub. 1997-2011-ci illərdə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. Muxtar respublikanın 2013-cü ilə qədər olan ictimai-siyasi həyatının bütün sahələrini əhatə edən saysız-hesabsız publisist qeydləri, aktual söhbətləri, saysız-hesabsız verilişləri bu gün də televiziyanın filmotekasında saxlanılan videolentlərdə öz əksini tapıb. Publisist yazıları ilə müntəzəm olaraq dövri mətbuatda çıxış edib. "Araz" ədəbi almanaxında bir çox

müxtəlif mövzulu hekayələri işıq üzü görüb. 2005-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. 2013-cü ildə təqaüdə çıxıb. Prezident təqaüdçüsü Nurəddin Məmmədəli oğlu Babayev 2014-cü ilin 31 dekabrında dünyasını dəyişib. Ruhu şad olsun!

✵ ✵ ✵

Adil Möhsün oğlu Qasımlı 1938-ci ildə Naxçıvan şəhərində anadan olub. 1962-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirərək müəllim işləyib. 1971-1992-ci illərdə Naxçıvan Teleradiosunda "Ədəbi-bədii verilişlər" redaksiyasında böyük redaktor və baş redaktor vəzifələrində çalışıb. Saysız-hesabsız ədəbi-bədii verilişlərin müəllifi və aparıcısı, 1984-cü ildə "Sehirli kürsü", 1988-ci ildə "Həsrətin son axşamı" televiziya tamaşalarının redaktoru, 1986-cı ildə ilk rəngli televiziya filmlərindən biri olan "Müqəddəs nemət"in ssenari müəllifi, 1989-1990-cı illərdə tamaşaçı rəğbətini qazanan "Karvan" ədəbi-bədii, publisistik proqramın ideya müəlifi və aparıcısı, irihəcmli " Yeni il" və "Novruz " bayram verilişlərinin redaktoru olub. A.Qasımlı Azərbaycan Televiziyası ilə daim əməkdaşlıq edib. Onun o dövrdə populyar olan "Dalğa" proqramında Naxçıvanın tarixi abidələri, təbii sərvətləri ilə bağlı maraqlı kinosüjetləri təqdim olunub. "Pıçıltılar", "Biz görüşəndə", "Dağlar, qalalar, babalar", "Qaranquş ömrü" adlı bir çox şeir və poema kitabları nəşr olunub. "Aylı gecənin qaranlığında" pyesi isə 1985-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub. "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adını daşıyır. Təqaüdçüdür.

✵ ✵ ✵

Bayram Məmməd oğlu İsgəndərli 1943-cü ildə Naxçıvan şəhərində anadan olub. 1970-75-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. 1971-2007-ci illərdə Naxçıvan Teleradiosunda çalışıb. 1984-cü ildə televiziyanın "Ədəbi-dram və musiqi verilişləri" redaksiyasının redaktoru, 2003-cü ildə isə radionun "Ədəbi-bədii verilişlər" redaksiyasının baş redaktoru olub. Yazıçı-publisist Bayram İsgəndərli istər televiziyada, istərsə də radioda hazırladığı verilişlərlə daim

tamaşaçı və dinləyicilərin diqqətini cəlb edib. 1988-ci ildə ilk rəngli səyyar telekameralarla "Əcəmi seyrəngahı"nda videolentə alınan kütləvi "Şərur yallıları" film-konsertinin ssenari müəllifi Bayram İsgəndərli olub (rejissor F. Musayev, aparıcı R.Qurbanov). Bu film-konsert dəfələrlə Azərbaycan və yerli televiziya ilə uğurla nümayiş olunub. 2007-ci ildə doğma kollektivdən ayrılan yazıçı-publisist 2007-2016-cı illərdə "Lider" Televiziyasında jurnalist fəaliyyətini davam etdirib. Müxtəlif illərdə yazılmış "Bir payız günü", "Günəş həmişə olacaq", "Yeddi ilin ayrılığı", "Bu qatar hara gedir?", "Qarabağdan gələn duman", "Uşaqlar üçün pyeslər" və başqa kitabları onun yazıçı qələminin məhsuludur. Daim yaradıcılıq axtarışında olan Bayram İsgəndərli 2025-ci ilin may ayında qəflətən dünyasını dəyişib. Ruhu şad olsun!

* * *

Arif Məmməd oğlu Həbibov 1939-cu ildə Şərur (indiki Kəngərli) rayonunun Xok kəndində anadan olub. 1962-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1968-1972-ci illərdə "Şərq qapısı" qəzetində baş ədəbi işçi vəzifəsində çalışıb. 1972-ci ildən 2017-ci ilədək Naxçıvan Teleradiosunda jurnalist fəaliyyətini davam etdirib. Bu illər ərzində radionun "Xəbərlər" və televiziyanın "İctimai-siyasi verlişlər" redaksiyasında baş redaktor vəzifələrində çalışıb. A.Həbibov müxtəlif səpkili tematik verilişlərin redaktoru, 1984-cü ildə Naxçıvan MR-nın 60 illiyinə həsr olunmuş "Qüdrətli diyar" adlı ilk rəngli sənədli televiziya filminin ssenari müəllifi olub. Ömrünün 87-ci ilində Bakıda dünyasını dəyişib. Ruhi şad olsun!

* * *

Həsən Mehdi oğlu Fətullayev 1925-ci ildə Naxçıvan şəhərində anadan olub. "Elsevər" ədəbi təxəllüsü ilə tanınan şair, nasir, dramaturq 1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu (indiki Bakı Slavyan Universiteti) bitirib. 1957-72-ci illərdə pedaqoji fəaliyyət göstərib. 1972-1984-cü illərdə Naxçıvan Teleradiosunun "Uşaq-Gənclər" redaksiyasında redaktor və böyük redaktor işləyib. 1984-2000-ci illərdə M.S.Ordubadi adına Naxçıvan MR Kitabxanasının direktoru olub. "Gözəllik bulağı", "Mən əsir doğulmuşam", "Zəlzələ", "Qaçmaq igidlik deyil", "Ürək daşdan deyil" kimi hekayə və povest kitablarının müəllifidir. "Alınmaz qala", "Vüqarlı gözəl", "Koroğlu nəsli", "Təhlükəli oyun" pyesləri Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya

qoyulub. Şair-dramaturq 1995-ci ildə "Naxçıvan MR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 1941-1945-ci illər Böyük Vətən Müharibəsinin iştirakçısı olub. Birinci dərəcəli "Vətən müharibəsi" ordenli Həsən Fətullayev 2002-ci ildə vəfat edib. Ruhu şad olsun!

❋ ❋ ❋

Əşrəf Əli oğlu Hümmətov 1947-ci ildə indiki Babək rayonunun Zeynəddin kəndində dünyaya göz açıb. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1975-1995-ci illərdə Naxçıvan Televiziyasının "Uşaq-gənclər" redaksiyasında redaktor, böyük redaktor və şöbə müdiri vəzifələrndə çalışıb. Bu illərdə muxtar respublikanın ümumtəhsil və idman həyatından hazırlanan çoxsaylı verilişlərin müəllifi olub. 1995-2009-cu illərdə Azərbaycan Radiosunun təhsil, gənclik və xəbərlər redaksiyalarında müxtəlif vəzifələrdə işləyib. 2009-cu ildən həftəlik "Təhsil problemləri" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. 1979-cu ildən keçmiş SSRİ Jurnalistlər İttifaqınının və müstəqillik illərindən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Ötən günlər, ötən illər", "Təhsilimizin tərəqqisi yolunda", "Müəllimlər, məktəblər, tədbirlər", "Öyrədənlər, öyrənənlər, uğurlar" adlı kitabları nəşr olunub. Təqaüdçü Əşrəf Hümmətov bu gün ötən günlərin xoş xatirələri ilə yaşayır.

❋ ❋ ❋

Aybəniz Ağa qızı Ağayeva 1956-cı ildə Naxçıvan şəhərində anadan olub. 1992-1997-ci illərdə Naxçıvan Dövlət Universitetini "Kitabxanaçılıq və biblioqrafiya" ixtisası üzrə qiyabi bitirib. 1974-cü ildə Naxçıvan Şəhər Komsomol Komitəsində makinaçı vəzifəsində əmək fəaliyyətinə başlayan A.Ağayeva 1975-ci ilin aprel ayından Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində makinaçı vəzifəsi ilə əmək fəaliyyətini davam etdirib. 1996-cı ildən radionun "Ədəbi-bədii verilişlər" redaksiyasında redaktor vəzifəsində çalışıb. Müxtəlif səpkili maraqlı ədəbi-bədii verilişlərlə dinləyicilərin görüşünə gəlib. Onun 2006-cı ildə "Poeziyamızın İslam Səfərli zirvəsi", 2014-cü ildə "Nuh yurdunun heyranı", 2019-cu ildə əməkdar rəssam Əli Səfərlinin həyat və yaradıcılığına həsr olunmuş "Sənətkar ömrü" adlı kitabları çapdan çıxıb. A.Ağayevanın nəzmlə səhnələşdirdiyi "Qaraca qız","Tənbəl Əhməd", "Əshabi-Kəhf rəvayəti", "Daşdəmir", "Dünya tufanı" adlı nağıl pyesləri M.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşaya qoyulub. "Tənbəl Əhməd" tamaşası həm də Qax Dövlət Kukla Teatın repertuarında özünə yer tapıb. "Qaraca qız", İqdırda "Naxçıvan günləri"ndə (Türkiyədə), "Əshabi-Kəhv" tamaşası isə "Tehran 3-cü Fəcr Festivalı"nda (İranda) uğurla qarşılanıb. 2017-ci ildə təqaüdə çıxıb.

Oruc Teymur oğlu Qəhrəmanov 1932-ci ildə indiki Babək rayonunun Əliabad kəndində (Əliabad qəsəbəsi) anadan olub. 1954-cü ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. 1955-1966-cı illərdə pedaqoji fəaliyyətlə məşğul olub. 1966-1976-cı illərdə "Şərq qapısı" qəzetinin xüsusi müxbiri vəzifəsində çalışıb. 1976-1994-cü illərdə Naxçıvan Radiosunun aparıcı jurnalistlərindən biri olub. Bu illər ərzində bütün dövlət əhəmiyyətli tədbirləri radioda səsləndirib. 1964-cü ildə SSRİ Jurnalistlər İttifaqına üzv seçilib. 1985-ci ildə "Əmək veteranı" medalı ilə təltif olunub. 1994-cü ildə vəfat edib. Ruhu şad olsun!

❋ ❋ ❋

Hüseyn Həmdulla oğlu Məmmədov 1951-ci ildə indiki Babək rayonunun Çeşməbasar kəndində anadan olub. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin "Jurnalistika" fakültəsini (qiyabi şöbə) bitirib. 1968-1973-cü illərdə "Şərq qapısı" qəzetində oxucu, baş korrektor, buraxıcı və məsul katib müavini vəzifələrində çalışıb. 1976-1985-ci illərdə fasilələrlə Naxçıvan Dövlət Teleradio Verilişləri Komitəsinn "Xəbərlər"redaksiyasında redaktor vəzifəsində jurnalist fəaliyyətini davam etdirib. Naxçıvanın ictimai-siyasi, ədəbi-mədəni həyatından hazırlanan gündəlik maraqlı xəbər kinosüjetləri, reportajları ilə jurnalist həmkarlarının diqqətini cəlb edib. Gənc jurnalist Hüseyn Məmmədov müxbir məktublarının, telefonla verilən yerli və dünya xəbərlərinin qüsursuz redaktəsinə, operativ şəkildə "Xəbərlər"in vaxtından əvvəl efir buraxılışına çalışıb. Səmərəli jurnalist fəaliyyətinə görə 1972 və 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanına layiq görülüb. İllər axarında müxtəlif yerlərdə, müxtəlif vəzifələrdə işləyib.

Soldan jurnalistlər Akif Axundov, Hüseyn Məmmədov və Adil Qasımlı.

1985-1989-cu illərdə Babək rayon Partiya Komitəsində Təbliğat-təşviqat şöbəsinin müdiri, 1989-1995-ci illərdə "Əmək bayrağı" (1992-ci ildən "Şərqin səhəri) qəzetinin baş redaktoru vəzifələrində çalışıb. 1995-2006-cı illərdə Azərbaycan Dövlət Gömrük Komitəsində Mətbuat Xidmətinin rəisi və eyni zamanda "Gömrük xəbərləri" qəzetinin baş redaktoru işləyib. 2006-cı ildən 2014-cü ilədək Azərbaycan Fövqalədə Hallar Nazirliyində İctimaiyyətlə əlaqələr idarəsinin rəisi və "Fövqalədə hallar" qəzetinin baş redaktoru vəzifəsini icra edib. 2014-cü ildən polkovnik rütbəsi ilə həqiqi hərbi xidmətdən istefaya buraxılıb. Hüseyn Məmmədovun əmək fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2005-ci il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, 15 dekabr 2009-cu il tarixli Sərəncamla da "Əməkdar jurnalist" fəxri adı ilə təltif olunub. Bu illərdə dəfələrlə fəxri fərmanlara və yubiley medallarına layiq görülüb.

❋ ❋ ❋

Hüseyn Ələkbər oğlu Əsgərov 1955-ci ildə Şərur rayonunun Şəhriyar kəndində anadan olub. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin "Jurnalistika" fakültəsini bitirdikdən sonra bir il "Şərq qapısı" qəzetində, iyirmi üç il Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, böyük redaktor, "Xəbərlər", "Gənclik" redaksiyalarında baş redaktor vəzifələrində çalışıb. Bu illər ərzində saysız-hesabsız felyeton və digər publisistik yazıların, irihəcmli telelayihələrin rəhbəri, yüzlərlə ictimai-siyasi, ədəbi-bədii yönümlü telefilmlərin və verilşlərin ssenari müəllifi olub. Hüseyn Əsgərov 90-cı illərdə "Yeni il" və "Novruz" bayramları, əlamətdar hadisələr və tarixi günlər münasibətilə hazırlanan əksər verilişlərin ssenari müəllifi və aparıcısı olub, bir sıra hallarda aktyor kimi çıxış edib. Bu illər ərzində kəskin tənqidi verilişlərin, səhnəciklərin müəllifi kimi yadda qalıb. Bu gün Naxçıvan Televiziyasının arxivində belə verilişlərin bir qismi qorunmaqdadır. H.Əsgərov Naxçıvana ilk səfər reportajlarının, yol qeydlərinin müəllifidir. Onun qonşu xarici ölkələrdən hazırladığı süjetlər tamaşaçılar tərəfindən həmişə maraqla qarşılanıb. Bu illərdə digər kütləvi informasiya vastələri ilə də əməkdaşlıq edib, "Xalq qəzeti"nin Naxçıvan MR üzrə müxbiri vəzifəsində fəaliyyət göstərib. 2001-ci ildən 2011-ci ilədək Naxçıvan MR Ali Məclisində Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsində dövlət qulluğunun baş müşaviri kimi çalışıb. 2011-2022-ci illərdə isə Naxçıvan MR Səhiyyə Nazirliyi mətbuat xidmətinin rəhbəri olub. 2022-ci ilin may ayından 2025-ci iln may ayınadək "Naxçıvan Teleradiosu" QSC-də əmək fəaliyyətini davam etdirib. Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 iyul 2025-ci il tarixində imzaladığı Sərəncamla Hüseyn Əsgərov "Tərəqqi", və "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalları ilə təltif olunub. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, 2021-ci ilin Prezident mükafatçısı, Azərbaycan Yazıçılar Birliyinin on üçüncü qurultayının iştirakçısı, yeddi kitab müəllifi, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən 29 oktyabr 2024-cü ildə elan olunmuş "Fərdi jurnalist müsabiqəsi"nin ən yaxşı köşə yazısı materialı nominasiyasının qalibidir. Folklor motivləri əsasında səhnələşdirdiyi "Qorxaq Əhmədin nağılı" pyesi M.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşaya qoyulub.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Molla Nəsrəddin" ensiklopediyasında yer alıb."Heraklın 13-cü qoçaqlığı", "Aylı bir gecə", "Gülüşlərin cingildəsin saz kimi", "Naxçıvan səhiyyəsi inkişaf və tərəqqi yollarında", "Mirzə Cəlilin satira desantları Naxçıvanda", "Biz necə mütaliə edirik?", "Odla su arasında", "Həyat cəsurları sevir", "Bu da bir ömürdür" kitablarının müəllifidir. 70 yaşında olan Hüseyn Ələkbər oğlu Əsgərov 2025-ci ilin may ayından təqaüddə olsa da doğma televiziya ilə əməkdaşlığını davam etdirməkdədir.

✵ ✵ ✵

Tünzalə Əli qızı Hüseynova 1953-cü ildə Culfa şəhərində anadan olub. 1971-1977-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Jurnalistika" ixtisasına yiyələnib. 1977-1978-ci illərdə Culfa Rayon Komsomol Komitəsinin katibi işləyib. 1979-cu ildə Naxçıvan Teleradiosunda redaktor vəzifəsi ilə əmək fəaliyyətini davam etdirib. 2013-cü ilə kimi radionun "Xəbərlər", 2013-2023-cü illərdə "Sənədli filmlər və dublyaj" redaksiyasında çalışıb. Bu illər ərzində saysız-hesabsız sənədli filmi rus dilindən Azərbaycan dilinə tərcümə edib. 2018-ci ilin avqust ayından etibarən rus dilində "Novosti Naxçıvana" ("Naxçıvan xəbərləri") informasiya buraxılışını hazırlayıb. Fəaliyyət göstərdiyi illərdə Tünzalə Hüseynova dəfələrlə fəxri fərman, diplom və "Təşəkkürnamə"lərlə təltif olunub. Təqaüdçüdür.

✵ ✵ ✵

Sadiq Məhəmməd oğlu Gözəlov 1956-cı ildə Ordubad rayonunun Üstüpü kəndində anadan olub. 1978-ci ildə Azərbaycan Dövlət Universitetinin "Jurnalistika" fakültəsinə qəbul olub və 1983-cü ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirb. 1983-87-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsnidə mühaziraçi, təlimatçı və şöbə müdiri vəzifələrində çalışıb. Tez-tez yerli radio və televiziya ilə çıxışlar edib. 1987-ci ilin mart ayından 1995-ci ilədək Azərbaycan Dövlət

Televiziyasının Naxçıvan MR üzrə xüsusi müxbiri olub. Sadiq Gözəlov Azərbaycan Televiziyasının "Günün ekranı" xəbərlər proqramı üçün cəmiyyət həyatının müxtəlif sahələrindən bəhs edən yüzlərlə süjetlər, reportajlar hazırlayıb. Naxçıvan Teleradiosunun binasında yerləşən müxbir postunun kinooperatoru Ənvər Rəhimovla birgə Naxçıvan Televiziyasının "Xəbərlər" proqramı üçün də maraqlı kinosüjetlər çəkiblər. 1988-1990-cü illərdə blokada vəziyyətində yaşayan, informasiya qıtlığında boğulan Naxçıvanın acınacaqlı vəziyyəti Sadiq Gözəlovun reportajlarında anbaan Ənvər Rəhimovun kinokamerası ilə yaddaşlara köçürülüb. 1990-1995-ci illərdə Muxtar Respublika Ali Məclisinin deputatı olmaq şərəfi telejurnalist Sadiq Gözəlova da nəsib olub. Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb işlədiyi dövrdə müxtəlif görüşlərində, qəbullarında və səfərlərində iştirakı onun həyatnda silinməz izlər buraxıb. O illərdə respublika rəhbərliyinin dahi Heydər Əliyevin şəxsiyyətinə olan qısqanc münasibətinə, Azərbaycan Televiziyası rəhbərliyinin Naxçıvan MR Ali Məclisi Sədrinin muxtar respublikanın ayaqda qalması və blokadadan çıxarılması istiqamətində gördüyü böyük işlərin ölkə tamaşaçısına çatdırılmasına mane olmaq istəyinə baxmayaraq Sadiq Gözəlov çətinliklə də olsa, televiziyadakı Heydər Əliyev sevərlərin köməyi ilə hazırladığı bir çox verilişlərin və süjetlərin yayılmasına nail olub. 1995-2017-ci illərdə Azərbaycan Daxili İşlər Nazirliyində Mətbuat xidmətinin rəisi vəzifəsində çalışıb. Polis polkovniki Sadiq Gözəlov ölkə Prezidenti, cənab İlham Əliyevin fərmanı ilə "İgidliyə görə" medalına, "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. Bu illərdə bir çox yubiley medalları və fəxri fərmanlarla təltif olunub. "Qızıl qələm" və "Həsən bəy Zərdabi" media mükafatları laureatıdır. Hazırda təqaüddədir.

✵ ✵ ✵

Allahverdi Məhərrəm oğlu Məmmədli 1956-cı ildə indiki Babək rayonunun Nehrəm kəndində anadan olub. 1981-ci ildə indiki Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini fərqlənmə ilə bitirib. Tələbə ikən SSRİ Jurnalistlər İttifaqının üzvlüyünə qəbul edilib. Təyinatla Naxçıvan Teleradiosuna göndərilən A.Məmmədli 1981-1985-ci illərdə televiziyada böyük redaktor vəzifəsində çalışıb. "Şərq qapısı" qəzetinin redaktor müavini, "Xalq" qəzetinin Naxçıvan MR üzrə xüsusi müxbiri kimi fəalyyət göstərib. "Azad Azərbaycan" qəzetinin baş redaktoru, "Azad Azərbaycan" Beynəlxalq Radiosunun məsul redaktoru olub. "Azərbaycan Teleradiosu" QSC-nin "Xəbərlər" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. A.Məmmədli ali hüquq təhsili də alıb. Azərbaycan KP Naxçıvan Şəhər və Vilayət Komitəsində, Bakı Şəhər Prokurorluğunda, Azərbaycan Respublikası Ali Məhkəməsində işləyib. Allahverdi Məmmədli Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Əməkdar jurnalist" fəxri adına, "Dövlət qulluğunda

"Məhsul bayramı"nda səs yazılışı.
Reportyorla işlədiyi ilk gün.
Culfa şəhəri 20 noyabr 1981-ci il.

Naxçıvan Televiziyası.
Aparıcı Allahverdi Məmmədlidir.

fərqlənməyə görə" medalına layiq görülüb. "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) yubiley medalı ilə təltif olunub. "Qızıl qələm" media mükafatı laureatıdır. Həsən bəy Zərdabi diplomuna layiq görülüb. Bakı Dövlət Universitetinin professorudur. "Kütləvi informasiya vasitələrinin hüquqi tənzimlənməsi" fənnini tədris edir.

* * *



Telman Nəsrəddin oğlu Quliyev 1953-ci ildə Naxçıvan şəhərində anadan olub. 1979-cu ildən "Şərq qapısı" qəzetində 14 il müxtəlif vəzifələrdə çalışıb. 1980-ci ildə qiyabi yolla Azərbaycan Dövlət Universtetininn Filologiya fakültəsini bitirib. 1984-1996-cı illərdə Naxçıvan Teleradiosunda redaktor, müxbir, şöbə müdiri, baş redaktor vəzifələrində çalışıb. 1990-1993-cü illərin məlum hadisələri və Sədərək döyüşləri onun hazırladığı çoxsaylı irihəcmli aktual, tematik, publisistik verilişlərdə, reportajlarda dolğunluğu ilə öz əksini tapıb. 1990-1995-ci illərdə Naxçıvan MR Ali Məclisinin deputatı olub. 1996-2005-cü illərdə Azərbaycan Jurnalistlər Birliyində, 2005-2008-ci illərdə "İctimai Televiziya və Radio Yayımları" şirkətində departament direktoru vəzifələrində jurnalist fəaliyyətini davam etdirib. "İctimai qəzet"in və eyniadlı jurnalın baş redaktoru olub. 2008-2009-cu illərdə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası sədrinin məsləhətçisi və müşaviri vəzifələrində işləyib. 2009-2010-cu illərdə ölkə Prezidentinin Sərəncamı ilə Qax

rayonunun icra başçısı vəzifəsində işləyib. 2011-ci ildən Təbii Sərvətlər və Ekologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri vəzifəsində çalışıb. 1983-cü ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 2012-ci ildə "Tərəqqi", medalı, Azərbaycan Həmkarlar İttifaqı və Rusiya Həmkarlar Şurasının yubiley medalları ilə və bir çox fəxri fərmanlarla təltif olunub. Təqaüdçüdür.

* * *

Məhəmməd Təvəkkül oğlu Fərəcov 1958-ci ildə Şərur rayonunun Yuxarı Daşarx kəndində anadan olub. 1985-ci illərdə indiki Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1981-ci ildə ilk əmək fəaliyyətinə "Şərq qapısı" qəzetində baş korrektor və fotomüxbir kimi başlayıb. 1985-2025-ci illərdə Naxçıvan Teleradiosunda jurnalist fəaliyyətini davam etdirib. Jurnalistika sahəsində çalışdığı 45 il ərzində radio və televiziyada silsilə reportajlar, süjetlər, verilişlər ərsəyə gətirib. Xüsusən də Ulu öndər Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən sisilə verilişlər hazırlayıb. Maraqlı yazıları ilə dövri mətbuatda tez-tez çıxış edib. 2005-ci ildə "Tərəqqi", 2025-ci ildə isə "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalları ilə təltif olunub. Fəxri fərman və diplomlarla mükafatlandırılıb. 2025-ci ildə təqaüdə çıxıb.

* * *

Etiqad İbrahim oğlu Seyidov 1966-cı ildə Naxçıvan şəhərində anadan olub. 1982-ci ildə Naxçıvan Musiqi Texnikumunu bitirib. 1986-2014-cü illərdə Naxçıvan Teleradiosunda musiqi redaktoru və baş redaktor vəzifələrində çalışıb. Etiqad Seyidovun bu illər ərzində musiqi redaktoru kimi hazırladığı film-konsertlərləri, musiqi tərtibatı verdiyi telefilmlər, teletamaşalarla yanaşı, özünün aparıcılığı ilə hazırladığı müəllif proqramları bu gün də Naxçıvan Teleradiosunun filmotekasında qorunub saxlanılır. E.Seyidov 1994-1995-ci illərdə Naxçıvan Dövlət Kukla Teatrının musiqi hissə müdiri kimi də fəaliyyət göstərib. Teleestetikanın ən gözəl nümunələrini ekrana gətirən gözəl tarzən, musiqiçi Etiqad Seyidov tez bir zamanda dünya musiqi xəritəsini, Azərbaycan və Naxçıvan musiqi dünyasını, mədəniyyət və incəsənət tarixini bütün incəliklərinə qədər əsl telejurnalist və aparıcı kimi Naxçıvan tamaşaçılarına tanıda bilib .Onun hazırladığı "Dünya musiqi xəzinəsidən", "Azərbaycan xalq musiqisi xəzinəsindən", ""Bəstəkarlarımızın portreti", "Yaddaşlarda yaşayanlar", "Harmoniya", "Trio", "Gün keçdi", "Formata", "Teatral" kimi silsilə proqram və verilişlər sənətsevərlər tərəfindən böyük rəğbətlə qarşılanıb. 2000-2012-ci illərdə Naxçıvan Televiziyası ilə efirə təqim olunan "Yeni il" və "Novruz" bayram verilişlərinin səs rejissoru və musiqi redaktoru da Etiqad Seyidov olub**.** 2014-cü ildən doğma kanalından ayrılan püxtələşmiş telejurnalist və aparıcı Etiqad Seyidov bu gün vaxtilə təhsil aldığı Naxçıvan Musiqi Kollecində öz ixtisası üzrə pedaqoji fəaliyyətini davam etdirir.

Nərminə Həsən qızı Əlixanbəyova 1958-ci ildə Naxçıvan şəhərində anadan olub. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirərək təyinatla Babək rayonunun "Əmək bayrağı" qəzetində fəaliyyətə başlayıb. 1988-ci ildə jurnalist fəaliyyətini Naxçıvan Teleradiosunda davam etdirib. "Xəbərlər" redaksiyasında redaktor, "Publisistik verilişlər" redaksiyasında aparıcı redaktor və böyük redaktor kimi çalışıb. Hazırladığı müəllif verilişlərində bir sıra aktual mövzuları işıqlandırmaqla çağdaş dövrün jurnalistikasında öz imzasını tanıda bilib. 1992-1997-ci illərdə Azərbaycan Televiziyasının "Xəbərlər" readksiyasında, 1997-2005-ci illərdə "Speys" Teleradio Şirkətində çalışıb. SSRİ-nin çökməsini labüd edən tarixi şərtlərin araşdırılmasına həsr olunmuş onhissəli "İflas" filmi, Qarabağ münaqişəsinin tarixindən bəhs edən üçhissəli "Qarabağın söz davası" filmi elmi-publistik baxımdan yüksək qiymətləndirilib. Nərminə Əlixanbəyova 2005-ci ildən Heydər Əliyev Fondunda çalışıb. Buradakı 16 illik əmək fəaliyyətində "İctimaiyyətlə əlaqələr" departamentində şöbə müdiri vəzifəsinədək yüksəlib.

❋ ❋ ❋

Eyvaz Əli oğlu Qasımov 1958-ci ildə Babək rayonunun Sirab kəndində anadan olub. 1987-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. İlk jurnalist fəaliyyətinə "Şərqin səhəri" qəzetində başlayıb. 1990-cı ildən Naxçıvan Teleradiosunda çalışmağa başlayıb. İctimai-siyasi, publisistik verlişlər hazırlayıb. Sədərəkdə döyüş bölgəsindən hazırladığı reportajlar, veriliş və müsahibələr, aktual söhbətlər televiziyanın filmotekasında qorunub saxlanılır. Bu gün filmotekada olan videokasetlərin əksəriyyəti onun arxiv nəzarətinin bəhrəsidir. 1993-1995-ci illərdə aylarla Azərbaycan Televiziyasına ezam olunan Eyvaz Qasımov Ulu öndər Heydər Əliyevin nadir kinokadrlarını, Naxçıvan haqqında çəkilən bütün sənədli filmləri, "Xəbərlər" proqramını, tarixi ictimai-siyasi verilişləri, sənədli və bədii filmləri videokasetlərə köçürərək Naxçıvan Teleradiosuna göndərib. Onun gecəli-gündüzlü gərgin jurnalist əməyinin nəticəsində televiziyanın bugünkü filmotekası zənginləşib. 2002-ci ildə Naxçıvan Telerdiosundan ayrılıb. Hazırda Azərbaycan Respublikası Fövqalədə Hallar Nazirliyinin "İctimai əlaqələr və mətbuat" şöbəsində çalışır.

Fərasət Əsəd qızı Əsədullasoy 1962-ci ildə Naxçıvan şəhərində anadan olub. 1983-1988-ci illərdə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb. 1988-1990-cı illərdə "Şərqin səhəri" qəzetində ədəbi redaktor vəzifəsində işləyib. 1990-2007-ci illərdə Naxçıvan Teleradiosunda redaktor, böyük redaktor və şöbə müdiri vəzifələrində çalışıb. "H.Cavid dünyası", "Vətən yolunda", "Araz", "Karvan", "Maarif xadimlərimiz", "Elm xadimlərimiz", "Göy qurşağı", "Ozan", "Baxış bucağı", "Güləbətin" silsilə proqram və verilişləri , "Dünya, səndən kimlər keçdi?", "Şəbəkə ustası" kimi bir sıra televiziya filmləri də jurnalist Fərasət Əsədullasoyun gərgin yaradıcılıq axtarışlarının bəhrəsidir. 2007-ci ildə Azərbaycan Televiziyasının Naxçıvan üzrə bölgə müxbiri vəzifəsinə təyin olunub. 2008-2013-cü illərdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü kimi fəaliyyət göstərib. Naxçıvan Teleraiosunda işlədiyi müddətdə pedaqoji fəaliyyətlə də məşğul olub. 2019-cu ildə başqa işə keçməsi ilə əlaqədar teleradiodan ayrılıb.

❋ ❋ ❋

Sultanlı Aydın Hacı oğlu 1963-cü ildə Ordubad şəhərində anadan olub. 1985-ci ildə indiki Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 1990-cı ildə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasına kiçik redaktor vəzifəsinə işə qəbul olunub. 1991-93-cü illərdə "Xəbərlər" redaksiyasında redaktor və böyük redaktor vəzifələrində çalışıb. 1995-ci ildə komitə sədrinin köməkçisi vəzifəsinə təyin olunub. Onun işə başladığı ilk dövrlər muxtar respublikanın ən ağır vaxtlarından biri olub. Sərhədlərimiz düşmən təcavüzündə qaldığı bir vaxtda döyüş bölgələrindən lazımi informasiyanın vaxtında efir vasitəsilə əhaliyə çatdırılmasında onun da böyük əməyi olub. Özünün əldə etdiyi və əməkdaşlar tərəfindən "İnformasiya" studiyasına daxil olan barıt qoxulu xəbərlərin operativ şəkildə tamaşaçıya çatdırılması, yersiz və gərəksiz şayələrin qarşısının alınması kimi vacib bir işdə onun əməyi danılmazdır. 1996-cı ildə başqa işə keçməsi ilə əlaqədar öz ərizəsi əsasında tutduğu vəzifədən azad edilib.

❋ ❋ ❋

Kəmalə Nəriman qızı Əliyeva 1963-cü ildə Naxçıvan şəhərində anadan olub. 1984-1990-cı illərdə Bakı Dövlət Universitetində "Jurnalistika" ixtisası üzrə təhsil alıb. İlk əmək fəaliyyətinə "Əmək bayrağı" qəzetində başlayıb. 1991-ci ildən Naxçıvan Teleradiosunun "Gənclik" redaksiyasında jurnalist fəaliyyətini davam etdirməklə "Gənclik və zaman", "Yaradıcı gənclik", "Gənclik təqdim edir",

"Mərhəmət" və bir sıra publisistik yaddaqalan proqramlara jurnalist imzasını atıb. 2018-ci ildən isə "Günaydın" musiqili-informasiya proqramının redaktoru vəzifəsində çalışır. 2019-cu ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb.

❋ ❋ ❋

Tahir Məmmədxəlil oğlu Məmmədov 1955-ci ildə Şərur (indiki Kəngərli) rayonunun Xok kəndində anadan olub. 1973-1977-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə təhsil alıb. Bir neçə il pedaqoji fəaliyyət göstərib. 1985-1989-cu illərdə "Şərq qapısı" və "Azərbaycan" qəzetlərinin xüsusi müxbiri olub. 1991-1999-cu illərdə Naxçıvan Televiziyasında

redaktor, böyük redaktor və şöbə müdiri vəzifələrində çalışıb. Bir çox ədəbi-bədii verilişlərin və proqramların müəllifi olub. "Söz" ədəbi proqramı və "Ozan" folklor toplusu bu qəbildəndir. 1999-2021-ci illərdə Bakıda təhsil sahəsində çalışıb. 1990-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1972-ci ildən ədəbi yaradıcılığa başlayan şairin bu illərdə "Vətən, məni unutma!", "Yurdum–and yerim", "Yol ver keçim, dünya səndən", "Bir azdan Günəş doğacaq" və bir neçə şeir-poemalardan ibarət kitabları çap olunub. Təqaüdçüdür.

❋ ❋ ❋

Əbülfəz Ağca oğlu Dünyamalıyev 1951-ci ildə Şahbuz rayonunun Kolanı kəndində doğulub. 1979-cu ildə Naxçıvan Pedaqoji İnstitutunu (indiki Naxçıvan Dövlət Universiteti) bitirib. 1979-1992-ci illərdə "Şərq qapısı" və "Əmək bayrağı" qəzetlərində məsul katib, readaktor müavini işləyib. 1992-2002-ci illərdə Naxçıvan Radiosunun "İctimai-siyasi verlişlər" redaksiyasında redaktor, böyük redaktor, şöbə müdiri, 2002-2020-ci illərdə televiziyanın "Xəbərlər" baş redaksiyasında böyük redaktor və redaktor vəzifələrində çalışıb. 2020-ci ildə təqaüdə çıxıb.

Məmmədağa İsmayıl oğlu Tahirov 1952-ci ildə Naxçıvan şəhərində anadan olub. 1979-cu ildə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 1978-1988-ci illərdə "Əmək bayrağı" qəzetində fotomüxbir işləyib. 1991-2011-ci illərdə Naxçıvan Teleradiosunun "Xəbərlər" redaksiyasında redaktor vəzifəsində çalışıb. Maraqlı foto-reportajları və tənqidi süjetləri ilə tamaşaçı marağına səbəb olub. 2016-cı ildə Bakı şəhərində vəfat edib. Ruhu şad olsun!

❋ ❋ ❋

Adilə Əkbər qızı Səfərova 1969-cu ildə Babək rayonunun Nəzərabad kəndində anadan olub. 1996-cı ildə "Teatrşünaslıq" ixtisası üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 1995-ci ildə Naxçıvan Radiosunda kiçik redaktor vəzifəsi ilə əmək fəaliyyətinə başlayıb. 2018-ci ildən 2019-cu ilə kimi televiziyanın "Uşaq, gənclər və idman" redaksiyasında redaktor, 2019-2020-ci illərdə "İncəsənət və musiqi verilişləri" redaksiyasının baş redaktoru, 2020-2024-cü illərdə isə "Xəbərlər"redaksiyasında redaktor vəzifəsində çalışıb. 2024-cü ildən Naxçıvan Dövlət Milli Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində işləyir və paralel olaraq Naxçıvan Dövlət Universitetinin "Teatr və mədəniyyətşünaslıq" kafedrasında pedaqoji fəaliyyət göstərir.

❋ ❋ ❋



Rövşən Qurbanəli oğlu Hüseynov 1956-cı ildə Naxçıvan şəhərində anadan olub. 1982-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. 1997-2001-ci illərdə Naxçıvan Televiziyasının "Ədəbi-bədii verilişlər" redaksiyasında böyük redaktor, sonra isə "İctimai-siyasi verilişlər" redaksiyasının şöbə müdiri vəzifələrində çalışıb. Qısa telejurnalistliyi müddətində saysız-hesabsız ictimai-siyasi, ədəbi-bədii, publisistik verilişlərin müəllifi və aparıcısı olub. "Çıraq işığından başlanan müstəqillik yolu", "Azərbaycan gəncliyi müstəqillik yollarında" və "Ocaqdan nur alanlar" adlı üç kitabın müəllifidir. 2008-ci ildə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına, bir çox diplom və fəxri fərmanlara layiq görülüb. 2017-ci ildən ictimai əsaslarla Naxçıvan Mətbuat Şurasının sədridir. Hazırda Naxçıvan MR Həmkarlar İttifaqları Şurasında Mədəniyyət İşçiləri Həmkarlar İttifaqları Muxtar Respublikası Komitəsində işləyir.

❋ ❋ ❋



Məhəbbət Bədəl qızı Mirzəyeva 1966-cı ildə Naxçıvan şəhərində anadan olub. 1999-cu ildə Naxçıvan Dövlət Universitetində "İbtidai təhsil metodikası" ixtisası üzrə təhsil alıb. 1997-ci ildə Naxçıvan Teleradiosunda böyük redaktor vəzifəsində çalışıb. 2001-ci ildə Naxçıvan MR Ali Məclisinin Mətbuat və informasiya şöbəsinə referent vəzifəsinə təyin olunub. 2011-ci ildə "Şərq qapısı" qəzetində baş redaktorun müavini vəzifəsində jurnalist fəaliyyətini davam etdirib. 2011-ci ildən "Şərq qapısı" qəzeti redaksiyasında məsul katibin müavini vəzifəsinə təyin edilib. Azərbaycan Respublikası Prezidentin 22 iyul 2020-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" medalına və Naxçıvan MR Ali Məclisin 21 iyul 2025-ci il tarixli Sərəncamı ilə "Naxçlvan MR Əməkdar jurnalisti" fəxri adına və "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalına layiq görülüb. 2025-ci ildən "Şərq qapısı" redaksiyasında "Texniki yaradıcılıq bölməsi"nin müdiri vəzifəsində çalışır.

Elnarə Valeh qızı Heydərova 1979-cu ildə Naxçıvan şəhərində anadan olub. 2000-ci ildə Naxçıvan İnstitutunu "Jurnalist" ixtisası üzrə bitirib. 1997-ci ildən Naxçıvan Televiziyasında fəaliyyətə başlayaraq "Xəbərlər" proqramında diktor kimi çalışıb. Jurnalist kimi hazırladığı maraqlı xəbər süjetləri ilə tamaşaçıların diqqətini cəlb edib. 2016-2019-cu illərdə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasında müxtəlif mövzuları əhatə edən proqramların redaktoru kimi fəaliyyət göstərib, həmçinin bir neçə televiziya filminin ssenari müəllifi olub. 2019-cu ildə "Səhər verilişləri" redaksiyasının baş redaktoru olub. 2025-ci ildən "İncəsənət və musiqi verilişləri" redaksiyasının baş redaktoru vəzifəsində çalışır. 2020-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb.2024-cü ildə ssenari müəllifi olduğu "Sədərəkdən Şuşaya" adlı sənədli televiziya filmi onun yaradıcılıq fəaliyyətində yeni mərhələnin başlanğıcı olub.



❋ ❋ ❋

Lalə Qurbanəli qızı Hüseynova 1976-cı ildə Babək rayonunun Nehrəm kəndində anadan olub. 1998-ci ildə Bakı Asiya Universitetinin Filologiya fakültəsini "Şərqşünaslıq tarixi" ixtisası üzrə bitirib. 1998-ci ildə Naxçıvan Radiosunda "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor vəzifəsində işləməyə başlayıb. 2000-2011-ci illərdə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor, "Xəbərlər" redaksiyasında böyük redaktor və baş redaktor vəzifələrində çalışıb. Aparıcı, diktor kimi də radio və televiziyada özünü sınayıb. 2015-ci ildə "Tərəqqi" medalı ilə təltif edilib. 2018-ci ildə televiziyadan ayrılıb.

Aydın İldırım oğlu Tarverdiyev 1946-cı ildə Babək rayonunun Qoşadizə kəndində doğulub. 1968-1974-cü illərdə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində qiyabi yolla təhsil alıb. 1968-1992-ci illərdə "Şərq qapısı" qəzetində müxtəlif vəzifələrdə çalışıb. 1992-ci ildən Naxçıvan Teleradiosunda çalışaraq 2003-2011-ci illərdə radionun "İctimai-siyasi verilişlər" redaksiyasının baş redaktoru olub. 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. 2013-cü ildə təqaüdə çıxıb.

* * *

Qasımzadə Muxtar Əziz oğlu 1951-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra qiyabi yolla Naxçıvan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Jurnalistlər Birliyinin "Sənətkarlıq" institutunda təhsil alıb. 1979-1989-cu illərdə Babək rayonunun "Əmək bayrağı" qəzetində fəaliyyət göstərib. 1989-2013-cü illərdə Naxçıvan Teleradiosunda redaktor, studiya direktorunun müavini, şöbə müdiri və baş redaktor vəzifələrində çalışıb. Televiziya və radioda cari verilşlərdən başqa bir neçə müəllif proqramları da onun adı ilə bağlıdır. Radioda "Gülüstan", "Yaddaş çırağı", "Gəmiqaya", televiziyada isə "Karvan" publisistik proqramının müəlliflərindən biri və "Günorta saatı" canlı verilişinin aparıcısı olub. Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-jurnalist Muxtar Qasımzadə 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif olunub. 2015-ci ilin Prezident mükafatçısıdır. Təqaüdçü jurnalist bu gün poeziya aləmində yeni yaradıcılıq axtarışlarındadır.

* * *

Vaqif Mamo oğlu Ağalarov - 1972-ci ildə Şahbuz rayonunun Nursu kəndində anadan olub. 2000-ci ildə Naxçıvan Dövlət Universitetinin Tarix-Filologiya fakültəsini bitirib. 2001-ci ildən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin "İctimai-siyasi verilişlər" baş redaksiyasında redaktor vəzifəsində çalışmağa başlayıb. 2004-2020-ci illərdə "Gənclik və hərbi-vətənpərvərlik", "Müəllif", "Təhsil və sosial məsələlər" redaksiyalarının baş redaktoru olub. "Yurd yerlərimiz", "Yaddaş", "Səngər", "Sərhədçi", "Ocaq başında" və bir çox silsilə verlişlərin aparıcısı və müəllifi olub. O, həm də Naxçıvanın qədim tarixinin və tarixi yerlərinin araşdırılması ilə bağlı "Naxçıvan xanlığı", "Naxçıvanın Kəngərli süvariləri", "Gerçək tarixin izində: Naxçıvanskilər", "Qalası Naxçıvan olan Elman Abbasov", "Naxçıvanın ilk xüsusi təyinatlıları" sənədli televiziya filmlərinin və "Gəmiqaya", "Əlincə qalası", "Haça dağ", "Mağaralar", "Çalxanqala", "Oğlanqala" kimi elmi-kütləvi filmlərin müəllifidir. Birinci Qarabağ Müharibəsi veteranıdır. 2018-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. Hazırda Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri QSC-nin "Sənədli filmlər və dublyaj redaksiyası"nın redaktoru vəzifəsində fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Səbinə Nadir qızı Əlincəli 1976-cı ildə Naxçıvan şəhərində anadan olub. 2002-ci ildə Naxçıvan Dövlət Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bakalavristini, 2005-ci ildə magistraturasını bitirib. 2001-2004-cü illərdə Naxçıvan Teleradiosunun "Ədəbi-bədii verilişlər" redaksiyasında redaktor və baş redaktor vəzifələrində çalışıb. "Qonağımız var", "Naxçıvan qonaqların gözü ilə", "Klassik irsimizdən", "Ədəbi düşüncələr" və bir çox ədəbi-bədii, publisistik verilişlərin müəllifi olub**.** 2003-cü ildə "Mələyim qoruyur məni" adlı ilk şeirlər kitabı çapdan çıxıb. 2016-cı ildən Bəhruz Kəngərli Muzeyinin direktorudur.

Səməd Canbağış oğlu Canbaxşiyev - 1972-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. Naxçıvan Dövlət Kukla Teatrının ilk aktyorlarından biri olub. 1992-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Mədəni-maarif" və eyni zamanda Bakı Dövlət Universitetinin "Jurnalistika" fakültələrinin qiyabi şöbələrinə daxil olub. 1997-ci ildə ADMİU-nu və 1998-ci ildə BDU-nu bitirib. 1993-cü ildə Naxçıvanda

yaranan və Zabitlər Evində fəaliyyət göstərən "Meloman-şou" qrupu və "7 Ulduz" Şən və Hazırcavablar Klubunun yaradıcılarındandır.

2000-ci il dekabrın 30-da Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı ilə "Naxçıvan MR Əməkdar artisti" fəxri adına layiq görülüb. 2001-ci ildən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, baş redaktor vəzifələrində çalışıb. 2003-cü ildən Lider TV-nin Naxçıvan MR üzrə xüsusi müxbiri olub. 2009-2012-ci illərdə Naxçıvan Dövlət Universitetində telejurnalistikadan dərs deyib. 2011-ci ildə hazırladığı "Telejurnalistika dünyası" adlı dərslik nəşr olunub. 2018-ci il aprel ayının 1-dən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "İnformasiya təminatı və saytlarla iş" redaksiyasında baş redaktor vəzifəsinə təyin edilib. 2018-ci il may ayının 15-dən isə Naxçıvan Muxtar Respublikasının ilk rəsmi informasiya qurumu olan "Nuhçıxan" İnformasiya Agentliyinin ilk baş redaktoru təyin edilib. 2020-ci ilin yanvar-oktyabr aylarında televiziyanın "Xəbərlər" readksiyasında baş redaktor işləyib. 2020-ci ilin oktyabr ayından Naxçıvan Dövlət Milli Dram Teatrının direktor müavini təyin edilib. 6 may 2015-ci ildə Prezident Mükafatına, 2020-ci ildə isə "Tərəqqi" medalına layiq görülüb. Naxçıvan Televiziyasında işlədiyi illərdə gənclik və hərbi vətənpərvərlik mövzularında maraqlı verilişlər hazırlayıb. "Aşıq gördüyün çağırar" satirik proqramının, "Zirvə", "Hər kəs 100 il yaşamasa", "Özümüzü tanıyaq", "Əlaqə" "Səyyah-televiziya turizm klubu" və s. verilişlərinin müəllifi və aparıcısı olub. Bu gün də maraqlı məqalələrlə mətbuatda mütəmadi çıxış etməkdədir.

* * *

Süsənbər Məhəddin qızı Ağamalıyeva 1982-ci ildə Qərbi Azərbaycanda, Əzizbəyov rayonunun Axta kəndinə anadan olub. Aparılan deportasiya siyasəti nəticəsində 1988-ci ildə Ağamalıyevlər ailəsi Naxçıvan şəhərinə köçüb. S.Ağamalıyeva 2000-2004-cü illərdə Naxçıvan Dövlət Universitetində "İngilis dili" ixtisası üzrə ali təhsil alıb. 2001-2002-ci illərdə Naxçıvan Televiziyasının "Gənclik və hərbi vətənpərvərlik" baş redaksiyasında redaktor,

2002-2003-cü illərdə "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor, "Müəllif proqramları" redaksiyasında böyük redaktor vəzifələrində çalışıb. 1996 (Naxçıvanda), 1998-ci (Bakıda) illərdə Heydər Əliyevin qarşısında, ona həsr etdiyi şeirlərlə çıxış edən Süsənbər televiziyada ilk verilişlərini də Ulu öndərə həsr edib. Müxtəlif başlıqlarla Ulu öndərə həsr olunmuş ictimai-siyasi yönümlü verilişlər gənc jurnalistin Heydər Əliyev irsinə sonsuz məhəbbət və ehtiramının böyük təqdimatı idi. "Gerçəklik", "Təhsil, düşüncələr, mülahizələr", "Münasibət", qadınlar üçün "Səadət" proqramının və bir çox silsilə verilişlərin müəllifi və aparıcısı kimi tamaşaçı auditoriyasının diqqətini cəlb edib. 2004-cü ildə televiziyadan ayrılıb. Sonrakı illərdə Naxçıvan MR Dövlət Sosial Müdafiə Fondunda, Naxçıvan MR Dövlət Gömrük Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Gömrük xidməti polkovnik-leytenantıdır. 2006-cı ildə Milli Qəhrəman Çingiz Mustafayev adına mükafatla təltif olunub. 2013-cü ildə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Hazırda Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində pedaqoji fəaliyyət göstərir. Müntəzəm olaraq yerli və xarici mətbuatda publisistik və elmi məqalələrlə, tərcümələrlə çıxış edir.

✵ ✵ ✵

Aqşin Kamal oğlu Babayev 1984-cü ildə Şərur rayonunun Yenikənd kəndində (indiki Danyeri) anadan olub. Kənd məktəbində ibtidai təhsil almaqla 1996-cı ildən qəbul imtahanı ilə Naxçıvan şəhər Türk Liseyində orta təhsilini davam etdirib. 2001-ci ildə həmin liseyin 11-ci sinfini bitirərək "Naxçıvan" Universitetinin "Filologiya" fakültəsinə daxil olub. 2005-ci

ildə həmin universiteti "İngilis dili və ədəbiyyatı" ixtisası üzrə bakalavr dərəcəsində fərqlənmə diplomu ilə bitirib. Daha sonra Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinə daxil olub. Buranı da hüquqşünaslıq ixtisası üzrə bakalavr dərəcəsində fərqlənmə diplomu ilə bitirib. 2001-2003-cü illərdə Naxçıvan Teleradiosunun "Gənclik və hərbi-vətənpərvərlik" redaksiyasında redaktor vəzifəsində çalışıb. Televiziyada hazırlanan müxtəlif veriliş və proqramların müəllif aparıcısı olub. 2006-cı ildə Lider TV-nin "Səda" informasiya xidmətində müxbir, 2012-2020-ci illərdə "Xəzər" TV-də müxbir və "Xarici xəbərlər" şöbəsinin müdiri, "Xəbərlər" departamentində redaktor və aparıcı vəzifələrində çalışıb. 2021-2024-cü

illərdə isə SOCAR-ın Bakı Ali Neft Məktəbinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri olub. 2015-ci ildə Azərbaycanda KİV-in inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Prezidentin Fəxri Diplomu" na layiq görülüb.

❋ ❋ ❋

Yunis Fərman oğlu Xəlilov 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. 2004-cü ildə Naxçıvan Dövlət Universitetinin "Hüquqşünaslıq" və 2006-cı ildə həmin universitetin magistratura şöbəsi hüquq istiqamətinin "Dövlət hüququ" ixtisaslarını fərqlənmə diplomu ilə bitirib. 2004-cü ildə Naxçıvan Televiziyasının "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor vəzifəsində işə qəbul olunub.

Yunis Xəlilovun televiziya ilə bağlılığı ailədən gəlir. Onun babası, tanınmış şair və dramaturq Hüseyn Razi 1952-1955-ci illərdə Naxçıvan Radiosunda redaktor vəzifəsində çalışıb. Atası filologiya elmləri doktoru Fərman Xəlilov uzun illər Naxçıvan Teleradiosu ilə daim əməkdaşlıq edib və bu gün də etməkdədir. 1988-1990-cı illərdə otaylı butaylı tamaşaçıların rəğbətini qazamış "Ayrılıq" və "Axtarış" proqramlarının hazırlanmasında fəal iştirak edərək İrandan gələn ərəb və fars dillərində yazılmış məktubları Azərbaycan dilinə tərcümə edib.



Yunis Xəlilov fəaliyyəti dövründə televiziya və radio efirində yayımlanan "Hüquq maarifi", "Hüquq tariximizdən", "İnsan və qanun", "Qanun keşiyində", "Əmək hüquqlarımız", "Hüquq radio güşəsi" və başqa verilişlərin müəllifi olub. Hazırda Naxçıvan MR Ali Məhkəməsində "İcra məmurları" şöbəsinin məsləhətçisidir. Naxçıvan MR Ali Məhkəməsi yanında Elmi-Məsləhət Şurasının üzvü, dövlət qulluğunun baş müşaviridir. O, 8 kitabın, 200-dən çox elmi və publisistik məqalənin müəllifidir. 15 ildir ki, Naxçıvan Dövlət Universitetində müəllim işləyir və Konstitusiya hüququnu tədris edir.

❋ ❋ ❋

Qafar Tahar oğlu Qənbərov – Qafar Qərib 1976-cı ildə Babək rayonunun Güznüt kəndində anadan olub. 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 1999-2018-ci illərdə müxtəlif orta məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olub. 2001-2005-ci illərdə Naxçıvan Teleradiosunun "Ədəbi-bədii verilişlər" redaksiyasında redaktor vəzifəsində çalışıb. Naxçıvan ədəbi mühitindən bəhs edən silsilə proqram və verilişlərin müəllifi olub. Qafar Qərib 2009-2023-cü illərdə paralel olaraq "Nuh yurdu" qəzetinin redaktoru vəzifəsində çalışıb. "Gözlərsən məni", "Gözümə döydüyüm şəkil", "İçimizdəki qəhrəman", "Dünya üçbucaq imiş", "Göydən üç alma düşdü", "Vətən daşdan başlayırmış", "Qədim-yeni Naxçıvanım", "Bu gün, bu saat, bu an" adlı 8 şeir və "İki qapı arasında" və "İlahi məhəbbət" (rus dilində) adlı iki nəsr kitabının müəllifidir. Hazırda AEMA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında işləyən Qafar Qərib həm də yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır.

❋ ❋ ❋

İlqar Fəxrəddin oğlu Qulusoy 1980-ci ildə indiki Babək rayonunun Böyükdüz kəndində anadan olub. 1998-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax Filialında "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə ali təhsil almağa başlayıb. 1999-cu ildə Naxçıvan Dövlət Universitetinə köçürülərək Tarix-filologiya fakültəsində təhsilini davam etdirib. 2002-2007-ci illərdə Naxçıvan Teleradiosunun "Uşaq, gənclər və idman", "Ədəbi-bədii verilişlər" redaksiyalarında redaktor vəzifəsində çalışıb. "Gənclik və zaman", "Vətən daşı","Sözün meydanı", "Sabahın sorağında", "Tələbə dünyası", "İdman da bir dünyadır" kimi bir çox silsilə veriliş və proqramların müəllifi olub. Tələbəlik illərindən ədəbi yaradıcılıqla məşğul olub. 2002-ci ildə "Ölüm şairlərin əyləncəsidir" adlı ilk şerlər kitabı işıq üzü görüb."Son ümid" adlı ikinci kitabı isə vəfatından bir il sonra 2017-ci ildə çapdan çıxıb. 2007-2016-cı illərdə "Lider" Televiziyasında çalışıb. Özünəxas jurnalist dəsti-xətti ilə bir çox yaddaqalan verilişlərə imza atıb. 2016-cı ildə ömrünün gənclik çağında qəflətən dünyasını dəyişib. Ruhu şad olsun!

❋ ❋ ❋

Müzəffər Rza oğlu Əsgərov – Zəfər 1971-ci ildə Şahbuz rayonunun Keçili kəndində anadan olub. 1992-1997-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, 2005-2009-cu illərdə Naxçıvan Dövlət Universitetində qiyabi yolla hüquq üzrə ikinci təhsil alıb. 2002-ci ildə Naxçıvan Teleradiosunda rejissor assistenti vəzifəsinə qəbul olunub. 2005-ci ildən "Sənədli filmlər və dublyaj" redaksiyasının baş redaktorudur. Bu illərdə yerli televiziya filmlərinin müəllifi, rejissoru, aparıcısı olub. "Dünyaya səyahət" proqramı ilə

müxtəlif ölkələrin tarixi, təbiəti, antik dövrlərin yaşam tarixilə tanışlıq efirə Müzəffər Zəfərin öz səsilə təqdim olunub. "Gülüş köşkü", "Qan qohumluğu", "Saqqallı uşaq", "Ordan-burdan" və bir çox telesəhnəciklərin, əyləncəli proqramların ssenari müəllifi olub. 2015-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti", 2017-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

✵ ✵ ✵

Elxan Qadir oğlu Məmmədov – Yurdoğlu 1980-ci ildə Şərur (indiki Kəngərli) rayonunun Yurdçu kəndində anadan olub. 1998-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunda "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə təhsil almağa başlayıb. 2000-ci ildə köçürmə yolu ilə Naxçıvan Dövlət Universitetində təhsilini davam etdirib. 2003-cü ildə "Şərq qapısı" qəzetində müxbir olaraq əmək fəaliyyətinə başlayıb. 2005-ci ilə qədər qəzetdə müxtəlif vəzifələrdə çalışıb. 2005-ci ilin oktyabrından 2006-cı ilin mayınadək Naxçıvan Teleradiosunda redaktor vəzifəsində çalışıb**.** Qısa jurnalistlik dövründə televiziyanın "Ədəbi-bədii verilişlər" redaksiyasında onlarla maraqlı, yaddaqalan verilişlər hazırlayıb. "Poetik duyğular", "Ziya", "Sazın, sözün sehrində", "Oxucu və zaman", "Misra işığı", "Yasəmən ətri" və bir neçə silsilə verilişlərin müəllifi və aparıcısı olub. Şair, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlu elmi-publisistik və bədii olmaqla 19 kitabın müəllifidir. Hazırda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Bir müddət "Azərbaycan" qəzetinin MR üzrə xüsusi müxbiri kimi də fəaliyyət göstərib. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür.

✵ ✵ ✵

Vüsal Hicran oğlu Muradov 1987-ci ildə Babək rayonunun Məzrə kəndində anadan olub. Naxçıvan Universitetinin jurnalist və Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisaslarını fərqlənmə ilə bitirib. Əmək fəaliyyətinə 2006-cı ildə Naxçıvan Televiziyasında aparıcı vəzifəsi ilə başlayıb. Sonrakı illərdə televiziyada aparıcı və "Xəbərlər" redaksiyasının redaktoru kimi fəaliyyət göstərib. 2019-cu ilə qədər Naxçıvan Televiziyasında müxtəlif vəzifələrdə çalışıb. Fəaliyyəti dövründə aktual və maraqlı xəbər süjetləri ilə diqqət çəkib. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində çalışır.

Hüseyn Bağır oğlu Bağırov 1961-ci ildə Babək rayonunun Nehrəm kəndində anadan olub. 1987-ci ildə Ukrayna, Xarkov Kənd Təsərrüfatı İnstitutunu bitirib. 2003-cü ildə Naxçıvan Teleradiosunda redaktor vəzifəsinə qəbul olunub. 2009-2011-ci illərdə radionun "Ədəbi-bədii verilişlər" baş redaksiyasında böyük redaktor, 2011-ci ildən radionun "Ədəbi-bədii və publisistik verilişlər" redaksiyasında redaktor vəzifəsində çalışıb. Saysız-hesabsız ədəbi-bədii və publistik radio verilişlərinə poetik ruh verməklə şair-jurnalist dəsti-xəttini bir daha sübut edib. Televiziyada "Ədəbi portretlər" silsilə proqramının da müəllifi və aparıcısı olub. 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Adam kölgəsinə səsləmə məni", "Mən çiynimdən yerə qoydum dünyanı", "Başımda qar olur, ayağımda yaz", "Nə yaxşı göydədi hələ göy üzü" adlı şeir kitablarının müəllifidir. İranda "Mən çiynimdən yerə qoydum dünyanı" və "Qoşa bulaq" adlı auido kitabı da işıq üzü görüb. Şeirləri ingilis və fars dillərinə tərcümə olunub. Hazırda Bakıda yaşayır və ədəbi yaradıcılıqla məşğul olur.

✵ ✵ ✵

Ramal Xalıxverdi oğlu Məmişov 1983-cü ildə Şahbuz rayonunun Badamlı-su (indiki Badamlı) kəndində anadan olub. 2005-ci ildə Naxçıvan Dövlət Universitetində "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasına yiyələnib. 2003-2006-cı illərdə Naxçıvan Televiziyasında aparıcı diktor kimi fəaliyyət göstərib. 2011-2013-cü illərdə "Xəbərlər" redaksiyasında redaktor, 2014-2020-ci illərdə isə televiziyanın "İctimai-siyasi məsələlər" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. 2020-ci ildə Naxçıvan MR Təhsil Nazirliyinin "Televiziya və Radio verilişləri" redaksiyasına baş redaktor təyin olunub. Hazırda Naxçıvan MR İqtisadiyyat Nazirliyinin yanında "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti"nin mətbuat katibi vəzifəsində çalışır. 2014-cü ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə"nişanı ilə təltif olunub.

✵ ✵ ✵

Elşən Kazım oğlu Hacıyev 1976-cı ildə Babək rayonunun Nəhəcir kəndində doğulub. 2004-cü ildə Naxçıvan Musiqi Texnikumunu bitirdikdən sonra televiziyada musiqi redaktoru vəzifəsində işləməyə başlayıb. Bu illər ərzində "Vətən oğulları, sizin üçün", "Sənətin sehrində", "Sənət yollarında" və bir çox mədəniyyət və incəsənət aləmini əhatə edən silsilə

verilişlərin müəllifi və aparıcısı olub. 2008-2011-cü illərdə "Günaydın" səhər proqramıda şöbə müdiri, redaktor vəzifələrində çalışıb və bu gün də həmin vəzifədə işləməkdədir.

❋ ❋ ❋

Sona Rövşən qızı Mirzəyeva 1984-cü ildə Culfa rayonunun Bənəniyar kəndində anadan olub. 2006-cı ildə Naxçıvan Dövlət Universitetini "Jurnalist" ixtisası üzrə bitirib. 2004-2013-cü illərdə Naxçıvan Radiosunda aparıcı diktor vəzifəsində çalışıb. 2013-2018-ci illərdə radionun "İctimai-siyasi verilişlər" redaksiyasının redaktoru, 2020-2022-ci illərdə həmin redaksiyanın baş redaktoru, 2022-2023-cü illərdə "Kanal 35" TV-də müxbir vəzifəsində çalışıb. Bu gün Naxçıvan Radiosunda redaktor vəzifəsində çalışan Sona Mirzəyeva həm də "Günə başlarkən", "Səbəb budur", "Sağlıq olsun" radio proqramlarının aparıcısıdır. 2025-ci ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilib.

❋ ❋ ❋

Məmməd İlqar oğlu Babayev 1987-ci ildə Naxçıvan şəhərində anadan olub. 2009-cu ildə Naxçıvan Dövlət Universitetini jurnalist ixtisası üzrə, 2012-ci ildə həmin universitetin magistraturasını "Mətbuat tarixi" ixtisası üzrə bitirib. "Naxçıvan MR-da mətbuatın milli inkişaf xüsusiyyətləri" mövzusunda magistr dissertasiyanı müdafiə edib. 2005-2006-cı illərdə Naxçıvan Radiosunda diktor vəzifəsində çalışıb. 2006-2012-ci illərdə "Naxçıvanın səsi" radiosunda aparıcı, 2010-2012-ci illərdə "Nuh yurdu" qəzetində müxbir, 2011-2013-cü illərdə Naxçıvan Dövlət Universitetində müəllim olaraq çalışıb. 2013-cü ilin fevralında Naxçıvan MR Ali Məclis aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində məsləhətçi, həmin ilin iyul ayında Naxçıvan MR Ali Məclisi sədri yanında Gənclər Fonduna icraçı direktor vəzifəsinə təyin olunub. 2018-2020-ci illərdə Naxçıvan Teleradiosunda baş redaktor vəzifəsində çalışıb. Müxtəlif vaxtlarda radionun "Ədəbi-bədii verilişlər" redaksiyasına, televiziyanın "Uşaq, gənclər və idman". "Ədəbi-bədii verilişlər" redaksiyasına rəhbərlik edib. Bir sıra sənədli filmlərin müəllifi olub. Çoxsaylı televiziya filmlərinin səsləndirilməsində yaxından iştirak edib. 2021-2023-cü illərdə fəaliyyətini Naxçıvan MR Dövlət İmtahan Mərkəzinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi olaraq davam etdirib. 2023-cü ilin avqustundan "Şərq qapısı" qəzetinin baş redaktor müavini vəzifəsində çalışır. 2025-ci ildə "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı təltif olunub.

❋ ❋ ❋

Ariz Zahid oğlu Cəfərov 1989-cu ildə Rusiya Federasiyasının Amur vilayətinin Payçxiniski şəhərində dünyaya göz açıb. Atası Zahid Cəfərov hərbi qulluqçu olduğu üçün 1-ci Qarabağ Müharibəsi dövründə təyinatını Rusiyadan Naxçıvana alıb və döyüşlər zamanı ağır yaralanıb. Həmin dövrdən də Naxçıvanda yaşamağa başlayıblar. 2006-cı ildə Heydər Əliyev adına Tam Orta Məktəbi bitirdikdən sonra Naxçıvan Dövlət Universitetinin "Tarix-filologiya" fakültəsinə daxil olub. Hərbi xidmətdən sonra 2008-2019-cu illərdə Naxçıvan Teleradiosunda diktor, redaktor, "Xəbərlər" redaksiyasının baş redaktoru kimi vəzifələrdə çalışıb. 2019-cu ildən Azərbaycan Ordusunun "Sənədli və tədris filmləri" mərkəzində çalışır. 2020-ci ildən hərbi qulluqçudur. 2020-ci ildə Tovuz döyüşlərində, 44 günlük Vətən Müharibəsində və 2023-cü ildə icra edilən antiterror əməliyyatında iştirak edib. "Müharibəsi veteranı"dır. "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" (3-cü dərəcəli), "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Mətbuat və ictimaiyyətlə əlaqələr" idarəsinin əməkdaşıdır. Hərbi jurnalist kimi fəaliyyət göstərir.

❋ ❋ ❋

Röyal Məhərrəm oğlu Məmiyev 1986-cı ildə Rusiya Federasiyasının Tula şəhərində anadan olub. 2008-ci ildə Naxçıvan Dövlət Universiteti "Filologiya" fakültəsinin bakalavr, 2011-ci ildə isə "Dilçilik" ixtisası üzrə magistratura səviyyəsini bitirib. 2009-cu ildən televiziyanın "Xəbərlər" redaksiyasında redaktor və baş redaktor vəzifələrində çalışıb. 2015-2016-cı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində çalışıb. Hazırda "Xəbərlər" departamentinin rəhbəridir. 2025-ci ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı və "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı ilə təltif olunub.

❋ ❋ ❋

Nəriman Sultan oğlu Nəcəfov 1988-ci ildə Şərur rayonunun Püsyan kəndində anadan olub. 2010-cu ildə Naxçıvan Teleradiosunda redaktor vəzifəsi ilə əmək fəaliyyətinə başlayıb. Televiziyanın "Uşaq, gənclər və idman verilişləri" redaksiyasında "Ağsaqqal sözü, gənc fikri", "Sabahın ustaları", "İstedadlar sorağında", "Bir məktəbin uğurları" və bir çox sayda silsilə verilişlər hazırlayıb. Ehtiyatda olan baş

leytenant Nəriman Nəcəfov bir neçə il Naxçıvan Qarnizonunun Videomətbuat Mərkəzinə rəhbərlik edib. Hazırda Naxçıvan Televiziyasının "Xəbərlər" departamentinin redaktorudur.

✵ ✵ ✵

Zakir Sevindik oğlu Rzayev 1971-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta ixtisas musiqi təhsili alıb. 2011-2023-cü illərdə Naxçıvan Televiziyasının "Musiqi və bədii əyləncəli verilişlər" redaksiyasında redaktor və baş redaktor, sonrakı illərdə musiqi tərtibatçısı və səs operatoru vəzifələrində çalışıb. Hazırda "Kanal 35" TV-də internet yayımı üzrə səs operatoru vəzifəsində işləyir.

✵ ✵ ✵

Elçin Əkrəm oğlu Əsədov 1972-ci ildə Bərdə şəhərində anadan olub. 1989-cu ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini "Kütləvi tamaşalar rejissoru" ixtisası üzrə bitirib. 2012-2015-ci illərdə Naxçıvan Teleradiosunda əvvəlcə redaktor, sonra televiziyanın "Musiqi və ələncəli verilişlər" redaksiyasında baş redaktor, daha sonra isə "İncəsənət" redaksiyasının baş redaktoru vəzifələrində çalışıb. Çalışdığı müddətdə televiziyada "Kinematoqraf", "Unudulmayan səslər", "Bir ömrün hekayəti", "Dahi bəstəkarlarımız" və bir sıra verilişlərin müəllifi və aparıcısı olub. "Yuxunuz şirin olsun", " Nənəmin nağılları", "Qocaman kapitanla səyahət", "Şən notlar" və digər uşaq verilişlərinə də ssenari müəllifi və rejissor kimi ekran həyatı bəxş edib. "Səhnəmizin Sofiyası", "Geriyə baxanda", "Ömür, tale, qismət", "Ritmlərin melodiyası", ikihissəli "Qış nağılı" və "Novruz əyləncələri" televiziya filmlərinin quruluşçu rejissoru olub. 2015-2020-ci illərdə Naxçıvan MR "Kanal 35" TV-yə və "Naxçıvanın səsi" radiosuna rəhbərlik edib. Hazırda Quba şəhərində "Qafqaz TV"-də "Xəbərlər" redaksiyasının baş redaktoru vəzifəsində işləyir.

✵ ✵ ✵

Rəmzi Surxay oğlu Tahirli 1991-ci ildə Şahbuz rayon Türkeş kəndində anadan olub. 2012-ci ildə "Naxçıvan" Universitetini Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bitirib.

2013-2017-ci illərdə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin "Ədəbi-bədii və publisistik verilişlər" və "Təhsil və sosial məsələlər" redaksiyalarında redaktor, 2018-2022-ci illərdə "Uşaq, gənclər və idman" redaksiyasında baş redaktor vəzifələrində işləyib. 2022-2025-ci

illərdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifəsində çalışıb. 2025-ci ilin fevralından isə həmin nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətində mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş mütəxəssis vəzifəsində fəaliyyətini davam etdirir.

2025-ci ildə "Rəşadətli əməyə görə nişanı" və "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə təltif edilib.

✵ ✵ ✵

Ulduz Eyvazqızı Əliyeva 1982-ci ildə Babək rayonunun Xəlilli kəndində anadan olub. 2001-ci il də Naxçıvan Univerisitetinin Jurnalistika fakültəsinə daxil olub. Tələbəlik illərindən jurnalist fəaliyyətinə başlayıb, "Əli Əliyev-2002" jurnalını hazırlayaraq 200 tirajla içtimaiyətə təqdim edib.

2009-2013-cu illərdə NDU-nin Azərbaycan Dili və Ədəbiyyatı ixtisasına təhsil alıb. 2009-cu ildən Babək rayon Kərimbəyli kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlamış və eyni zamanda Naxçıvan Televiziyasında kənar müəllif olaraq "Milli dəyərlərimiz tarixi varlığımızdır", Naxçıvan Radiosunda "Müəllim sözü", "Uşaqların maraq dairəsi" adlı verilişlərin müəllifi və aparıcısı olub.

2014-2022 illərdə Naxçıvan Teleradio Komitəsində "İncəsənət və musiqi verilişləri", "Təhsil və sosial məsələlər" , "Uşaq, gənclər və idman" redaksiyalarında redaktor vəzifəsində çalışıb.

Fəaliyyəti dövründə "Ailənin güzgüsü", "Pedaqoq sözü", "Uşaqların maraq dairəsi", "Gənc istedadlar", "Dahi sözü", "Uğur yolu", "Səmimi söhbət", "Uşaqlar və milli kinomuz", "Vətənin fəxri", "Zərif qadın dünyası" və başqa verilişlərin müəllifi və aparıcısı olub.

"Vətənin fəxri" verilişinin yayımlanmasından sonra Ukrayna Respublikası M.Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən "Təşəkkürnamə" ilə təltif olunub. 100-dən artıq elmi-publisistik, ədəbi-bədii məqalələrin müəllifidir.

Hazırda "Günəş" uşaq jurnalının baş redaktoru, "Günəş Uşaq Akademiyası"nın təsisçi direktoru, "Uşaq yetişdirmə sənəti" kitabının müəllifidir. Sərbəst jurnalist olaraq fəaliyyətini davam etdirir.

✵ ✵ ✵

Nail Əhəd oğlu Həsənov 1984-cü ildə indiki Babək rayonunun Cəhri kəndində (Cəhri qəsəbəsi) anadan olub. 2003-cü ildə Naxçıvan Musiqi Texnikumunu bitirib. 2013-cü ildə Naxçıvan Teleradiosunda musiqi tərtibatçısı vəzifəsində çalışmağa başlayıb. Həmin ildən bu günə kimi çoxsaylı telefilmlərin, saysız-hesabsız müxtəlif səpkili ictimai-siyasi və ədəbi-bədii verlişlərin, videoçarxların, filmkonsertlərin musiqi tərtibatçısı və səs rejissoru olub. Naxçıvan Teleradiosunun bir neçə il fəaliyyət göstərən "Nuhçıxan" xalq çalğı alətləri ansamblına bədii rəhbərilik edib. Hazırda "Naxçıvan Teleradiosu" QSC-nin televiziya üzrə musiqi redaktoru vəzifəsində işləyir.

Təranə Arif qızı Əliyeva 1971-ci ildə Babək rayonunun Cəhri kəndində (Cəhri qəsəbəsi) anadan olub. 1992-ci ildə indiki Bakı Humanitar Kollecini bitirib. 2013-cü ildən Naxçıvan Radiosunda əmək fəaliyyətinə başlayıb. Bu günə qədər Naxçıvanın ədəbi mühiti, mədəniyyət və incəsənət aləmi ilə bağlı saysız-hesabsız verilişləri müəllif-aparıcısı kimi radio dinləyicilərinə təqdim edib. 44 günlük Vətən Müharibəsi şəhidlərinə və qazilərinə həsr olunmuş "Vətən əmanəti" və xalq yaradıcılığına bəhs olunan "Bulaq başı, "Ədəbiyyat saatı" proqramları həftə ərzində radio dinləyicilərinin qonağı olur. Şair-jurnalist 9 kitab müəllifidir. "Mən şair olsaydım", "Nə qədər ki, insan var", "Sözün bayatı rəngi", "Qarabağda 44 gün", "İçimdəki səs", "Qələbəyə tələsən şəhid", "Payızın zəfər rəngi", "Keçidlər" onun son uğurlu kitablarındandır. Naxçıvan MR-nın 100 illiyinə həsr olunmuş "Yüz ilimin sədası" antologiyasının ideya müəllifi və tərtibçisidir. Həmçinin, Naxçıvanda ilk dəfə yaradılan Heyran xanım adına "Zərif Qadınlar" ədədi məclisinin təsisçisi və rəhbəridir. "Qızıl qələm" media mükafatı laureatıdır. "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı ilə təltif edilib.

❋ ❋ ❋

Turab Arzu oğlu Hacızadə 1991-ci ildə Naxçıvan şəhərində anadan olub. 2013-cü ildə jurnalist ixtisası üzrə Naxçıvan Dövlət Universitetini bitirib. 2015-ci ildən Naxçıvan Televiziyasının "Xəbərlər" redaksiyasında redaktor vəzifəsində çalışıb. Tematik süjetlərin redaktəsində və hazırlanmasında fəal iştirak edib. 2025-ci ilin avqust ayından "Xəbərlər" departamentinin baş redaktorudur.

❋ ❋ ❋

Elmira Nəsir qızı Kərimova 1972-ci ildə Sumqayıt şəhərində anadan olub. 1996-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 1999-2013-cü illərdə Naxçıvan Teatrında aktyor vəzifəsində çalışıb. 2006-2015-ci illərdə qurucusu olduğu Naxçıvan Dövlət Uşaq Teatrının direktoru olub. Bu illərdə E.Kərimova Naxçıvan Teleradiosu ilə də daim əməkdaşlıq edib. Müxtəlif səpkili radio və televiziya verlişlərinin,

telefilmlərin səsləndirilməsində fəal iştirak edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının və Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində həyat yoldaşı mərhum Vüsal Rzayevlə quruluş verdiyi tamaşalarda yaratdığı bənzərsiz obrazlar qalereyasını Naxçıvan Televiziyasının hazırladığı "Təbii gül", "Şəkərbura əhvalatı", "Skripka, Qarabala və...", "Məsləhət", "Ağ ölümün ölümü" filmtamaşalarında da yaradıb. 2015-2022-ci illərdə televiziyanın "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasında redaktor vəzifəsində çalışb. Onun müəllifliyi ilə "Əsrlərdən gələn səslər", "Sazın, sözün sehrində", "Duyğu yarpaqları" silsilə verilişləri özünün bədii dolğunluğu ilə efirə təqdim olunub. 2022-ci ildə Sumqayıt Dövlət Dram Teatrının aktyor heyətinə qəbul olunub. 2004-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 2008-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adlarına, 2006, 2011, 2018-ci illərdə Prezident mükafatına layiq görülüb.

❋ ❋ ❋

Nihad Bəhruz oğlu Bayramlı 1994-cü ildə Naxçıvan şəhərində doğulub. 2015-cü ildə Naxçıvan Dövlət Universitetini jurnalist ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2015-ci ildə də televiziyanın "Xəbərlər" redaksiyasında müxbir kimi ilk jurnalist fəaliyyətinə başlayıb. Müxtəlif illərdə televiziyanın "İctimai-siyasi verilişlər" redaksiyasında redaktor, "İncəsənət və musiqi verilişləri" redaksiyasının baş redaktoru olub. "Yolumuz "Naxçıvanadır", "Naxçıvan nəğməkarı", "Ovuca sığmayan böyük işlər", "Ulu çinar, xan çinar" kimi bir neçə televiziya filminin ssenari müəllifi və redaktorudur. Hazırda "Naxçıvan Teleradiosu" QSC-nin "Radio verilişləri" redaksiyasınınnun baş redaktorudur.

❋ ❋ ❋

Məsumə Əlövsət qızı Şirəliyeva 1994-cü ildə Şərur rayonunun Düdəngə kəndində anadan olub. 2012-2016-cı illərdə Naxçıvan Müəllimlər İnstitutunda "İbtidai metodika" ixtisası üzrə təhsil alıb. Həmin ildə də televiziyanın "Müəllif proqramları və xüsusi layihələr" redaksiyasında jurnalist kimi əmək fəaliyyətinə başlayıb. Bu gün "Ədəbi-bədii və müəllif proqramları" redaksiyasının redaktorudur. "Peşəkar", "Zəhmətkeş", "İş adamı", "Muzeydə bir gün", "Bura Vətəndir", 1-ci Qarabağ, 44 günlük Vətən Müharibəsinin şəhid və qazilərinə həsr olunmuş "Ölümsüzlər", "Vətən uğrunda", "Zəfərə gedən yol", "Vətənə xidmət edirəm" kimi publisitik silsilə proqram və verlişlərin müəllifidir.

Səadət Mənsim qızı Talıbova 1988-ci ildə Naxçıvan şəhərində anadan olub. 2005-2009-cu illərdə Naxçıvan Dövlət Universitetində jurnalist ixtisası üzrə təhsil alıb. Bu illərdə "Naxçıvanın səsi" Radiosunda ilk əmək fəaliyyətinə başlayıb. 2013-cü ildə AMEA Naxçıvan Bölməsinin "Tusi" Nəşriyyatında baş redaktor vəzifəsində çalışıb. 2014-cü ildə Babək rayonu Zeynəddin Kənd Uşaq Musiqi Məktəbində pedaqoji fəaliyyət göstərib. 2016-cı ildən "Naxçıvan Teleradiosu" QSC-nin "Radio verilişləri" redaksiyasında redaktor kimi fəaliyyətini davam etdirib. Radionun "Sizdən soruşuruq", "Yaxşı yol", "Təhlükəsiz həyat", "Sosial həyat" verilişlərinin müəllifi və aparıcısı olub. 2024-2025-ci illərdə "Təhsil və sosial məsələlər" redaksiyasının baş redaktoru olub. "Xəbəriniz olsun" silsilə verilişin müəllifi və aparıcısı olub. Beynəlxalq jurnalistika ixtisası üzrə magistraturanın II kursunda təhsil alır. "Rəşadətli əməyə görə" medalı ilə təltif olunan Səadət Talıbova 2015-ci ildə "Rəşadətli əməyə görə" medalı ilə təltif olunub və 2025-ci ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanına layiq görülüb. 2026-cı ilin əvvəllədində başqa işə keçməsi ilə əlaqədar doğma kanaldan ayrılıb.

❋ ❋ ❋

Rəmzi Elşən oğlu İbrahimov 1992-ci ildə Culfa rayonunun Camaldın kəndində anadan olub. 2013-cü ildə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsi üzrə "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasını bitirib. 2014-2020-ci illərdə Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Ədəbi-bədii və publisistik verilişlər" redaksiyasında redaktor, "Xəbərlər" redaksiyasında müxbir, aparıcı, "Musiqi və incəsənət verilişləri" və "Xəbərlər" redaksiyalarının baş redaktoru vəzifələrində çalışıb.

Televiziyada çalışdığı illərdə "Ədəbi düşüncələr", "Ədəbi dilimiz poeziyada", "Poeziya dəqiqələri", "Sənətkar ömrü", "Qeyri-adilər" və başqa verilişlərin, "Nəğməli ömrün notları" televiziya filminin müəllifi və aparıcısı olub.

2020-ci ildə televiziyadan ayrılaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində məsləhətçi, baş məsləhətçi vəzifələrində çalışıb. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri vəzifəsində çalışır. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Dövlət və bələdiyyə idarəetməsi" ixtisası üzrə magistr pilləsində təhsilini davam etdirir.

"Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı ilə təltif olunub. Dövlət qulluğunun müşaviridir.

İlkin Əvəz oğlu Rzayev 1985-ci ildə Şahbuz rayonunun Kükü kəndində anadan olub. 2009-cu ildə Naxçıvan Dövlət Universitetində "Jurnalist" ixtisasına yiyələnib. 2006-cı ildə "Naxçıvanın səsi" Radiosunda çalışmağa başlayıb. 2008-ci ildə "Kanal 35" TV-nin bədii rəhbəri və baş redaktoru olub. 2016-cı ildə Naxçıvan Radiosunun baş redaktoru, 2017-ci ildə isə "Naxçıvan Teleradiosu" QSC-nin "Proqram, efirə buraxılış və əlaqələndirmə" departamentinin direktoru təyin olunub. 2023-2024-cü illərdə Naxçıvan Televiziyasının hazırladığı "H.Əliyev 100: Naxçıvan aşırımları" çoxhissəli sənədli televiziya filminin və "ÜzbəÜZ" ictimai-siyasi, publisistik silsilə proqramın redaktoru olub. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2025-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" medalına və "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalına layiq görülüb.

❋ ❋ ❋

Hafizə Alməmməd qızı Əliyeva 1962-ci ildə Şahbuz rayonunun Qızıl Qışlaq kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin Kitabxanaşünaslıq və biblioqrafiya fakültəsini bitirib. 2001-ci ildən "Şərq qapısı" qəzetində çalışıb. 2005-ci ildə Babək rayonunun mətbu orqanı olan "Şərqin səhəri" qəzetinə baş redaktor təyin olunub. 2016-cı ildə yenidən "Şərq qapısı" qəzetinə qayıdıb. 2017-ci ildən isə "Naxçıvan Teleradiosu" QSC-də redaktor vəzifəsində çalışır. Mətbuatda fəaliyyətə başladığı dövrdən müxtəlif mövzulu yazıları ilə mərkəzi mətbuatda, qəzet və jurnallarda çıxış edib. Dəfələrlə muxtar respublika və Azərbaycan üzrə keçirilən yazı müsabiqələrində qalib olub, diplomlara layiq görülüb. "Müstəqilliyin işığında Babək", "Naxçıvan necə döyüşdü, necə müdafiə olundu?" kitablarının müəllifidir. 2010-cu ildən Naxçıvan MR "Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. Televiziyada çalışdığı illərdə müxtəlif xəbər süjetləri ilə diqqəti cəlb edib. Hazırda Naxçıvan Televiziyasının "Xəbərlər" redaksiyasında redaktor kimi fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Anar İmaməddin oğlu Tağıyev 1988-ci ildə Babək rayonunun Cəhri qəsəbəsində anadan olub. O, 2017-ci ildə Naxçıvan Teleradiosunda redaktor kimi fəaliyyətə başlayaraq jurnalistika sahəsinə ilk addımını atıb. Burada çalışdığı müddətdə peşəkar bacarığı, analitik düşüncə qabiliyyəti və operativliyi ilə seçilmiş, bir çox televiziya materiallarının hazırlanmasında iştirak etmişdir. Hazırda Anar Tağıyev "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru vəzifəsində çalışır. O, rəhbərlik etdiyi agentliyin informasiya siyasətinin formalaşdırılmasında, ictimaiyyətə operativ və dəqiq xəbərlərin çatdırılmasında ciddi rol oynayır. Onun rəhbərliyi ilə "Nuhçıxan" İnformasiya Agentliyi Naxçıvan və bütövlükdə Azərbaycanın media məkanında etibarlı informasiya mənbələrindən biri kimi tanınır. Anar Tağıyev daim öz üzərində işləyərək müasir media texnologiyalarını, qlobal informasiya trendlərini izləməyə və onları yerli mediada tətbiq etməyə çalışır. "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı ilə təltif olunub.

✵ ✵ ✵

Mətin Natiq oğlu Abbaslı 1995-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. 2016-cı ildə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib. 2018-ci ildə Naxçıvan Televiziyasının "Xəbərlər" redaksiyasında müxbir kimi qələmini sınamağa başlayıb. Qısa müddət ərzində hazırladığı süjetlər, çoxsaylı ədəbi-bədii və ictimai-siyasi verilişlərlə öz jurnalist dəsti-xəttini təsdiq edib. Eyni zamanda çoxsaylı veriliş və sənədli filmlərin səsləndirilməsində yaxından iştirak edib. 2024-cü ildən Mətin Natiq oğlu Abbaslı "Naxçıvan Enerji" MMC-nin mətbuat katibi və "Naxçıvan xəbərləri" sayıtının baş redaktorudur. "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı ilə təltif edilib.

✵ ✵ ✵

Şəbnəm Hüseyn qızı Həmzəyeva 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. 2000-2004-cü illərdə Bakı Dövlət Universitetində "Kimya" ixtisası üzrə təhsil alıb. 2018-ci ildə Naxçıvan Televiziyasının "Sənədli filmlər və dublyaj redaksiyası"nda redaktor kimi əmək fəaliyyətinə başlayıb. Müxtəlif səpkili sənədli filmlərin tərcüməsi və səsləndirilməsi ilə məşğul olub. 2019-cu ildən "Novosti Naxçıvana" rus dilində xəbərlər proqramının və 2024-cü ildən efirə təqdim olunan "Ölkəmizi tanıyaq" yeni teleproqamın redaktoru və aparıcısıdır.

Nicat Vəli oğlu Quliyev 1990-cı ildə Şərur rayonunun Xanlıqlar kəndində anadan olub. 2011-2015-ci illərdə Naxçıvan Dövlət Universitetində təhsil alıb. 2014-cü ildə "Naxçıvanın səsi" Radiosunda əmək fəaliyyətinə başlayıb. 2018-ci ildə Naxçıvan Teleradiosunun "Xəbərlər" və "İctimai-siyasi məsələlər" redaksiyalarında redaktor vəzifələrində çalışıb. Bu illər ərzində televiziya və aparıcılıq sahəsində 10-a yaxın təkmilləşmə kurslarında iştirak edib. 2020-ci ildə "İctimai-siyasi məsələlər" redaksiyasına baş redaktor təyin olunub. Müxtəlif səpkili verilişlərin müəllifi və aparıcısı olmaqla yanaşı "100 ilin muxtariyyatı", "100 ilin Türkiyəsi", "14 iyul zirvəsi" və bir çox sənədli televiziya filmlərinin ssenari müəllifidir. 2025-ci ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub.

✵ ✵ ✵

Şövkət Etibar qızı Kərimli 1998-ci ildə Naxçıvan şəhərində anadan olub. 2016-2020-ci illərdə Naxçıvan Dövlət Universitetində "Bilogiya müəllimliyi" ixtisası üzrə təhsil alıb. 2020-ci ildən Naxçıvan Teleradiosunda kənar əməkdaş kimi fəaliyyət göstərib. İlk olaraq radioda "Arzular, istəklər", "Günə başlarkən", "İstirahət vaxtı", müəllifi olduğu "Radioqram" verilişlərinin aparıcısı olub. Bir ildən sonra televiziyada "Xəbərlər" proqramının iki il aparıcısı və reportyoru vəzifəsində çalışıb. Hazırda "Aparıcılar qrupu"nun əməkdaşıdır. "Öndəsən", "Reportyor" proqramlarının müəllifi və aparıcısıdır.

NAXÇIVAN TELERADİOSUNUN REJİSSOR VƏ RƏSSAM HEYƏTİ

...Televiziya və radio verilişi bir müəllifin məhsulu deyil. Burada rejissorun, operatorun, səs rejissorunun, tərtibatçı rəssamın, montajçının, diktorun və texniki işçilərin əməyi var. Teatr və kinematoqrafiyada olduğu kimi televiziyada da rejissorun iştirakı zərurudir. Çünki hərəkətin yönə alınması, onun surəti və ahəngi, intonasiyası, üsul axtarışı, səs və təsvir həlli, montaj forması - bütün bunların hamısı son nəticədə vahid rejissor fikrinin ardıcıl həyata keçirilməsi ilə bağlıdır. Radioda isə rejissorun iştirakı bir çox aspektlərdən asılıdır. İlk növbədə o, verilən radiomətnləri və ssenarilər üzərində müəllif aparıcılarla, dəvət olunan aktyor və çıxışçılarla rejissor qeydlərini edib efirə hazırlayan məsul şəxsdir. Radio rejissoru hazırlanan bütün radio verilişlərində və radiotamaşalarda müxtəlif səs diapozonlarından, nizamlanmış mikrofonlardan, effektli səsyazmalarından, musiqi parçalarının, interşumların yerli-yerində tətbiqinə nail olan yaradıcı şəxsdir. Əgər televiziyada görüntüdürsə, radioda isə əsas səsdir. Naxçıvan Televiziyasının və Radiosunun rejissorları bu günə kimi verilən tövsiyə və tapşırıqları hazırladıqları radioveriliş və tamaşalarda, telefilmlərdə, filmtamaşalarda dəqiqlikə yerinə yetiriblər.

Əsgər Əhməd oğlu Əsgərov (Ə.Əhmədoğlu) 1926-cı ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Televiziyasının ilk yerli rejissorlarından biri olub. Naxçıvan Teatrında rejissor işləyən Ə.Əsgərov 1963-cü ildən 1980-ci ilə kimi televiziyanın baş rejissoru vəzifəsində çalışaraq "Ədəbi-bədii" verilişlər redaksiyasının da rejissoru kimi özünü tanıdıb. Bu illərdə çoxsaylı canlı televiziya tamaşalarına quruluş verib. O dövr üçün ənənəvi bayram verilişlərini, rəngarəng ədəbi-bədii və canlı konsert proqramlarını hazırlayıb. 1980-1998-ci illərdə "İctimai-siyasi verilişlər" redaksiyasının rejissoru olub. Müxtəlif səpkili verilişləri efirə təqdim edib. "Özgə anası" televiziya tamaşası onun televiziyada son rejissor işi olub. Yenidən teatra qayıdıb və "Beşmanatlıq gəlin", "Ər və arvad" "Əlli yaşında cavan", "Ürək çalanlar" musiqili komediyalarına quruluş verib. Ömrünün sonuna kimi sevimli peşəsindən ayrılmadan teatrda çalışıb. 2008-ci ildə dünyasını dəyişib. Ruhu şad olsun!

✵ ✵ ✵

Fikrət İbrahimxəlil oğlu Qasımov 1936-cı ildə Naxçıvan şəhərində anadan olub. Gözəl xanəndəlik məharətinə və musiqi qabiliyyətinə malik olan Fikrət Qasımov 1963-cü ildə Naxçıvan Televiziyasında rejissor köməkçisi olaraq əmək fəaliyyətinə başlayıb. 35 yaşında Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni - maarif fakültəsinə qiyabi yolla daxil olub. 1970-90-cı illərdə televiziyanın "İctimai-siyasi verililşlər" redaksiyasında rejissor vəzifəsində çalışıb. Əsasən kənd təsərrüfatı və kənd həyatından bəhs edən verilişlərin hazırlanmasına rejissorluq edib. Gözəl musiqi duyumu olduğundan verilişlərinin musiqi



tərtibatlarını da özü həll edib. Başqa ədəbi-bədii və ictimai-siyasi verilişlərin də hazırlanmasında öz rejssor bacarığını üzə çıxarıb. 1988-ci ilin sentyabr ayından yazıçı-jurnalist Hüseyn Əsgərovun redaktorluğu və aparıcılığı ilə ekrandan görünməyə başlayan və ilk günlərdən özünə geniş tamaşaçı auditoriyası qazanan "Ayrılıq" ictimai-siyasi, publisisitik televiziya proqramının ilk quruluşçu rejissoru da Fikrət Qasımov olub. Xeyirxah, səmimi insan, məsuliyyətli telerejissor istedadlı müğənni Fikrət Qasımov 1999-cı ildə dünyasını dəyişib. Ruhu çad olsun!

* * *



Ziya Ağa oğlu Həsənov 1943-cü ildə Naxçıvan şəhərində doğulub. 1963-cü ildə Naxçıvan radiosunun səs operatoru vəzifəsində çalışmağa başlayıb. 40 illik əmək fəaliyyətinin 20 ilini radioda, 20 ilini isə televiziyada səs rejissorluğuna həsr edib. Bu illər ərzində saysız-hesabsız televiziya və radio verilişlərinin səs tənzimləməsinə, qüsursuz efir təqdimatlarına imza atıb. 2002-ci ildə təqaüdə çıxıb.

* * *



Məmməd Mustafa oğlu Quliyev 1935-ci ildə Naxçıvan şəhərində anadan olub. 1965-1990-cı illərdə Naxçıvan Teleradiosunda səs operatoru və səs rejissoru vəzifəsində işləyib. Bu illər ərzində çoxsaylı, dövlət əhəmiyyətli tədbirlərin canlı yayımını və yazılışını peşəkarlıqla həyata keçirib. 2018-ci ildə Bakı şəhərində dünyasını dəyişib. Ruhu çad olsun!

* * *

Əhməd Cəfər oğlu İmanov 1948-ci ildə Naxçıvan şəhərində anadan olub. 1969-cu ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetni qiyabi yolla bitirib. 1965-ci ildə Naxçıvan Telerdaiosunda rejissor assistenti kimi işə qəbul olunub. İlk rejissor işi yazıçı dramaturq Firudin Ağayevin "Burdan quş da uça biməz" canlı televiziya tamaşası olub. Ədəbi-bədii verilişlərin və canlı televiziya tamaşalarının rejissoru Ə.İmanov 1980-cı ildə televiziyanın baş rejissoru təyin olunub. Müxtəlif illərdə Leninqrad (indiki Sankt Peterburq) və Moskvada Ümumittifaq Televiziya və Radio İşçilərinin Təkmilləşdirmə İnstitutunda ixtisasartırma kurslarını keçib. Bu illərdə də "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 2002-ci ildə səhhəti ilə bağlı təqaüdə çıxıb.

Ədalət Məşhədi Qənbər oğlu Qənbərov 1950-ci ildə Naxçıvan şəhərində anadan olub. İndiki Naxçıvan Dövlət Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. 1970-1988-ci illlərdə televiziyada rejissor köməkçisi və rejissor assistenti vəzifələrində çalışıb. İşgüzarlığı və operativliyi ilə seçilib. Dəfələrlə fəxri fərman və diplomlarla təltif olunub. 1988-ci ilin sentyabrından 1989-cu ilin iyun ayına kimi Moskvada Ümumittifaq Televiziya və Radio İşçilərinin Təkmilləşdirmə İnstitutunda "Sənədli filmlər rejissoru" ixtisası üzrə 10 aylıq kurs keçib. Böyük arzularla Naxçıvana qayıdıb "Naxçıvan folkloru" adlı film üzərində işləmək istəyib. Lakin amansız ölüm nəinki bu filmi çəkməyə, hətta onun ürəyindəki bütün arzularını həyata keçirməyə imkan verməyib. 1989-cu ilin iyul ayında qəflətən dünyasını dəyişib. Ruhu şad olsun!

* * *

Əkbər Məmməd oğlu Əliyev 1951-ci ildə Naxçıvan şəhərində doğulub. 1980-ci ildə qiyabi yolla indiki Naxçıvan Dövlət Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirib. 1975-ci ildə rejissor assistenti kimi televiziyada əmək fəaliyyətinə başlayıb. "Xəbərlər" proqramının aparıcı rejissoru olmaqla irihəcmli müxtəlif mövzulu verilişlərin hazırlanmasında quruluşçu rejissor kimi də yaxından iştirak edib. 2009-2017-ci illərdə "Proqram buraxılış və əlaqələndirmə" direksiyasının direktoru vəzifəsində çalışıb. 2017-ci ildə təqaüdə çıxıb.

* * *

.

Faiq Abbas oğlu Musayev (F.Abbasoğlu)

1957-ci ildə Şərur rayonunun Yuxarı Aralıq kəndində dünyaya gəlib. 1979-cu ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. "Komediyalar aləminə səyahət" diplom verilişi ilə Azərbaycan Televiziyasına təyinat alıb. 1980-1981-ci illərdə Əfqanıstanda hərbi qulluqda olub. 1981-1983-cü illərdə Azərbaycan Televiziyasının "Günün ekranı" xəbərlər proqramında və "Ədəbi-dram verilişləri" redaksiyasında rejissor köməkçisi işləyib. Elə orada 1982-ci ildə "Metranpaj" televiziya tamaşası ilə sərbəst televiziya rejissorluğuna başlayıb. Gənc rejissor 1983-cü ildən taleyini Naxçıvan Teleradiosuna bağlayıb. Qısa zamanda hazırladığı əyləncəli ədəbi-bədii verilişlərlə, teletamaşaları ilə tamaşaçıların və həmkarlarının diqqətini cəlb edib. 1987-1989-cu illərdə Moskvada Ümumittifaq Televiziya və Radio İşçilərinin Təkmilləşdirmə İnstitutunda 10 aylıq kurs keçib. O dövrün tanınmış rus telerejissou, "Nə? Harda? Nə vaxt" populyar televiktorinasının müəllifi V.Voroşilovdan dərs alıb. Ali dərəcəli televiziya rejissoru kimi Naxçıvana – doğma kanala qayıdıb yenidən yaradıcılıq fəaliyyətinə başlayıb. İrihəcmli sənədli televiziya filmlərinə, müxtəlif janrlı televiziya tamaşalarına, film-konsertlərə, müxtəlif səpkili telekompozissiyalara yeni üslübda, yeni rejissor yanaşmaları ilə quruluş verib. 2000-ci ildə Naxçıvan Teatrının səhnəsində C.Məmmədquluzadənin "Qurbanəli bəy" tamaşası ilə quruluşçu-rejissor kimi özünü sınayıb. 12 il Naxçıvan Teleradiosunda bədii rəhbər vəzifəsini daşıyıb. 2012-2015-ci illərdə Naxçıvan Dövlət Universitetinin "Teatr və mədəniyyətşünaslıq" kafedrasında müəllim kimi də fəaliyyət göstərib. "Ulu çinar, Xan çinar" sənədli televiziya filmi və "Yasda toy əhvalatı" filmtamaşası onun son uğurlu ekran əsərlərindəndir. Bu illərdə dövlət səviyyəsində müxtəlif fəxri fərman və diplomlarla təltif olunub. 2005-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, Azərbaycan milli mətbuatının 150 illiyində Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2025-ci il tarixli Sərəncamı ilə "Prezidentin Fəxri Diplomuna" və "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalına layiq görülüb. 44 il Azərbaycan teleməkanında çalışan rejissor Faiq Abbasoğlu 2025-ci ilin may ayından təqaüdə çıxıb.

* * *

Natiq Həsən oğlu Əsgərov 1961-ci ildə Naxçıvan şəhərində doğulub boya-başa çatıb. Orta məktəbi bitirdikdən sonra Naxçıvan Teleradiosuna üz tutub. 1984-cü ildə televiziyada səs operatoru vəzifəsində çalışmağa başlayıb. Həmin ildə ilk dəfə gənc rejissor Faiq Abbasoğlunun Naxçıvan Televiziyasında quruluş verdiyi "Sehirli kürsü" telenovellasının səs rejissorluğunu edərək seçilən musiqi parçalarını aktyorların studiya səslənməsi ilə ardıcılıqla sintezləşdirib birbaşa videolentə qüsursuz köçürülməsinə nail olub. Bu tamaşadan sonra bütün rejissorlar gənc səs rejissoru Natiq Əsgərovla canlı efirdə də işləməyə çalışıblar. İrihəcmi ədəbi-bədii, ictimai-siyasi və bayram verilişlərinin çəklişlərində o, səs rejissoruluğunu, eyni zamanda səs operatorluğunu da böyük məsuliyyətlə həyata keçirib. 2000-ci ilin əvvəllərində ailəvi Bakıya köçərək özəl şirkətlərindən birində əmək fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Süsən Elmixan qızı Rüstəmova 1969-cu ildə Naxçıvan şəhərində anadan olub. 1987-1992-ci illərdə Azərbaycan Dövlət Texniki Universitetində ali təhsil alıb. 1994-cü ildən Naxçıvan Radiosunun səs operatoru, bu gün isə efir rejissoru vəzifəsində çalışan Süsən Rüstəmova "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

❋ ❋ ❋

Mirşahin Faiq oğlu Mirişli 1982-ci ildə Naxçıvan şəhərində anadan olub. 2002-ci ildə Naxçıvan Dövlət Universitetini hüquqşünas ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2001-2005-ci illərdə Naxçıvan Televiziyasında videomontaj operatoru və rejissor kimi əmək fəaliyyətinə başlayıb. Bu illər ərzində Ulu öndərin Naxçıvan dövrünə həsr olunmuş "Əsrə bərabər üç il" sənədli telefilmi, Cəlil Məmmədquluzadənin "Poçt qutusu", "Dəllək", "Pirverdinin xoruzu", "Qurbanəli bəy", Anarın "Zarafat" hekayələri və jurnalist Səməd Canbaxşıyevin "Məsləhət", "Hər şey yaxşı olacaq" ssenariləri əsasında hazırladığı filmtamaşalar

bu gün Naxçıvan Teleradiosunun filmotekasında saxlanılan ən gözəl sənət nümunələridir. 2006-2023-cü illərdə Azərbaycan Dövlət Gömrük Komitəsində müxtəlif vəzifələrdə çalışıb. "Dövlət qulluğunda fərqlənməyə görə " medalı və müxtəlif yubiley medalları, döş nişanları, fəxri fərmanlarla təltif olunub. 2023-cü ildən təqaüddədir. "Konstitusion insan və vətəndaş hüquqları", "Azərbaycan vətəndaşının konstitusion vəzifələri", "Qaçaqmalçılq" kitablarının müəllifidir.

✵ ✵ ✵

Vahid Müzəffər oğlu Səfərovli 1962-ci ildə Naxçıvan şəhərində anadan olub. 2003-2016-ci illərdə televiziyada "Sənədli filmlər və dublyaj redaksiyası"ının baş redaktoru, "Ədəbi-bədii və publisistik verilişlər" redaksiyasının rejissoru vəzifələrində çalışıb. "Nalbənd", "Qızıl fırça", "Qara kəmər", "Kəhrizlərimiz", "Əshabi-Kəhf" kimi telefilmlərin quruluşçu rejissoru olub. Yaddaqalan ədəbi-bədii verilişlərlə yanaşı bir çox müxtəlif səpkili verilişlərin də hazırlanmasında rejissor kimi yaxından iştirak edib. 2016-cı ildə Naxçıvan Teleradiosundan ayrılıb.

✵ ✵ ✵

Vüqar Valeh oğlu Mehdiyev 1988-ci ildə Naxçıvan şəhərində doğulub. 2006-2010-cu illərdə Naxçıvan Dövlət Universitetinində "Təsviri incəsənət" ixtisası üzrə təhsil alıb. Rəsm əsərləri bir çox sərgilərdə nümayiş olunub. 2011-ci ildən televiziyada rejissor vəzifəsində çalışır. "Balaban", "Gəmiqaya", "Oğlanqala", "Çalxanqala", "Əli bəy Hüseynzadə" və bir çox televiziya filmlərinə quruluş verib. Çəkdiyi studiya verilişlərinin əksəriyyəti rəssam təxəyyülünün yeni-yeni çalarlarında öz əksini tapıb. Hazırladığı 2-5 dəqiqəlik müxtəlif mövzulu videoçarxlar efir keçidlərində özünün aktuallığı və rənarəngliyi ilə yadda qalır. Xüsusilə Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevlə bağlı günün nəbzini tutan videoçarxlar, 44-günlük Vətən Müharibəsinin vüsətini, əzəmətini ritmik kadrlarla özündə əks etdirən telekeçidlər hər bir gəncdə yüksək vətənpərvəlik əhval ruhiyyəsini yaradır.

Sevinc Abbas qızı Qədimova 1975-ci ildə Babək rayonunun Tumbul kəndində dünyaya göz açıb. 2008-ci ildə Naxçıvan Radiosunda diktor kimi əmək fəaliyyətinə başlayıb. Sonrakı illərdə səsyazma operatoru və bu gün isə radionun efir rejissoru vəzifəsində çalışır. Bu illərdə radio və televiziyada saysız-hesabsız verilişləri, telefilmləri ürəyəyatan həlim, bədii səsi ilə səsləndirib.

* * *

Sabir Firudin oğlu Qədimov 1937-ci ildə Naxçıvan şəhərində anadan olub. 1961-1966-ci illərdə Moskva Krupskaya adına Xalq Universitetinin "Təsviri incəsənət" fakültəsində təhsil alıb. 1970-ci ildən SSRİ və Azərbaycan Rəssamlar İttifaqının üzvü olub. 1971-1985-ci illərdə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin baş rəssamı vəzifəsində çalışıb. Baş rəssam kimi studiyanın bütün bədii tərtibatını həll edib. Çəkilən bir çox teletamaşalara quruluş verib. 1984-ci ildə



quruluş verdiyi "Sehirli kürsü" televiziya tamaşası özünün orjinal səhnə tərtibatı ilə yadda qalıb. Naxçıvan Dövlət Musiqili Dram Teatrında Orxan Kamalın "Yad qızı" əsərinə (quruluşçu rejissor Vəli Babayev, baş rollarda Sofya Hüseynova və Sona Mirzəyeva) lakonik, rəngarəng səhnə tərtibatı verib. Portret, natürmort, tematika kompozissiyalı tabloları bir çox xarici ölkələrdə sərgilənib. 1971-1985-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı Gənclər bölməsinin rəhbəri olub. 1970-ci ildə "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 1985-ci ildə vəfat edib. Ruhu şad olsun!



Əbülfəz Marlen oğlu Axundov 1961-ci ildə Naxçıvan şəhərində anadan olub. 1981-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinini "Tərtibatçı rəssam" ixtisası üzrə bitirib. 1984-cü ildə SSRİ Rəssamlar İttifaqına üzv seçilib. 1998-2008-ci illərdə Naxçıvan Televiziyasında quruluşçu rəssam vəzifəsində çalışıb. Bu illərin "Yeni il" və "Novruz" bayram verilişləri onun bir-birindən fərqli studiya tərtibatında hazırlanıb. "Göydən düşən mələk", "Yurd itkisi", "Şeir bülbülləri", "Haray", "Şəhid məzarına yazılan məktub" teletamaşalrına, yaddaqalan bir çox silsilə ədəbi-bədii verlişlərə quruluşçu rəssam kimi efir həyatı verib. 2000-2011-ci illərdə Naxçıvan Dövlət Dram Teatrında 40-dan çox səhnə əsərinin quruluşçu rəssamı olub. Bir çox fəxri fərman və diplomlara, 2004-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülüb. 2022-ci ildə dünyasını dəyişib. Ruhu şad olsun!

❋ ❋ ❋

Arzu Zakir oğlu Novruzov 1986-cı ildə Naxçıvan şəhərində anadan olub. 2008-ci ildə Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakültəsini təsviri incəsənət və rəsmxət müəllimliyi ixtisası üzrə bitirib. 2024-cü ildə isə NDU "Beynəlxalq münasibətlər və hüquq" fakültəsində beynəlxalq mmünasibətlər ixtisası üzrə ikinci təhsil alıb. 2009-cu ildən etibarən Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində baş rəssam, eyni zamanda Məmmədtağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında quruluşçu rəssam vəifələrində işləyib.

Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvüdür. 2012, 2013 və 2015-ci illərdə ölkə Prezidentinin yaradıcı gənclər təqaüdünə layiq görülüb. Gənc yaşlarında dəfələrlə muxtar respublika səviyyəsində keçirilmiş foto və rəsim sərgilərində birincilik qazanıb. 2007-ci ildə İran İslam Respublikasının Urmiya şəhərində keçirilmiş 14-cü Beynəlxalq Rəsm Festivalında ölkəmizi təmsil edib və festivalın sertifikatı ilə təltif olunub. Həmin ildə Polşada keçirilmiş Rembrandt van Rijn sərgisində də əsəri sertifikatla qiymətləndirilib.

Arzu Novruzovun əsərləri ABŞ, Almaniya, Rumıniya, Rusiya, Türkiyə, İtaliya, İran və Polşada keçirilmiş beynəlxalq sərgilərdə nümayiş etdirilib və Naxçıvan Dövlət Rəsm Qaleriyasında o cümlədən yerli, xarici şəxsi kolleksiyalarda saxlanılır. 2020-ci ildə nəşr olunmuş ""Gəmiqaya" qayaüstü rəsmləri" kitabının müəlliflərindən biridir.

Televziya fəaliyyəti dövründə irihəcmli bayram verilişlərinin quruluşçu rəssamı olmaqla, "Ömür qatarı" və "Muzeydə bir gün" silsilə verilişlərin hazırlanmasında da iştirak edib. Həmçinin "Təsvir alimi", "Yarımçıq şəkil" kimi bir sıra sənədli telefilmlərin quruluşçu rejissoru kimi fəaliyyət göstərmişdir.

Naxçıvanı tərənnüm edən videoların hazırlanmasında da müstəsna işlər görüb, xüsusilə kəndlərə aid videoçarxlar hazırlayıb. Ümumilikdə yüzə yaxın film, videoçarx və televiziya verilişinin müəllifidir.

Hazırda Naxçıvan Dövlət Universitetində "İncəsənət" fakültəsinin müəllimi kimi pedaqoji fəaliyyət göstərir və müstəqil yaradıcılıqla məşğuldur.

NAXÇIVAN TELERADİOSUNUN KİNO VƏ TELEOPERATORLARI

...Televiziya üçün ən əsas, ən vacib təbii görüntülərdir. Tamaşaçının diqqətini cəlb edən gözəl, məntiqli kino və telekadrlardır. Təbii ki, bu kadrlar da operatorların zövqündən, baxış seçimindən asılıdır. Bu illər ərzində studiyada saatlarla telekamera arxasında dayanan, çiyinlərində videokamera ilə həyatın hər bir anını lentə alan kino və teleoperatorlar illərin yaddaş səhifələrini vərəqlədikcə həmişə xatırlanırlar...

Aftandil Ağalar oğlu Qurbanov 1943-cü ildə Naxçıvan şəhərində anadan olub. 1963-cü ildən Naxçıvan Televiziyasının ilk teleoperatorlarından biri olub. 1980-ci ilədək canlı teletamaşaların, konsertlərin, studiya verilişlərinin kamera quruluşlarında aparıcı operator kimi iştirak edib. 1980-ci ildə Naxçıvan Teleradiosundan ayrılsa da, "Şərq qapısı" qəzetinin fotoqrafı kimi televiziya ilə də daim əməkdaşlıq edib. 1990-1993-cü illərin məlum hadisələrinin, Naxçıvan MR Ali Məclisinin tarixi sessiyalarının nadir fotoları da Naxçıvan Televiziyasının keçmiş teleoperatoru Aftandil Qurbanova məxsusdur**.** Dünyasını dəyişib. Ruhu şad olsun!

Teleoperatorlar Qılman Zamanbəyov, Aftandil Qurbanov, Qadir Əliyev və rejissor Əkbər Əliyev.

❋ ❋ ❋

Ənvər Məmməd oğlu Rəhimov 1938-ci ildə indiki Babək rayonunun Əliabad kəndində (Əliabad qəsəbəsi) anadan olub. 1964-cü ildən kinooperator kimi taleyini Naxçıvan Teleradiosuna bağlayıb. 1983-cü ildən Azərbaycan Televiziyasının Naxçıvan üzrə bölgə operatoru təyin olunan Ə.Rəhimov 1999-cu ildə yenidən Naxçıvan Televiziyasında kinooperatorluğa başlayıb. Dəfələrlə diplom və fəxri fərmanlarla təltif olunub. 1980-ci ildə "Naxçıvan MSSR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 1-ci Vətən müharibəsi iştirakçısı, əmək veteranı Ənvər Rəhimov 2011-ci ildə təqaüdə çıxıb. 2024-cü ildə dünyasını dəyişib. Ruhu şad olsun!

İlham Əvəz oğlu Muradov 1951-ci ildə Şahbuz rayonunun Çayşahbuz kəndində anadan olub. 1977-ci ildə Naxçıvan Dövlət Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə qiyabi yolla bitirib. 1971-ci ildə Naxçıvan Televiziyasında rejissor köməkçisi vəzifəsində çalışmağa başlayıb. 1975-1991-ci illərdə teleoperator işləyib. Bu illər ərzində studiyadaxili və natura çəkilişlərinin canlı videoyazılarının aparıcı teleoeratorlarından biri olub. 1990-1991-ci illərdə Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyaların canlı yayımında İlham Muradovun kamerası həmişə ön planda dayanıb. 1991-2002-ci illərdə televiziya və radionun "Xəbərlər" redaksiyasında redaktor, böyük redaktor, 2005-2016-cı illərdə "Proqam buraxılış və əlaqələndirmə" şöbəsində proqram redaktoru vəzifəsində çalışıb. 2016-cı idə təqaüdə çıxıb.

* * *

Rauf İbrahim oğlu Ağayev 1950-ci ildə Xanlar rayonunda (indiki Göygöl) doğulub. 1973-cü ildə Naxçıvan Televiziyasında rejissor köməkçisi vəzifəsinə qəbul olunub. 1974-2020-ci illərdə kinooperator assistenti, kinooperator, teleoperator vəzifələrində yorulmadan çalışaraq sevimli peşəsindən ayrılmayıb. Bu illər ərzində müxtəlif fəxri fərmanlarla təltif olunub, "Təşəkkürnamə"lər alıb. 2020-ci ildə təqaüdə çıxıb.

* * *

Rauf İbrahim oğlu Nağıyev 1957-ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Televiziyasında 1975-ci ildə rejissor assistenti vəzifəsinə götürülüb. Hərbi xidmətini başa vurduqdan sonra 1977-ci ildə kinoperator assistent kimi yenidən burada əmək fəaliyyətinə başlayıb. 2000-ci ilə qədər kinooperator vəzifəsində çalışıb. "Torpaq uğrunda ölən varsa, vətəndir!", "Duman, gəl get bu dağlardan", "Tarixlə yaşayacaq ömür", "Durna teli" sənədli televiziya filmlərinin quruluşçu operatoru və bir çox ictimai-siyasi yönümlü, ədəbi-bədii verilişlərin operatoru olub. 2000-ci ildə televiziyadan ayrılıb.

Kamal Qasım oğlu Mirzəyev 1959-cu ildə Ordubad şəhərində dünyaya göz açıb. 1982-1997-ci illərdə Naxçıvan Televiziyasında rejissor köməkçisi, kinooperator assistenti və kinooperator vəzifələrində çalışıb. 1990-1993-cü illərdə Naxçıvanın ağır ictimai-siyasi həyatından çəkdiyi qeyri-adi kinosüjetləri və verilişləri bu gün də filmotekanın rəflərində saxlanılır. 1997-ci ildə doğma kanaldan ayrılıb.

* * *

Hidayət Dağıstan oğlu Bayramov 1965-ci ildə Naxçıvan şəhərində anadan olub. 1986-cı ildə Naxçıvan Televiziyasında işıqçı vəzifəsinə qəbul olub**.** 1988-2002-ci illərdə studiya operatoru və kinooperator kimi fəaliyyət göstərib. 2002-ci ildən Bakıda yaşayaraq özəl videoçəkilişlər və reklam işləri ilə məşğul olub. 2025-ci ilin oktyabr ayında qəflətən dünyasını dəyişib. Ruhu şad olsun!

* * *

Aqil Muxtar oğlu Məmmədov 1958-ci ildə Babək rayonunun Qoşadizə kəndində anadan olub. 1991-2023-cü illərdə Naxçıvan Teleradiosunda rejissor assistenti, kinooperator və teleoperator vəzifələrində çalışıb. Əsasən "Xəbərlər" redaksiyasının kinooperatou kimi çalışan Aqil Məmmədov 2023-cü ildə səhhətinə görə təqaüdə çıxıb və həmin ildə vəfat edib. Ruhu şad olsun!

Elçin Əsəd oğlu Baxşəliyev 1974-cü ildə Naxçıvan şəhərində doğulub. 1991-ci ildə Naxçıvan Televiziyasında işıqçı vəzifəsinə qəbul olunub. 1993-2017-ci illərdə videomontaj operatoru vəzifəsində çalışıb. Müxtəlif səpkili maraqlı verilişlərin, teletamaşaların, telefilmlərin, eyni zamanda irihəcmli "Yeni il" və "Noruz" bayramı verilişlərinin, 1999-cu ildə efirə təqdim olunan "Göydən düşən mələk" filmtamaşasının, eləcə də dövlət tədbirlərinin videomontajını həyata keçirib. 2017-ci ildən kino və teleoperator vəzifələrində çalışan Elçin Baxşəliyev bu gün televiziyanın "Xəbərlər" departamentində studiya operatoru vəzifəsində işləyir.

❋ ❋ ❋

Şahin Vəli oğlu Əliyev 1976-cı ildə Naxçıvan şəhərində anadan olub. 1993-cü ildə texniki işçi kimi işə qəbul olunan Ş.Əliyev uzunmüddətli hərbi xidmətdən sonra 1998-ci ildə yenidən televiziyada rejissor assistenti, kinooperator, teleoperator vəzifələrində çalışaraq əmək fəaliyyətini davam etdirib. Bu illərdə Cəlil Məmmədquluzadənin "Şeir bülbülləri" və şair Zaur Vedilinin "Yurd itkisi" filmtamaşalarının quruluşçu operatoru olub. Hazırda televiziyanın "Xəbərlər" departamentində studiya operatorudur.

❋ ❋ ❋

Emin Fəxrəddin oğlu Babayev 1979-cu ildə Naxçıvan şəhərində anadan olub. 1996-cı ildə Naxçıvan Teleradiosunda kinooperator assisenti vəzifəsinə işə qəbul olunub. Bir il sonra hərbi xidmətə yollanan Emin Babayev 1999-cu ildə, xidmətini başa vurdusqdan sonra yenidən Naxçıvan Televiziyasında kinooperator assisenti vəzifəsinə bərpa olunub. Qısa zamanda kinooperator vəzifəsinə yüksəlib. Səməd Canbaxşıyevin "Səyyah", Vaqif Ağalarovun hərbi-vətənpərvərlik verilişlərinin və bir çox telefilmlərinin kinooperatoru olub. Fəaliyyəti dövründə çoxsaylı televiziya filmlərinin, verilişlərin çəkilişində fəal iştirak edib. Eyni zamanda rejissoru Faiq Abbasoğlu olan "Yasda toy əhvalatı" filmtamaşasının, "Naxçıvan albomu", "Əbədiyyət" (müəllif Əhməd Əhmədov) televiziya filmlərinin quruluşçu operatorlarından biri olub. Bu gün də televiziyanın ən təcrübəli və yaradıcı operatorlarından biri kimi fəaliyyətini uğurla davam etdirir.

Samir Əyyub oğlu Mehdiyev 1977-ci ildə Naxçıvan şəhərində doğulub. 1994-cü ildə Naxçıvan Teleradiosunda işıqçı vəzifəsinə işə qəbul olunub. 1999-cu ildə radioda səs operatoru və 2004-cü ildən kinooperator vəzifələrində çalışaraq dövlət əhəmiyyətli tədbirlərin çəkilişlərində iştirak edib. "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. Bu gün də ənənəvi çəkilişlərdə məhsuldar iştirak edir.

❋ ❋ ❋

Rəşadət Məcid oğlu Əkbərov 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1996-2007-ci illərdə Naxçıvan Teleradiosunun texniki heyətində işıqçı vəzifəsində çalışıb. 2007-2010-cu illərdə "Lider" Televiziyasının Naxçıvan üzrə bölgə teleoperatoru kimi fəaliyyət göstərib. 2018-2019-cu illərdə efir operatoru və efir rejissoru, kinooperator vəzifələrində çalışıb. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin baş operatoru vəzifəsində fəaliyyətini uğurla davam etdirir.

❋ ❋ ❋

Zahir Zahid oğlu Rəhimov 1981-ci ildə Naxçıvan şəhərində anadan olub. 1999-cu ildə Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kinooperator vəzifəsinə qəbul olunub. 1999-2001-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra yenidən doğma kanala qayıdaraq 2001-2007-ci illərdə kinooperator kimi fəaliyyət göstərib. "Həqiqət günəşi", "Sənət məbədgahı: Naxçıvan Teatrı–125" sənədli televiziya filmlərinin, bir çox videoklip və videoçarxların operatoru və rejissoru olub. 2007-2009 illərdə "Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" Komitəsində Naxçıvan MR üzrə bölgə kinooperatoru vəzifəsində çalışıb. Hazırda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinidə baş mütəxəssis-xilasedici vəzifəsində çalışır. İşlədiyi bu qurumda da hadisələrdə və təlimlərdə kinooperator kimi iştirak edib. 2025-ci ilin sentyabrından Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin "İnformasiya proqramları" studiyasında operatorlar qrupunun videoçəkiliş operatoru vəzifəsində işləyir.

Ramin Yaşar oğlu Heydərov 1979-cu ildə Şahbuz rayonunun Nursu kəndində anadan olub. 2001-ci ildə Bakı Dövlət Universitetini "Regionşünaslıq" ixtisası üzrə bitirib. 2005-ci ildə Naxçıvan Teleradiosunda videomontaj operatoru kimi çalışmağa başlayıb. 2006-cı ildə "Ağ ölümün ölümü" filmtamaşasına montaj rejissoru kimi imza atan R.Heydərov sonrakı illərdə kinooperator kimi M.Arazın "Atamın kitabı" filmtamaşasının ikinci quruluşçu operatoru olub. Saysız-hesabsız televiziya verilişlərinin çəkilişlərini həyata keçirib. 2024-cü ildən "Naxçıvan-Energi" MMC-nin əməkdaşıdır.

* * *

Elçin İsa oğlu Həsənov 1985-ci ildə Babək rayonunun Hacıvar kəndində anadan olub. 2005-ci ildə orta ixtisas təhsili alıb, 2006-cı ildə Naxçıvan Teleradiosunda işıqçı vəzifəsinə qəbul olunub. Yaradıcı işə olan marağı sonrakı illərdə onun kinooperator kimi çalışmasına səbəb olub. Fəaliyyəti dövründə çoxsaylı televiziya verilişlərinin, kütləvi tədbirlərin çəkilişində fəal iştirak etməklə bərabər, "Şahplov", "Şahbəzəmə" və başqa qısametrajlı televiziya filmlərinin də quruluşçu operatoru olub. Hazırda televiziyanın studiya operatoru kimi fəaliyyətini davam etdirir.

* * *

Cavid Haqverdi oğlu Əliyev 1985-ci ildə Naxçıvan şəhərində doğulub. 2006-cı ildə televiziyada dekorator vəzifəsində çalışan C.Əliyev 2007-ci ildən bu günə kimi teleoperator vəzifəsində fəaliyyət göstərir. İlk "Kran teleoperatorluğu" ilə saysız-hesabsız telefilmlərin, konsertlərin, verilişlərin çəkilişlərini və canlı yayımlarını uğurla həyata keçirib.

Əfqan Cəlil oğlu Hüseynov 1986-cı ildə Şahbuz rayonunun Badamlı kəndində doğulub. 2008-2010-cu illərdə televiziyada dekorator vəzifəsində çalışıb. 2016-2023-cü illərdə kinooperator, ştatdankənar bölgə operatoru olub. 2023-cü ildən "Naxçıvan Teleradiosu" QSC-nin Şahbuz rayonu üzrə bölgə operatorudur.

* * *

Ramin Nəriman oğlu Salahzadə 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-ci ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunu bitirib. 2011-ci ildə Naxçıvan Teleradiosunda kinooperator vəzifəsinə qəbul olunub. "Sədərəkdə yazılan gündəlik" telefilminin, "Yasda toy əhvalatı" filmtamaşasının və bir çox yaddaqalan ədəbi-bədii, publistik verilişlərin quruluşçu operatoru olub. 2021-ci ildən Naxçıvan MR Ədliyyə Nazirliyinin əməkdaşıdır.

* * *

Azər Natiq oğlu Həsənov 1981-ci ildə Naxçıvan şəhərində anadan olub**.** 2011-ci ildə Naxçıvan Teleradiosunda kinooperator vəzifəsinə qəbul olunub. Bir çox telefilmlərin və verilişlərin quruluşçu operatoru olub. "Ulu çinar, xan çinar" telefilmi onun 2022-ci ildə lentə aldığı uğurlu işlərindən biridir.

Nifti Qəşəm oğlu İbrahimov 1972-ci ildə Babək rayonunun Sirab kəndində anadan olub. 2012-ci ildən Naxçıvan Televiziyasında kinooperator vəzifəsində çalışmağa başlayıb. Hər zaman çəkilişlərdə görüntülərin müxtəlifliyinə və dolğunluğuna ciddi fikir verib. İrihəcmli bayram verilişlərinin və konsert proqramlarının çəkilişlərində yaxından iştirak edib. Fəaliyyətini bu gün də uğurla davam etdirir.

❋ ❋ ❋

Səxavət Rasim oğlu Məmmədov 1984-cü ildə indiki Kəngərli rayonunun Xok kəndində anadan olub. 2012-2013-cü illərdə Naxçıvan Teleradiosunda teleoperator vəzifəsində çalışıb. 2013-2021-ci illərdə televiziya üzrə kinooperator vəzifəsini icra edib. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin Kəngərli rayonu üzrə bölgə operatorudur.

❋ ❋ ❋

Elşad Şəmil oğlu Heydərov 1980-ci ildə Culfa rayonunun Saltaq kəndində anadan olub. 2000-ci ildə Bakı Texniki Kollecini bitirib. 2014-cü ildə televiziyada kinooperator vəzifəsi ilə əmək fəaliyyətinə başlayıb. Bir çox yaddaqalan silsilə proqram və verilişlərin, xüsusilə "Zəhmətkeş" ailə təsərrüfatçılarının əmək fəailiyyətlərindən bəhs edən proqramın quruluşçu operatoru olub. "Yeni il" və "Novruz" bayramı verilişlərinin, bir çox teletamaşaların, telefilmlərin, film-konsertlərin çəkilişlərində fəal iştirak edib. 2019-cu ildə Azərbaycan Televiziyasında, 2023-2024-cü illərdə "Real" Televiziyasında Naxçıvan Televiziyasında əxz etdiyi ənənəvi kino və teleoperatorluq sənətini davam etdirib. E.Heydərov "Günnüt" əməliyyatından sonra hazırlanan ilk reportajın operatoru olub. 44 günlük Vətən Müharibəsində, lokal xarakterli antiterror tədbirlərində, Qarabağa ezam olunaraq mütəmadi çəkilişlər aparıb. O, eyni zamanda "Müharibə jurnalistikası" təlimini müvəffəqiyyətlə başa vuraraq beynəlxalq sertifikatla təltif edilib. Bu gün Qarabağda gedən abadlıq quruculuq işlərini böyük həvəslə kamerasının yaddaşına köçürür. Hazırda 2023-cü

il noyabrın 4-də fəaliyyətə başlayan Naxçıvan Televeziyasının Bakı Bürosunda kinooperator vəzifəsində çalışır. "COP-29" Beynəlxalq Konfransının gündəlik məlumatlarının Naxçıvan Televiziyasında işıqlandırılmasında kinooperator kimi fəal iştirak edib.

❋ ❋ ❋

İlqar Lətif oğlu Məmmədov 1976-cı ildə Naxçıvan şəhərində anadan olub. 2006-2014-cü illərdə "İctimai Televiziya və Radio Yayımları" Şirkətinin Naxçıvan üzrə bölgə kinooperatoru vəzifəsində çalışıb. 2016-cı ildən bu günə kimi "Naxçıvan Teleradiosu" QSC-nin operatorlar qrupunun kinooperatorudur.

❋ ❋ ❋

Hidayət Vaqif oğlu Seyidov 1994-cü ildə Sədərək rayonunun Qaraağac kəndində anadan olub. 2016-2020-ci illərdə "Oğuz yurdu" qəzetində fotomüxbir vəzifəsində işləyib. 2017-2021-ci illərdə Naxçıvan Teleradiosunda ştatdankənar kinooperator olaraq çalışıb. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin Sədərək rayonu üzrə bölgə operatoru dur.

❋ ❋ ❋

Emin Ələkbər oğlu Novruzov 1986-cı ildə Ordubad rayonunda anadan olub. 2018-2021-ci illərdə Naxçıvan Televiziyasının operatorlar qrupunda kinooperator vəzifəsində çalışıb. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin Ordubad rayonu üzrə bölgə operatorudur.

Oruc Həsən oğlu Məmmədyarov 1975-ci ildə Culfa şəhərində doğulub. 2018-2021-ci illərdə Naxçıvan Televiziyasının operatorlar qrupunda kinooperator vəzifəsində çalışıb. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin Culfa rayonu üzrə bölgə operatorudur.

❋ ❋ ❋



Vurğun Rəsul oğlu Bağırov 1983-cü ildə Şərur rayonunun Kosacan kəndində anadan olub. 2019-2021-ci illərdə televiziyanın ştatdankənar kinooperator vəzifəsini yerinə yetirib. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin Şərur rayonu üzrə bölgə operatoru vəzifəsində çalışıb. 2025-ci ilin sonlarında Naxçıvan Teleradiosundan ayrılıb.

❋ ❋ ❋

İlqar Zülfüqar oğlu Məhərrəmov 1993-cü ildə Babək rayonunun Qaraxanbəyli kəndində anadan olub. 2020-ci ildə Naxçıvan Teleradiosunda kinooperator vəzifəsində çalışmağa başlayıb. "H.Əliyev-100: Ömrün Naxçıvan aşırımları", "Sədərəkdən Şuşaya" sənədli telefilmlərinin, "Üzbəüz" ictimai-siyasi, publisistik proqramın quruluşçu operatoru və yaddaqalan bir çox müxtəlif səpkili verilişlərin operatoru olub. 18 yanvar 2025-ci ildə Bakıda keçirilən "Sədərəkdən Şuşaya" filminin təqdimat mərasimində xüsusi Fəxri fərmanla təltif olunub. 2026-cı ildə öz ərizəsi əsasında televiziyadan ayrılıb.

Uğur Akif oğlu Bağırov 1998-ci ildə Babək rayonunun Babək qəsəbəsində doğulub. 2020-ci ildə Naxçıvan Dövlət Universitetini bitirib. 2021-ci ildə Naxçıvan Teleradiosunda kinooperator vəzifəsinə qəbul olunub**.** Müxtəlif səpkili verilişlərin və telefilmlərin quruluşçu operatoru olub. Son illərdə uğurlu operator işlərinə görə bir çox fəxri fərmanla təltif olunub. Hazırda "Naxçıvan Teleradiosu" QSC-nin rejissor-kinooperatorudur.

Naxçıvan Teleradiosunun kinooperatorlar otağı

NAXÇIVAN TELERADİOSUNUN DİKTORLARI

"-Mən 1959-cu ildən 1973-cü ilə qədər radioda işləmişəm. Hər gün saat 10-da işə gəlirdim. Gündəlk efirə gedən "Xəbərlər"i və başqa radio materiallarını götürüb tanış olurdum. Sonra efirqabağı diktor həmkarım Nurəddin Manafovla məşq edirdik. Nurəddin peşəkar pinəçi idi, amma gözəl nitq qabiliyyəti var idi. Saat 12-00-dən 13-00-a kimi, bir də saat 18-00-dan 20-00-a kimi efirdə olurduq. Proqram açılışlarını, xəbərləri, ictimai-siyasi və ədəbi-bədii verilişləri növbə ilə dinləyicilərə çatdırırdıq. Düzdür, efirdə səhvlərimiz də olurdu, amma tez bir zamanda bir-birimizin səhvini düzəldirdik. Həftədə bir dəfə istirahət günümüz olurdu"...

Zərifə Abdullayevanın bu xatirələri 2006-cı ildə Naxçıvan Televiziyasına verdiyi müsahibədən götürülüb. Naxçıvan Radiosunun ilk qadın diktorlarından biri olan Zərifə Abdullyeva haqqında ətraflı məlumat yoxdur. Naxçıvan şəhərində doğulub, burda da dünyasını dəyişib. Ruhu şad olsun!

❋ ❋ ❋



Nurəddin Manafov Naxçıvanda peşəkar pinəçi (çəkməçi) kimi tanınsa da, 1950-ci ilin əvvəllərində Naxçıvan Radiosunun efirində onun səsini eşidənlər heç də təəccüblənməyiblər. Çünki onu tanıyanlar bilirdilər ki, bu, qeyri-adi səs diapazonuna, gözəl nitq mədəniyyətinə malik olan Nurəddin Manafovun səsidir. Naxçıvan Radiosunun ilk kişi diktorlarından biri olub. Azərbaycanın tanınmış elm, mədəniyyət, incəsənət xadimləri ilə radio-studiyada apardığı canlı müsahibələr o dövrdə Naxçıvan dinləyiciləri üçün möcüzəli bir səs aləmi yaradıb. Apardığı ictimai-siyasi və ədəbi-bədii verilişlərdə onun səs tembrini dinləyicilər müxtəlif çalarlarda eşidiblər. 1985-ci ilin sonlarında diktorluq fəaliyyətini dayandırıb. Ömrünün sonuna kimi öz köhnə sənəti ilə, ustalıqla məşğul olub. Təssüf ki, onun haqqında da ətraflı məlumat yoxdur.

❋ ❋ ❋

Elza Salman qızı Salmanova Naxçıvan Televiziyasının ilk qadın diktoru kimi 1963-cü il martın 12-də "Mavi ekran" vasitəsilə Naxçıvan sakinlərini salamlayıb, Naxçıvan Televiziyasının efirə çıxması münasibətilə "Mavi ekran" tamaşaçılarına gözaydınlığı verib. Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinin məzunu Elza Salmanova 1972-ci ilə kimi Naxçıvan Televiziyasının aparıcı diktoru vəzifəsində çalışıb...

* * *

Məhəbbət İsa qızı Mehdiyeva 1945-ci ildə Naxçıvan şəhərində anadan olub. 1964-cü ildə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin rus bölməsinə daxil olub. 1969-cu ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirib. 1963-1964-cü illərdə Naxçıvan Televiziyasının diktoru vəzifəsində çalışıb və muxtar respublikada televiziyanın ilk qadın diktorlarından biri kimi tanınıb sevilib. 1970-ci ildə AMEA-nın Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində kiçik və böyük elmi işçi, 1984-cü ildən elmi-kütləvi işlər şöbəsinin müdiri, 1993-2003-cü illərdə elmi-kütləvi işlər üzrə direktor müavini vəzifələrində çalışıb. Filoloq, müzeyşünas, tərcüməsi, filologiya üzrə fəlsəfə doktoru (1980), "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" (1989), "Tərəqqi" medalı laureatı (2014),

"Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" (2018) Məhəbbət İsa qızı Mehdiyeva yarandığı vaxtdan çalışdığı Heydər Əliyev Fondundan 2021-ci ildə təqaüdə çıxıb.

Naxçıvan Teleradiosunun keçmiş diktorları Məhəbbət Mehdiyeva və Ələkəbər Qasımov.

* * *

Mehdi Abdulla oğlu Abdullayev 1937-ci ildə Naxçıvan şəhərində anadan olub. Azərbaycan Xarici Dillər İnstitutunda "Alman və ingilis dilləri" üzrə müəllim ixtisasına yiyələnib. Naxçıvan Televiziyasının ilk kişi diktoru Mehdi Abdullayev 1963-cü ildən başlayaraq Naxçıvan şəhərində keçirilən bütün bayram nümayişlərinin aparıcısı olub. Televiziyanın ilk illərində verilişlər az olduğundan alman dilində olan "Yaşıl əjdaha" və bir çox filmləri birbaşa tərcümə edib. Televiziyada işlədiyi 1964-1965-ci illərdə "Şkola sovetskix diktorov" (Sovet diktorlarının məktəbi) kursunu bitirib. Onun müəllimləri o dövrün öndə olan diktorları Balaşovdan, Leontyevadan və Levitandan dərs alıb. 1975-ci ildə Naxçıvan Televiziyasından ayrıldıqdan sonra ömrünün sonuna kimi Naxçıvan Şəhər 3 nömrəli orta məktəbdə alman dili müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olub. 1996-cı ildə 59 yaşında vəfat edib. Ruhu şad olsun!



Laləzar Əli qızı Hüseynova 1951-ci ildə Naxçıvan şəhərində doğulub. 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1974-cü ildə həmin institutun Naxçıvan Filialını bitirib. 1971-2017-ci illərdə Naxçıvan Teleradiosunda müxtəlif vəzifələrdə çalışıb. Uzun illər televiziyanın aparıcı diktoru olub. 1975-ci ildə Bakıda Naxçıvan keçirilən Naxçıvan günlərinə həsr olunmuş verilişləri canlı olaraq birbaşa Azərbaycan Televiziyasında efirə təqdim edib. 1997-2011-ci illərdə "İctimai-siyasi verilişlər" redaksiyasında böyük redaktor, televiziya və radionun "Xəbərlər" proqramında redaktor vəzifələrində çalışıb. Televiziya və radioda müxtəlif ədəbi-bədii verilişlər də çox zaman onun məlahətli səsi ilə səsləndirilib. 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına və bir çox fəxri fərmanlara, diplomlara layiq görülüb. 2017-ci ildən təqaüdə çıxan, 54 il yorulmadan mikrofon arxasında dayanan Laləzar Hüseynova bu gün də Naxçıvan Teleradiosu ilə əməkdaşlıq edir. Radionun "Bulaq başı" verilişinin daimi aparıcılarından biridir.

❋ ❋ ❋

Xəlil Ərrəhman oğlu Hüseynov 1945-ci ildə indiki Babək rayonunun Zeynəddin kəndində anadan olub. 1967-2008-ci illərdə Naxçıvan Dövlət Musiqili Dram teatrında aktyor işləyib. 1973-1989-cu illərdə Naxçıvan Teleradiosunun aparıcı diktorlarından olub. Səlis, aydın diksiyası ilə tamaşaçı və dinləyicilərin rəğbətini qazanıb. Filmtamaşaların, telefilmlərin çəkilişlərində aparıcı aktyor kimi də fəal iştirak edib. Dublyaj səsləndirmələri və peşəkar diktor məharəti ilə gənc teleradio əməkdaşlarına nümunə olub. X.Hüseynov 1999-cu ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına, 2005-ci ildə Prezident mükafatına, 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb. 2008-ci ildən Prezident təqaüdçüsüdür.

❋ ❋ ❋

Ələkbər Məmməd oğlu Qasımov 1959-cu ildə Naxçıvan şəhərində anadan olub. 1981-ci ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Mədəni-maarif fakültəsini "Teatr kollektivinin rəhbəri" ixtisası üzrə bitirib. Təyinatla Naxçıvan MR Mədəniyyət Nazirliyində fəaliyyəti başlayıb. Orda çalışdığı illərdə daim Naxçıvan Teleradiosu ilə əməkdaşlıq edib. Əsasən teatr və incəsənətlə bağlı verilişlərin müəllfi və aparıcısı kimi efir dalğalarında çıxış edib. 1989-1991-ci illərdə

Naxçıvan Teleradiosunda diktor vəzifəsində çalışıb. 1990-cı ilin məlum hadsiləri haqqında rəsmi məlumatları və 8 dildə Naxçıvan ziyalılarının iştirakı ilə gün ərzində 2 dəfə televiziya, 4 dəfə radio ilə verilən müracəti Azərbaycan dilində diktor kimi məhz Ələkbər Qasımov təqdim edib. Naxçıvan Dövlət Kukla Teatrı yaradılmasının təşəbbüskarı və qurucusu olub. Teatrın rəhbəri təyin olunması ilə əlaqədar diktorluqdan ayrılıb. Sənətşünasıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Teatr Xadimləri İttifaqının və Jurnalislət Birliyinin üzvü Ələkbər Qasımov bu gün də mədəniyyat və incəsənətlə bağlı verilişlərdə maraqlı söhbətləri, ədəbi-bədii fikirləri ilə Naxçıvan Teleradiosunun efir dalğalarında çıxış edir. 2000-2004-cü illərdə Naxçıvan MR Nazirlər Kabinetində şöbə müdirinin müavini işləyən Ə.Qasımov hazırda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Teatr və musiqi şöbəsinin aparıcı elmi işçisi, eyni zamanda Naxçıvan Dövlət Universitetinin Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimidir. O, dəfələrlə Naxçıvan Teleradiosunda da diktorlar, aparıcılar və redaktorlar üçün "Ustad dərsləri" keçmişdir. elmi katibi vəzifəsində çalışır.

❋ ❋ ❋

Samir Əli oğlu Hüseynov 1976-cı ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsillidir. 2001-ci ilin əvvəlindən 2004-cü ilin axırınadək Naxçıvan Teleradiosunda aparıcı diktor vəzifəsində çalışıb. "Xəbərlər" proqramının canlı və qüsursuz efir təqdimatına görə I dərəcəli diktor adına layiq görülüb. İrihəcmli bayram verilişlərinin, müxtəlif səpkili ictimai-siyasi və ədəbi-bədii verilişlərin aparıcılarından biri olmaqla həmişə efir mədəniyyəti ilə tamaşaçıların diqqətini cəlb edib. Hazırda özəl fəaliyyətlə məşğuldur.

❋ ❋ ❋

Əkrəm Rəsul oğlu Quliyev 1993-cü ildə Babək rayonunun Çeşməbasar kəndində anadan olub. 2014-cü ildən Naxıvan Teleradiosunda çalışıb. "Gülüş köşkü" silsilə əyləncəli satirik proqramın aparıcılığını edib. Radio və televiziyada bir çox ədəbi-bədii, ictimai-siyasi verilişlərin və telefilmlərin mətnlərini səsləndirib**.** 2016-cı ildən radionun "Xəbərlər" proqramının aparıcısı olmaqla yanaşı, radiokeçidləri, anons və reklamları diqqəti cəlb edən müxtəlif səs tembrləri ilə dinləyicilərə təqdim edib. 2025-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universteinin tələbə sıralarına qiyabi yolla qəbul olunub. Hazırda radioda diktorluq fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Xanım Elşən qızı Rüstəmzadə 1993-cü ildə Naxçıvan şəhərində anadan olub. 2015-ci ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirib. 2011-ci ildən Naxçıvan Televiziyasında aparıcı kimi fəaliyyətə başlayıb. 2017-2021-ci illərdə müxbir və bölgə müxbiri, 2021-2023-cü illərdə redaktor, 2024-cü ildən "İctimai-siyasi məsələlər" redaksiyasında redaktor və aparıcı vəzifələrində çalışıb. Hazırda xəbər aparıcısı kimi fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Həmid Zakir oğlu Quliyev 1992-ci ildə Babək rayon Sirab kəndində anadan olub. 2014-cü ildə Naxçıvan Dövlət Universitetinin "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasını bitirib. 2010-cu ildən 2013-cü ilə qədər "Kanal 35 və Naxçıvanın Səsi Radiosunda" müxbir, 2013-cü ildən 2018-ci ilə qədər Naxçıvan Dövlət Televiziya Və Radio Verilişləri Komitəsində müxbir, aparıcı vəzifələrində çalışıb. 2024-cü ildən aparıcılar qrupunun rəhbəridir.

Sənan İnqilab oğlu Bayramlı 1995-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. 2013-cü ildə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin "İngilis dili" ixtisasına qəbul olub. 2022-ci ildə Azərbaycan Teleradio Akademiyası və İstanbul Nişantaşı Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "İleri televizyon eğitimi" təlimini birinciliklə bitirib. 2020-ci ildə "Kanal 35" Televiziyası və "Naxçıvanın səsi" Radiosunda redaktor vəzifəsinə qəbul olunub. 2023-cü ildən etibarən Naxçıvan Teleradiosunda aparıcı vəzifəsində çalışır. Naxçıvan Radiosunda həftə içi hər səhər yayımlanan "Günə başlarkən" verilişinin aparıcılarından biri, eyni zamanda Naxçıvan Televiziyası efirində yayımlanan "Nə məsələdir?" verilişinin müəllifi və aparıcısı, həmçinin "NTV Səhər" ("Günaydın") proqramının aparıcılarından biridir.

NAXÇIVAN TELERADİOSUNUN MÜHƏNDİS-TEXNİKİ HEYƏTİ



Dünya kinosunun, radiosunun və televiziyasının inkişaf tarixi, ilk növbədə, texniki avadanlıq və optik cihazların meydana gəlməsi ilə bağlıdır. Çünki texniki avadanlıq və cihazların iştirakı olmadan heç bir yaradıcı uğurdan söhbət açmaq olmaz. Zaman-zaman təkmilləşən, müasirləşən kino, radio və televiziya avadanlıqları daim texniki yoxlamalara, təmirlərə ehtiyac duyub. Bu ehtiyaclar isə mühəndis-texniki heyətin təcrübəsi və peşəkarlığı ilə yerinə yetirilib.

Naxçıvan Teleradiosunun texniki heyətindən söhbət açarkən yaradıcı və texniki heyət üçün rahat iş şəraiti, səliqə-səhman yaradan xadimələrin, gecə-gündüz dayanmadan kino çəkilişlərinin uğurlu alınmasında yaradıcı heyətə yardımçı olan sürücülərin zəhmətlərini də unutmaq olmaz. Naxçıvan Teleradiosunun texniki avadanlıqları və texniki mühəndis heyəti illər axarında yeniləşib, təkmilləşib və bu gün teleradio ən müasir texnologiyalı teleradio avadanlıqlar ilə hərtərəfli fəalyyət göstərir. Kino və telekameraları, rejissor idarətmə pultu, işıq, səs, efir yayım sistemləri və radionun ümumi texniki avadanlıqları gündəlik texniki baxışla nəzarətdən keçirilir.

Teleradiounun texniki heyətinə ən müasir kompüter qrafika-montaj stolları arxasında əyləşib uğurlu montaj proseslərini həyata keçirən operetorlar da daxildir. Montaj işi texniki iş olsa da, bu gün ona yaradıcı proses kimi yanaşılır. Buna görə də son zamanlarda televiziyalarda montaj operatoru "montaj rejissoru" kimi təqdim olunur. "Montaj" sözü analiz deyil, o daha çox sintezdir. Ona görə də bu söz sonda yox, yaradıcı prosesin lap əvvəlində dayanmalıdır. Deməli, fikir yaranarkən artıq, "o" var və növbəti mərhələdə iştirakçı kimi ssenaridə, yəni görüntüdə, səsləndirmədə, aktyor oyununda ən fəal rol oynayır.

Montaj formalarının təkamülü göstərir ki, onun texnikasının dəqiqliyi, süjetin inkişaf xəttini tamaşaçı üçün aydın edir. "Montaj əsərdə sanki yavaş-yavaş ölür". Bu sözləri görkəmli rus kinorejissoru S.Yutkeviç deyib. O, yaradıcılığının əvvəlindən sonunadək ciddi şəkildə filmin quruluşunda montaj formalarına xüsusi diqqət yetirib. Ənənəvi montaj formaları bu gün də Naxçıvan Teleradiosunun peşəkar videomontajçıları tərəfindən uğurla həyata keçirilir.



Leysan Miryunis oğlu Seyidov 1922-ci ildə Gəncə şəhərində dünyaya göz açıb. Sonrakı illərdə Seyidovlar ailəsi Naxçıvan şəhərində məskunlaşıb. Gəncliyinin ilk illərində Leysan Seyidov Naxçıvan Şəhər Kino Birliyinin müxtəlif vəzifələrində çalışıb.1963-cü ildə Naxçıvan Televiziyasının "Proqram buraxılış" redaksiyasının kino yayımı üzrə şöbəsinə başçılıq edib. Kinojurnalların, eimi-kütləvi, multiplikasiya, sənədli və bədii filmlərin Naxçıvan Televiziyası ilə proqram üzrə gündəlik efir yayımını təşkil edib. Təşəbbüskarlığı və məsuliyyəti ilə örnək olan Leysan Seyidov 1992-ci təqaüdə çıxıb. 1999-cu ildə vəfat edib. Ruhu şad olsun!

* * *

Arif Baxşəli oğlu Əliyev 1933-cü ildə Naxçıvan şəhərində anadan olub. 1955-ci ildə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib. 1964-cü ildə Azərbaycan Radio-Televiziya Mərkəzində baş mühəndis vəzifəsində çalışıb. 1969-cu ildə Naxçıvan Teleradiosunun Texniki Mərkəzində direktor müavini, 1970-2000-ci illərdə isə direktor kimi texniki mərkəzə rəhbərlik edib. Əmək veteranı Arif Əliyev 1977-ci ildə "Naxçıvan MSSR Əməkdar mühəndisi" fəxri adına layiq görülüb. Dəfələrlə Naxçıvan MSSR Ali Sovetinin Fəxri fərmanları ilə təltif olunub. 2009-cu ildə vəfat edib. Ruhu şad olsun!

* * *

Tofiq Əli oğlu Məmmədov 1942-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Naxçıvan Şəhər Peşə Məktəbində "Radiolaşdırma və elektrikləşdirmə" ixtisasına yiyələnib. 1962-1969-cu illərdə Naxçıvan Teleradiosunda işıqçı, 1969-cu ildən 2011-ci ilədək radioda səs operatoru vəzifələrində çalışıb. Tofiq Məmmədov radio sahəsində uzun müddətli səmərəli fəaliyyətinə görə 2006-cı ildə "Tərəqqi" medalına layiq görülüb. Təqaüdçüdür.

Sultanov Məmmədbağır Məmmədbağır oğlu 1961-ci ildə Babək rayonunun Cəhri kəndində (indiki Cəhri qəsəbəsi) anadan olub. 1982-ci ildə Naxçıvan Teleradiosunda səhnə quraşdırıcısı (dekorator) kimi əmək fəaliyyətinə başlayıb. 1984-1992-ci illərdə iri babinli "3PMP" və "BETEKAM" tipli kiçik kasetli videomaqnitofonların videooperatoru olan M.Sultanov gecə-gündüz, yorulmadan irihəcmli bayram verilişlərinin, sənədli televiziya filmlərinin montajını edərək yüksək peşəkarlıq göstərib. Hazırda teleradionun təsərrüfat işləri üzrə bölmə müdiri vəzifəsində çalışır.

❋ ❋ ❋

Hüseyn Fikrət oğlu Abdullayev 1960-cı ildə Naxçıvan şəhərində anadan olub. 1984-cü ildə indiki Azərbaycan Texniki Universitetinin Radiotexnika fakültəsini bitirib. Həmin ildən də təyinatla Naxçıvan Teleradiosunda mühəndis kimi əmək fəaliyyətinə başlayıb. Çalışdığı illər ərzində sahə rəisi kimi səyyar televiziya studiyasının bütün çəkilişlərinə, irihəcmli bayram verilişlərinin və teletamaşaların videoyazı keyfiyyətinə məsuliyyətlə yanaşaraq, onların yüksək efir təqdimatına nail olub. 2002-ci ildə Naxçıvan Teleradiosundan ayrılan H.Abdullayev hazırda Bakıda, özəl şirkətdə radio-televiziya üzrə mühəndislik fəaliyyətini davam etdirir.

Növbə rəisi Nəriman Vəliyev və mühəndis Hüseyn Abdullayev.

❋ ❋ ❋

Nazim Süleyman oğlu İmanov 1962-ci ildə Şahbuz rayonunun Nursu kəndində anadan olub. "Elektron texnika" ixtisası üzrə 1985-ci ildə indiki Azərbaycan Texniki Universitetini bitirib. Təyinatla Naxçıvan Teleradiosuna göndərilib.1995-2016-cı illərdə videoyazı sexinin rəisi, videomontaj operatoru, texniki istehsalat sahəsi üzrə mühəndis vəzifələrində çalışıb. 1990-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin tarixi sessiyalarının texniki

cəhətdən keyfiyyətli videoyazılışı və videolentə qüsursuz köçürülməsi videooperator Nazim İmanovun təcrübəli mühəndis olduğunu bir daha sübut edib. "3PMP", "BETEKAM", "Panasonik" videomaqnitofonlarında, "Etüd" səyyar televiziya studiyasında saya gəlməyən müxtəlif səpkili irihəcmli verilişlərin çəkilişinə videooperator və montaj rejissoru kimi də imza atıb. 2016-cü ildən Naxçıvan Dövlət Film Fondunun əməkdaşdır.

❋ ❋ ❋

Zəfər Sabir oğlu İsmayılov 1962-ci ildə Naxçıvan şəhərində anadan olub. 1985-2010-cu illərdə Naxçıvan Televiziyasında səhnə quraşdırıcısı (dekorator) vəzifəsində çalışıb. Bu illər ərzində studiyanın bütün səhnə tərtibatlarında, iri həcmli "Yeni il" və "Novruz" bayramı verilişlərinin pavilyon çəkilişlərində yorulmadan öz vəzifəsini layiqincə yerinə yetirib. 2010-cu ildə Naxçıvan Televiziyasından ayrılıb.

❋ ❋ ❋

Məhsəti Əli qızı Nəsirova 1964-cü ildə Naxçıvan şəhərində anadan olub. 1988-ci ildə indiki Azərbaycan Texniki Universitetini bitirib. Həmin il də təyinatla Naxçıvan Teleradiosuna göndərilib. İlk illərdə kinolentlərin montaj operatoru olub. 1992-2009-cu illərdə yeni videomontaj aparatlarında montaj operatoru vəzifəsində çalışıb. Eyni zamanda irihəcmli studiya verilişlərinin videoyazısını lentə alıb. "Xəbərlər" in canlı yayımı zamanı kinosüjetlərin efirə təqdimatında videooperator kimi də iştirak edib. 2009-cu ildə doğma kollektivdən ayrılıb. Hazırda Bakı Slavyan Universitetində arxiv müdiri vəzifəsində çalışır.

Şəfəq Rüstəm qızı Rüstəmova 1960-cı ildə Naxçıvan şəhərində anadan olub. 1983-cü ildə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib. 1990-cı ildə Naxçıvan Radiosunda texnik-mühəndis kimi işə başlayıb. Uzun illər Naxçıvan Telaradiosunun baş mühasibi işləyən anası Firuzə Rüstəmova kimi Şəfəq də taleyini ömürlük Naxçıvan Teleradiosuna bağlayıb. Sonralar Şəfəq televiziyada videomontajçı kimi işləyib. Bu illər ərzində yüzlərlə ictimai-siyasi, ədəbi-bədii, musiqili-əyləncəli verilişlərin videomontajını həyata keçirib. Müxtəlif fəxri fərman və diplomlara layiq görülüb. Bu gün də "Xəbərlər" departamentinin videomontaj masası arxasında fəaiyyətini davam etdirir.

❋ ❋ ❋

Lətifə Qadir qızı Həsənova 1964-cü ildə Naxçıvan şəhərində anadan olub. 1982-1987-ci illərdə indiki Azərbaycan Texniki Universitetinin Radiotexnika fakültəsində təhsil alıb. 1993-cü ildə Naxçıvan RadioTeleviziya Mərkəzində usta vəzifəsində əmək fəaliyyətinə başlayıb. 2008-2009-cu illərdə Naxçıvan Teleradiosunda videoteka müdiri, 2009-2023-cü illərdə kadr işləri üzrə inspektor vəzifələrində çalışıb. 2023-cü ildən "Naxçıvan Teleradiosu" QSC-nin "Kadr və sənədlərlə iş sektorunun" müdiridir.

❋ ❋ ❋

Elçin Nadir oğlu Məmmədov 1974-cü ildə Naxçıvan şəhərində anadan olub. 1994-cü ildə Naxçıvan Teleradiosunda videomontaj operatoru kimi işə başlayıb. 2000-ci ildən "Kompüter qrafika" mərkəzinə başçılıq edən E.Məmmədov 2002-ci ildə Naxçıvan Televiziyasının tarixində ilk dəfə olaraq həmkarı Zaur Seyidovla birgə "Bu, Lətif Hüseynzadədir" televiziya filminin kompüter qrafika montajına imza atıb. Bu illər ərzində Elçinin başçılıq etdiyi "Kompüter qrafika" mərkəzində televiziyanın bütün telebaşlıqları, videoçarxları, saysız-hesabsız telefilmləri, film-konsertləri

hazırlanıb efirə təqdim olunub. Dəfələrlə fəxri fərman və diplomlara layiq görülüb. Bu gün Elçin Məmmədov "Naxçıvan Teleradiosu" QSC-nin "İnformasiya texnologiyaları" şöbəsinə rəhbərlik edir.

❋ ❋ ❋

Zaur Kərim oğlu Seyidov 1980-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-2003-cü illərdə Naxçıvan Teleradiosunda qrafika-montaj operatoru vəzifəsində çalışıb. Bu illər ərizində kinooperator kimi də öz məharətini göstərib. Rejissor Fərhad Zamanbəyov və Mirşahin Mirişli ilə bir çox videoçarxların, verilişlərin, tamaşaların hazırlanmasında aparıcı operator kimi yaxından iştirak edib. 2012-2021-ci illərdə Bakı Media Mərkəzində, 2021-2025-ci illərdə isə Azərbaycan Respublikası Prezident Administrasiyasının mətbuat xidmətində kinooperator vəzifəsində çalışıb.

❋ ❋ ❋

Nailə Rüstəm qızı Abbasova 1970-ci ildə Babək rayonunun Əliabad kəndində (indiki Əliabad qəsəbəsi) anadan olub. 1994-cü ildə Kiyev Politexnik İnstitutunu bitirib. 1994-cü ildə Naxçıvan Teleradiosunda mühəndis-texnik vəzifəsində əmək fəaliyyətinə başlayıb. Sonralar Naxçıvan Televiziyasında videomontaj operatorluğu ilə yaradıcı fəaliyyətini davam etdirərək, çoxsaylı ictimai-siyasi verilişlərin və bir çox televiziya filmlərinin montaj rejissoru olub. "Naxçıvan albomu" adlı üçhissəli sənədli televiziya filmi Nailə Abbasovanın ən uğurlu videomontaj işlərindən biridir.

❋ ❋ ❋

Samirə İbrahim qızı Səfərova 1978-ci ildə Naxçıvan şəhərində anadan olub. 1997-ci ildə Heydan xanım adına Naxçıvan Dövlət Tibb Texnikumunun Müalicə işi fakültəsini feldşer ixtisası üzrə bitirib. 2000-ci ildə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kompüterçi vəzifəsinə işə qəbul olunub. Hazırda "Naxçıvan Teleradiosu" QSC-də efir kompüterçisi vəzifəsində çalışır.

Rafiq Qərib oğlu Cəlilov 1980-ci ildə Qərbi Azərbaycanda Vedi rayonunun Xalisa kəndində anadan olub. 2001-ci ildə Naxçıvan Dövlət Universitetində "Telekomunikasiya üzrə informasiya sistemləri" ixtisası ilə bitirib. 2002-ci ildə Naxçıvan Televiziyasında rejissor assistenti vəzifəsi ilə əmək fəaliyyətinə başlayıb.

2003-2013-cü illərdə efir rejissoru kimi idarəetmə pultu arxasında çalışıb. Gündəlik "Xəbərlər", "Günorta saatı" kimi canlı verilişləri efirə təqdim edib. 2013-cü ildən televiziyada mühəndis vəzifəsində çalışır.

✵ ✵ ✵

Tariyel Məmməd oğlu Tahirov 1981-ci ildə Saatlı rayonunda anadan olub. 2 yaşında olarkən ailəsi Naxçıvan şəhərinə köçüb. 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 2002-2007-ci illərdə Naxçıvan Teleradiosunda səhnə quraşdırıcısı (dekorator) vəzifəsində çalışıb. Studiya və səyyar natura çəkilişlərində səhnə quraşdırmalarını işgüzarlıqla yerinə yetirib. 2024-cü ildə, 43 yaşında qəflətən dünyasını dəyişib. Ruhu şad olsun!

✵ ✵ ✵

İlqar Əkbər oğlu Orduxanov 1969-cu ildə Qərbi Azərbaycanda anadan olub. 2005-ci ildə televiziyada mühəndis kimi işə başlayıb. Tümen Ali Hərbi Mühəndis Komandirləri Məktəbinin məzunu, müharibə veteranı İlqar Orduxanov bu gün "Naxçıvan Teleradiosu" QSC-də sahə rəisi vəzifəsində çalışır.

Sevinc Qadir qızı Seyidova 1970-ci ildə Naxçıvan şəhərində anadan olub. 2002-ci ildə Naxçıvan MR Kompüter Təlim-Tədris və İnternet Mərkəzinin hazırlıq kursunu bitirib. 2006-cı ildə Naxçıvan Teleradiosunun İnformasiya və kompüter şöbəsində operator vəzifəsində çalışmağa başlayıb. 2009-2021-ci illərdə filmoteka müdiri, rejissor assistenti, fonoteka operatoru və kompüter qrafikaçısı vəzifələrində işləyib. 2022-ci ildən Naxçıvan Televiziyasının "İnformasiya texnologiyaları" şöbəsində efir kompüterçisi vəzifəsini icra edir.



* * *

Nüşabə Hüseyn qızı Həsənova 1978-ci ildə Culfa rayonunun Kırna kəndində anadan olub. 2007-2012-ci illərdə Naxçıvan Teleradiosunda radio üzrə usta, 2012-2021-ci illərdə radioda səsyazma operatoru, 2021-2023-cü illərdə "Naxçıvan Teleradiosu" QSC-də radio üzrə səs rejissoru, 2023-cü ildən "İnformasiya texnologiyaları" şöbəsində efir kompüterçisi vəzifəsində çalışır.



* * *

Sameh Lətif oğlu Süleymanov 1967-ci ildə Naxçıvan şəhərində anadan olub. 1991-ci ildə Naxçıvan Politexnik Texnikumunu bitirib. 2006-cı ildən Naxçıvan Teleradiosunda elektrik vəzifəsində çalışır.

Müseyib Əlbala oğlu Quliyev 1986-cı ildə Naxçıvan şəhərində anadan olub. 2007-ci ildə efi-kompüter operatoru vəzifəsinə qəbul olunub. Bu gün "NaxçıvanTeleradiosu" QSC-nin "Komputer qrafika" şöbəsində çalışır. Qrafika montaj operatoru vəzifəsində çalışdığı illərdə efirə təqdim olunan verilişlərin başlıqları, videoçarxlar, qrafik keçidlər və telefilmlərin qrafik montajı onun peşəkar yaradıcı əməyinin bəhrəsidir.

❋ ❋ ❋

Emil Ərrəhman oğlu Bağırov 1979-cu ildə Naxçıvan şəhərində anadan olub. 2009-cu ildə Naxçıvan Teleradiosunda videomontaj operatoru vəzifəsinə qəbul olunub. 2018-ci ilə kimi televiziyanın ümumi videomontaj işlərini həyata keçirib. Montaj rejissoru olduğu 2005-ci ilin 5 saatlıq "Yen il" bayram verilişi (rejissor F.Abbasoğlu) Naxçıvan Televiziyasının tarixində ilk irihəcmli bayram verilişi kimi yadda qalıb. Yaddaqalan digər irihəcmli verilişlərə, telefilmlərə də montaj rejissoru kimi imza atıb. 2018-ci ildən "Sənədli filmlər və dublyaj" redaksiyaının videomontaj operatoru vəzifəsini icra edir.

❋ ❋ ❋

Müslüm Mürsəl oğlu Məhərrəmov 1990-cı ildə Naxçıvan şəhərində anadan olub. 2010-cu ildən Naxçıvan Televiziyasında videomontaj operatoru kimi çalışıb, bu gün də "Təhsil və sosial məsələlər" redaksiyasında yaradıcı əmək fəaliyyətini davam etdirir. Vaxtilə efirə yayımlanan "Kinozarafat", "Gülüş köşkü", "Ordan-burdan" silsilə əyləncəli proqramların və bir çox irihəcmli ictimai-siyasi verilişlərin montajını uğurla həyata keçirib.

İlkanə Kamil qızı Mirzəyeva 1987-ci ildə Naxçıvan şəhərində anadan olub. 2011-2020-ci illərdə Naxçıvan Radiosunda səsyazma operatoru vəzifəsində çalışıb. 2021-ci ildən etibarən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasında səs operatoru vəzifəsində əmək fəaliyyətinə davam edib. Hazırda Naxçıvan Televiziyasında videomontaj operatoru kimi işləyir.

✵ ✵ ✵

Fikrət Ənvər oğlu Qurbanov 1961-ci ildə Şərur (indiki Kəngərli) rayonunun Qarabağlar kəndində anadan olub. 1983-1991-ci illərdə Rusiyada Hərbi Sənaye Kompleksində mühəndis kimi ilk əmək fəaliyyətinə başlayıb. 1991-ci ildə Elektronika Mühəndisliyi İnstitutunu bitirib. 1991-2011-ci illərdə Rabitə Nazirliyində mühəndis, baş mühəndis, "Yeni nəsil telekommunikasiya" şöbəsinin müdiri vəzifələrində çalışıb. 2011-ci ildə Naxçıvan Teleradiosunda texniki direktor vəzifəsinə qəbul olunub. Hazırda "Naxçıvan Teleradiosu" QSC-də mühəndis vəzifəsində çalışır. Naxçıvan MR Əməkdar mühəndisidir.

✵ ✵ ✵

İsmayıl Ənvər oğlu İbrahimov 1993-cü ildə Babək rayonunun Sirab kəndində anadan olub. 2014-cü ildə Naxçıvan Dövlət Universitetini bitirib. 2013-ci ildə Naxçıvan Teleradiosunda videomontaj operatoru vəzifəsində işə başlayıb. 2021-ci ildə baş mühəndis vəzifəsinə keçirilib. 2023-cü ildən Texniki şöbənin direktorudur.

İlkin Sübahi oğlu Əliyev 1991-ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Televiziyasında çalışdığı 2013-2025-ci illərdə saysız-hesabsız ədəbi-bədii və müxtəlif səpkili verilişlərə montaj rejissoru kimi imza atıb. "Kinemotoqraf", "Unudulmayan səslər", "Yuxunuz şirin olsun!", "Nənəmin nağılları", "Şən notlar", "Qocaman kapitanla səyahət" adlı bir çox proqram və verilişlərin, "Səhnəmizin Sofiyası", "Geriyə baxanda", "Ritmlərin melodiyası" kimi çoxsaylı telefilmlərin uğurlu montaj prosesinə nail olub. Xüsusilə 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidlərinə, qazilərinə həsr olunan silsilə verilişlərin bir-birindən fərqli montaj formaları da gənc videomontajçı İlkin Əliyevin özünəməxsus yaradıcılıq dəsti-xəttidir.

❋ ❋ ❋

İlahə Elşən qızı Mahmudova 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. 2013-cü ildə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Müəllif proqramları və xüsusi layihələr" redaksiyasının videomontaj operatoru vəzifəsinə qəbul olunub. "2023-cü ildə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinə daxil olub. Fəaliyyəti dövründə çoxsaylı verilişlərin və televiziya filmlərinin montajında yaxından iştirak edib.

❋ ❋ ❋

İbad Adil oğlu Allahverdiyev 1988-ci ildə Naxçıvan şəhərində anadan olub. 2010-2012-ci illərdə "İnformasiya texnologiyaları" kurslarını bitirib. 2014-cü ildən Naxçıvan Televiziyasının "Sənədli filmlər və dublyaj" redaksiyasında videomontaj operatoru vəzifəsində çalışır. İngilis və rus dillərində efirə təqim olunan "Xəbərlər" in və sənədli televiziya filmlərinin montaj prosesini həyata keçirir.

Əli İlham oğlu Qurbanov 1993-cü ildə Naxçıvan şəhərində anadan olub. 2015-ci ildə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində dekorçu vəzifəsinə qəbul olunub. 2017-ci ildən etibarən televiziyada işıqçı vəzifəsində çalışır. Əli Qurbanov çoxsaylı televiziya filmlərinin, verilişlərin hazırlanmasında işıqçı kimi fəal iştirak edib. Eyni zamanda dövlət və kütləvi tədbirlərin çəkilişində texniki heyətlə birlikdə məhsuldar fəaliyyət göstərib. Hazırda "Naxçıvan Muxtar Respublika Televiziya və Radio Verilişləri" QSC-də öz fəaliyyətini davam etdirir.

❋ ❋ ❋

Gülnarə Vüqar qızı Ağasoylu 1993-cü ildə Şahbuz rayonunun Keçili kəndində anadan olub. 2016-cı ildə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində videomontaj operatoru vəzifəsinə qəbul olunub. İncəsənət və musiqili verilişlər redaksiyasında verilişlərin montaj işində eyni zamanda "Günaydın" səhər proqramında təqdim olunan süjetlərin montaj işinə məsuliyyətlə yanaşıb. Hazırda montaj prosesində öz işini layiqincə yerinə yetirir.

❋ ❋ ❋

Orxan Nizami oğlu Cəfərov 1997-ci ildə Naxçıvan şəhərində anadan olub. 2014-2018-ci illərdə Naxçıvan Dövlət Universitetində ali təhsil alıb. 2020-ci ildə "Ədəbi-bədii verilişlər və müəllif proqramları" redaksiyasının videomontaj operatoruluğuna qəbul olunub. "Milli kino inciləri", "Sənətlə ucalanlar" kimi silsilə proqramların, bir çox telefilmərin, xüsusilə "Ulu çinar, xan çinar" telefiminin uğurlu montaj prosesini həyata keçirib. 2021-ci ildən "Naxçıvan Teleradiosu" QSC-nin "Sənədli filmlər və dublyaj" redaksiyasında videomontaj operatoru vəzifəsində çalışır.

1963-2001-ci illərdə NAXÇIVAN TELERADİOSUNDA İSTİFADƏ OLUNMUŞ TEXNİKİ AVADANLIQLAR VƏ LƏVAZİMATLAR

İlk "Kompas" kinokameraları.

"Kinor" və "Krasnoyarsk" kinokameraları.



16 mm-lik kinolent.

24 və 16 mm-lik kinolentlərin səsyazma maqnitofonu.

Sinxron lentlərin montaj masası.

"Hitaçi" videokamerası.

Telekameralar və monitorlar.

Babinli videolent və "Soni" videokasetləri.

Efirə çıxış üçün "Panasonik" videomaqnitofonu.

Efirə çıxış üçün idarəetmə rejissor pultları.

NAXÇIVAN TELEVİZİYASININ 1995-2025-Cİ İLLƏRDƏKİ EFİR VƏ XƏBƏR BAŞLIQLARI, LOQOLARI



NAXÇIVAN TELEVİZİYASININ 2025-Cİ İLİN SONLARINDA İSTİFADƏYƏ VERİLMİŞ YENİ STUDİYALARI

TANINMIŞ ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN, SƏNƏT ADAMLARININ VƏ ZİYALILARIN NAXÇIVAN TELERADİOSU HAQQINDA FİKİRLƏRİ

Bu gün Naxçıvan Televiziyasının hər bir uğuru məni hədsiz sevindirir. inanıram ki, müasir dövrümüzdə müasir dövrün tələbləri ilə ayaqlaşan Naxçıvan Televiziyası gələcəkdə də yeni-yeni uğurlar, nailiyyətlər əldə edəcək.

Səfərəli Babayev
AMEA-nın müxbir üzvü,
əməkdar elm xadimi, professor, 2003-cü il

Naxçıvan Teleradiosu Naxçıvan Muxtar Respublikasının möhürüdür. Azərbaycanda dövlət müstəqilliyi uğrunda aparılan mübarizədə həmişə ön mövqedə çıxış etmişdir. Bu gün peyk vasitəsilə dünyaya pəncərə açan Naxçıvan Teleradiosuna yeni yaradıcılıq uğurları arzulayıram.

İsa Həbibbəyli
Azərbaycan MEA-nın prezidenti,
akademik

Naxçıvan Teleradiosu Naxçıvanda ziyalı kadrların hazırlanmasında tarixi xidmətlər göstərmiş, naxçıvanlı ziyalıların ictimai mühitə çıxmasında ciddi rol oynamışdır. Naxçıvan Televiziyasının bu xidmətləri indi də minnətdarlıqla xatırlanır.

İsmayıl Hacıyev
AMEA Naxçıvan Bölməsinin sədri,
akademik

2001-2003-cü illərdə Naxçıvan Televiziyasında işlədiyim qısa müddət ərzində təcrübəli əməkdaşlardan çox şey öyrəndim. Naxçıvan Teleradiosu mənim üçün əsl həyat məktəbi oldu. Naxçıvan Teleradiosunun peyk vasitəsilə yayımı məni çox sevindirdi. Buna görə də teleradionun bütün əməkdaşlarına bu yayımda uğurlar arzulayıram.

Elbrus İsayev
Naxçıvan Dövlət Universitetinin rektoru,
tarix üzrə fəlsəfə doktoru, dosent

Mən 1968-ci ildən Naxçıvan Teleradiosu ilə əməkdaşlıq edirəm. Bu əməkdaşlıq mənim istər bədii, istərsə də elmi yaradıcılığımın inkişafında çox böyük rol oynayıb. Bu mənada mən Naxçıvan Teleradiosunu böyük məktəb hesab edirəm.

Həsənəli Eyvazlı,
filologiya üzrə fəlsəfə doktoru,
dosent, şair-dramaturq

Naxçıvan Teleradiosu təkcə mənim yox, hər bir tamaşaçının, hər bir ziyalının, hər bir incəsənət, mədəniyyət, təhsil, elm adamının, hər bir mətbuat işçisinin həyatında mühüm rol oynayıb.

Azad Novruzov,
Naxçıvan MR Ali Məclisinin deputatı,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Teleməkanında bir sıra mənəvi-əxlaqi dəyərlərə malik olan və seçilən Naxçıvan Teleradiosu bu gün efir məkanında peyk yayımını həyata keçirir. Naxçıvan Teleradiosu qloballaşma dövrünün müsbət dəyərlərini mənimsəyən öz yolu və dəst-xətti olan teleradiodur. Milli-mənəvi irsimizin təbliğində əvəzsiz rol oynayan Naxçıvan Teleradiosunun əməkdaşlarına yaradıcılıq yollarında yeni uğurlar arzulayıram.

Xanəli Kərimli
filologiya üzrə fəlsəfə doktoru, şair

Ömrümün 50 ili Naxçıvan Teleradiosu ilə bağlı keçib. Həyatda bütün uğurlarıma görə Naxçıvan Televiziyasına borcluyam.

Asim Yadigar
Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi,
Naxçıvan MR Yazıçılar Birliyinin sədri

Belinskinin Qoqol haqqında dediyi məşhur kəlamı improvizə edərək deyə bilərəm ki, bütün Rusiya Qoqolun "Şinel"indən çıxdığı kimi, Naxçıvan ziyalılarının da böyük bir qismi Naxçıvan Teleradiosunun "Şineli"ndən çıxıb.

Hüseyn Əsgərov
"Tərəqqi" medallı əməkdar jurnalist

Naxçıvan Teleradiosu yarandığı ilk illərdən tarixin bütün dönəmlərində milli mənəvi dəyərlərin keşiyində dayanaraq xalqa sədaqətlə xidmət edib. Bu illər ərzində cəmiyyətin maariflənməsində, gənc nəslin vətənpərvər və sağlam ruhda böyüməsində, milli və dövləti maraqlarımızın qorunmasında müstəsna rol oynayıb. Çox xoşdur ki, bu gün Naxçıvan Teleradiosu peyk vasitəsi ilə yayımlanır. Bu münasibətlə telerdaionun bütün əməkdaşlarını təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Muxtar Məmmədoğlu
"Tərəqqi" medallı əməkdar jurnalist

Son illərdə aparılan texnoloji modernləşmə və peyk yayım imkanlarının genişləndirilməsi Naxçıvan Teleradiosunu regional informasiya və mədəniyyət məkanında nüfuzunu möhkəmləndirən aparıcı media qurumuna çevirmişdir. Naxçıvan Teleradiosu yalnız xəbərləri çatdırmaqla kifayətlənmir, o, mədəni irsimizi, tarixi dəyərlərimizi sistemli və davamlı şəkildə izləyiciyə təqdim edən, ictimai şüuru formalaşdıran strateji platforma kimi regionu informasiya və mədəniyyət körpüsü rolunda təmsil edir.

Şəhla Şirəliyeva,
filologiya üzrə fəlsəfə doktoru, dosent.
Əməkdar jurnalist, NDU "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri

Naxçıvan Teleradiosu ümumi teleradio təcrübəsində özünəməxsus kimliyə sahibdir. Bu mənada o, xüsusi əhəmiyyət daşıyır.

Məmməd Səfa
Xalq artisti, professor

Naxçıvan Teleradiosu Naxçıvanın müasir mərhələdə yüksəliş strategiyasına və sabahının üfüqlərinin göstərilməsinə inamla xidmət edir və bu xidmət yolunda Naxçıvan Teleradiosu artıq peyk vasitəsilə yayımlanır. Yolun açıq və uğurlu olsun Naxçıvan Teleradiosu.

Yeganə Məmmədova,
tarix üzrə fəlsəfə doktoru,
Şərur rayon Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru

Naxçıvan Televiziyası tərəfsiz informasiya mənbəyi olmaqla yanaşı maarifçilik misssiyasını uğurla yerinə yetirən, çətin sınaqları təcrübəyə çevirməyi bacaran media subyektidir.

Əli Həşimov
Naxçıvan MR Ali Məclisinin deputatı,
filologiya üzrə fəlsəfə doktoru

Mənim sənət aləmində bir musiqiçi kimi tanınmağımda, uğur qazanmağımda Naxçıvan Teleradiosunun rolu əvəzsizdir. Vaxtilə atam Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Prezident təqaüdçüsü Nurəddin Babayevin Naxçıvan Teleradiosunun peyk vasitəsilə yayım arzusu bu gün artıq gerçəkləşib. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Naxçıvan Teleradiosunun peyk vasitəsilə yayımlanması məni ürəkdən sevindirdi. Bu münasibətlə Naxçıvan Teleradiosunun bütün əməkdaşlarını ürəkdən təbrik edir, onlara yeni yaradıcılıq uğurları arzulayıram.

Zemfira Babayeva,
Naxçıvan Dövlət Universitetinin dosenti,
Naxçıvan MR Əməkdar müəllimi

SON SÖZ

Bütün bu yanaşmalar, qəbul olunan qərarlar, keçirilən dövlət əhəmiyyətli tədbirlər, ölkə rəhbərinin etimadı Naxçıvan Teleradiosunun qarşısında yeni üfüqlər açdı. Naxçıvan Radiosu və ölkənin ilk regional telekanalı kimi Naxçıvan Televiziyası bu gün Azərbaycanın ən ucqar nöqtələrində, dünyada belə izlənilmək hüququ qazandı. Bu da teleradio əməkdaşları qarşısında daha bir məsuliyyət olmaqla yanaşı, yeni yaradıcılıq uğurlarına və daha əzmlə çalışmalarına imkan yaratdı.

Oxuculara təqdim olunan "Əsrin güzgüsü: Naxçıvan Teleradiosu" kitabı bu istiqamətdə Azərbaycan Milli Mətbuatının 150 illiyinə, əsasən də Naxçıvan Radiosunun 94-cü və Naxçıvan Televiziyasının 63-cü ildönümünə böyük töhfədir. Gərgin əməyin, dərin axtarışların, uzunmüddətli araşdırmaların yekunu kimi Naxçıvan Teleradiosunun böyük, şanlı və şərəfli tarixini özündə cəmləşdirib.

"Əsrin güzgüsü: Naxçıvan Teleradiosu" kitabının gələcək tədqiqatlar üçün müfəssəl mənbə, istinad yeri olacağına inanır, bu gün də can yanğısı ilə çalışan Naxçıvan Teleradiosu əməkdaşlarının gələcək illərdə yeni kitablarda tarixləşmələrinə ümid edir və sonda Azərbaycan ədəbiyyatının korifey sənətkarı, xalq şairi Rəsul Rzanın aşağıdakı sətirlərini xatırlatmaq istərdik:

... Nə qədər iş var görməli,
Nə qədər söz var deməli.
Vaxt var ikən
bircə qələm vur,
bir budaq peyvənd elə.
Düşmənə amansız ol,
dosta xoşqılıq!
Vaxt var ikən
elə yaşa, elə çalış ki,
bir gün sən olmayanda
hər kəsə aydın görünsün
yerində qalan boşluq!

Bu kitab
Babək "Sirab" ASC və
"Badamlı" Mineral Sular MMC-nin
sponsorluğu ilə nəşr olunmuşdur.

ƏSRİN GÜZGÜSÜ:
Naxçıvan Teleradiosu

AZƏRBAYCAN MİLLİ MƏTBUATI - 150
(1875-2025)

NAXÇIVAN RADİOSU - 94
(1932 - 2026)

NAXÇIVAN TELEVİZİYASI - 63
(1963 - 2026)

Çapa imzalanmış 24.04.2026.
Formatı 64X90 1/8. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 24.5 ç.v.
Sifariş № 81. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.